# AZƏRBAYCAN DİLİ

DÖVLƏT DİLİ

11

DƏRSLİK





# Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**
**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

SAMİRƏ BEKTAŞİ

# AZƏRBAYCAN DİLİ

# 11

*Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün*
*Azərbaycan dili (dövlət dili) fənni üzrə*

**DƏRSLİK**

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB
BAKI 2018

# MÜNDƏRİCAT


Giriş ....................5

**1**

**Müəllim və biz....................6**

Övladımın müəlliminə məktub ....................8
Üzeyirin mənəvi qardaşı ....................20
“Gün var min ayə dəyər” ....................26
“İşığı oğurlanmış ulduz” ....................34
Harvard Universiteti ....................40
Ömrün mənası ....................48

**2**

**Dəyərlər ....................56**

Təbəssüm ....................58
Faydalı məsləhət ....................64
Hekayət ....................72
“Çempion” ....................78
Salur Qazanın evinin yağmalandığı boy...84
Referat ....................92
20 Yanvar – Ümumxalq Hüzn Günü ....................96

**3**

**Tariximiz ....................98**

Azərbaycan ....................100
Azərbaycanın ilk vitse-admiralı ....................104
Döyüşçü yoldaşlarına “qayıdacağam” demişdi ....................112
Baharın müjdəçisi ....................120
Xocalı – qan yaddaşımız! ....................130
Mən bir qadına aşiqəm... ....................132
Mətn ....................140

**4**

**Azərbaycan ....................148**

Bakı ....................150
Azərbaycan qoruqları ....................160
Azərbaycan xalça sənəti ....................166
Azərbaycanın milli geyimləri ....................172
Azərbaycan Silahlı Qüvvələri ....................174
Vətən ....................182

Lüğət ....................184
Dərslikdə ixtisarla verilmiş şəxs adları ....................191
İstifadə olunmuş ədəbiyyat ....................192


**Şərti işarələr:**

– Məzmun tapşırıqları

– Qrammatik sual və tapşırıqlar

– Müzakirə

– Lüğət üzərində iş

– Yazı

– Dil qaydaları

# GİRİŞ

Əziz şagirdlər!

Məktəbdə oxuduğunuz 11 il ərzində Azərbaycan dilinin incəliklərinə, zənginliyinə bələd olmuşsunuz. Oxuduğunuz mətnlər Sizin dünyagörüşünüzü genişləndirib məlumatınızı artırmaqla yanaşı, Azərbaycan dilinin quruluşu, üslubları haqqında biliklər vermişdir.

Siz bu illər ərzində Azərbaycan dilində müəyyən nitq vərdişlərinə, eyni zamanda cəmiyyətin müxtəlif sahələrində fəaliyyət göstərmək üçün əlaqə və ünsiyyət bacarıqlarına yiyələnmişsiniz.

Bu tədris ilində əvvəlki siniflərdə öyrəndiyiniz zəruri dil qaydalarını tətbiq etməklə müxtəlif üslublarda yazılmış mətnlər üzərində iş aparacaq, özünüz də müxtəlif üslublarda mətnlər hazırlamağı öyrənəcəksiniz.

Çalışın ki, dil və nitq vahidlərinə həssas yanaşıb onlardan bacarıqla istifadə edəsiniz.

Hər birinizə uğurlar arzu edirik!

# I MÜƏLLİM VƏ BİZ

1. Övladımın müəlliminə məktub
2. Üzeyirin mənəvi qardaşı
3. “Gün var min ayə dəyər”
4. “İşığı oğurlanmış ulduz”
5. Harvard Universiteti
6. Ömrün mənası

Yaşamaq yanmaqdır, yanasan gərək,
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmırsa, yaşamır, demək,
Onun da mənası yanmağındadır...

*Bəxtiyar Vahabzadə*

1. Bölmənin epiqrafına münasibət bildirin.
2. B.Vahabzadə "yanmaq" dedikdə nəyi nəzərdə tutur?
3. Şeirdə müəllifin oxucularına çatdırmaq istədiyi fikir nədir?
4. Siz "həyatın mənası" dedikdə nə başa düşürsünüz?
5. Bölmədəki mətnlərlə, orada adıçəkilən insanların fəaliyyəti ilə tanış olduqca "onların həyatının mənasını cəmiyyətə xidmət etməkdə görürdülər" fikrini əsaslandırmağa çalışın.
6. Bölməni bitirdikdən sonra mətnlərin məzmununun bölmənin epiqrafı ilə uyğunluğunu təsdiqləyin.

1

1. Ədəbi tələffüz qaydalarını gözləməklə məktubu düzgün oxuyun.

## ÖVLADIMIN MÜƏLLİMİNƏ MƏKTUB

"Hər bir müəllim bilməlidir ki, onun üzərinə düşən vəzifə, onun dövlət üçün, millət üçün, Azərbaycan xalqı üçün gördüyü iş bütün başqa sahələrdə fəaliyyət göstərən insanların hamısının işindən ən gərəklisi, ən lazımlısıdır".

**Heydər Əliyev,**
*Ümummilli lider*



*Övladıma "yazmaqdan öncə qələmi tutmaq ədəbini, kitabı oxumaqdan öncə onu sevməyin sirrini, əyləşmə və dinləmə əxlaqını" təlim edin...*

Əziz müəllim, bu məktubu sizə yazmazdan öncə xeyli düşündüm. **Yazaca...larımın** daşıdığınız şərəfli ada layiq olmasına çalışdım. Bu sözləri bir valideynin adi fikirləri kimi qəbul etməyin. Bunlar həm də millətinin, vətəninin gələcəyini düşünən bir vətəndaşın qəlbinin səsidir. Bu, şərəfli bir ömür yoluna yenicə qədəm qoyan övladının **ba...ışlarından** saçılan sevincdən doğmuş sevgi işığıdır.

**Əziz müəllim, artıq bir valideyn kimi arzularının çiçəkləndiyi anın başlanğıcına qədəm qoydum.** Bəli, övladımı sonsuz sevgi ilə məktəbə yola salıram. Bundan gözəl nə ola bilər ki?! Demək, mən övladımı şərəfli ad sahibinə – müəllimə etibar edirəm. Günün yarısını öz isti nəfəsi, zərif təbəssümü, qayğılı baxışları ilə övladıma sahib çıxan müəllimə! İnan ki, ağlı-qaralı dünyamızın saflığı kimi tanımışam sizi. ***Qaranlı...dan*** *işığa, haqsızlıqdan ədalətə, israfçılıqdan qənaətə, ədavətdən məhəbbətə*

**ORFOQRAFİYA**

*q*, yoxsa *x*?

- ba..ışlarından –
- qaranlı..dan –
- yazaca…larım –

**ORFOEPİYA**

Hansı düzdür?

- [haxsızlıqdan] – [haǩsızdıxdan]
- [rahatlıx] – [rahatdıx]
- [qazanmax üçün] – [qazammağ üçün]

*gedən yolun yolçusu sanmışam.* Sizlərin qarşısında özüm də elə bil məktəbliyə dönürəm. Bütün hərəkətlərimə sanki ölçü-biçi verirəm. (*Şərəfli, şöhrətli*) adınız qarşısında baş əyirəm. Əziz müəllim, bu gündən etibarən artıq övladım sizə əmanətdir...

Bu gün onun məktəbə getdiyi ilk günüdür. O, həyat yolunda ilk kövrək (*addımlarını, qədəmlərini*) atır. Sizin (*böyük, iri*) həyat təcrübənizdən əxz edəcək örnəklərə ehtiyacı var. O sizə çox güvənir. Bilirəm, etibarınızı qazanmaq üçün çox çalışacaq. Sizin bircə şəfqətli baxışınız ona dünyanı bəxş edəcək. Çantasının ağırlığını hiss etmədən balaca qəlbinin əzmi ilə məktəbə tələsən övladımın taleyi sizə həvalə olunur, əziz müəllim.

*Etiraf edim ki, övladım bütün ili sizinlə tanış olacağı bu günü səbirsizliklə gözlədi. Görmədən belə sevdi sizi. Müəllim adına qəlbində böyük sevgi bəslədi. Mən inamla deyirəm ki, siz övladımın hafizəsinin aydınlığısınız. O hər dəfə sizi görəndə gözlərinə təbəssüm, qəlbinə rahatlıq hakim kəsiləcək.*

Övladım hələ həyatı anlamır, odur ki, keçmiş təcrübənizdən, həyat bilginizdən ona verəcəyiniz örnəklərə çox ehtiyacı var. Yaşınızın az olmasına baxmayaraq, yaradılışından ona verilən istedadla bu ehtiyacı hiss edir və buna görə də bütün şüuru ilə sizə güvənir.

Bilirəm, bu gün günortadan sonra dərsdən evə (*dönəndə, qayıdanda*) ən çox sizdən danışacaq. Əvvəl ev tapşırığını çox verdiyinizdən şikayətlənəcək. Sonra ona bəslədiyiniz sevgini dilə gətirəcək. Bunu sizə deməyə çəkinəcək, amma onun əvəzindən mən deyirəm: o sizi çox (*sevir, istəyir*)! Buna görə də etibarınızı qazanmaq üçün çox çalışacaq. Sizin bir dəfə şəfqətlə gülümsəməyiniz ona dünyanı bəxş edəcək.

Sizdən övladımın oxuyub-öyrənmə həvəsinin həmişə canlı qalmasına nəzarət etməyinizi rica edirəm. Ona məntiqlə düşünməyi, qətiyyətli, vüqarlı olmağı öyrədin. Ona ən başlıcasını – (*dürüst, doğru, düzgün*) olmaq əxlaqını aşılayın.

Bir də sizdən son və əsas ricam budur ki, şagirdinizin saf, təmiz (*könlündə, qəlbində*) Vətən və Millət sevgisinin çiçəklənməsi üçün əlinizdən gələni edin. Ona hər gün böyük olan xalqından, vətənindən bəhs edin ki, belə bir ölkənin vətəndaşı olduğu üçün qürur duy... Əziz müəllim, siz övladımın mənəvi sahibisiniz. Gələcək həyatına, ömrünə düşəcək işıq məhz sizin qəlbinizdən saçılacaq. Bu müqəddəs vəzifəni şərəflə daşıdığınıza əmin... . Gələcəyin kamil insanını yetişdirmək əzminizdə müvəffəq olmağınızı diləyir... .

**Aygün Şabıyeva,**

**"İşıq" jurnalından, №3, 2014**

2. Mətnin üslubunu müəyyənləşdirin. Üslubu müəyyənləşdirmək üçün nəyə diqqət yetirmək lazımdır?

3. Mətndə hansı cümlələrdən sonra abzasın yaradılmasına ehtiyac var?

4. Mətndə valideynin hansı arzuları əks olunmuşdur? Məktub müəllifi müəllimin qarşısında hansı tələbləri qoyur?

5. “Siz övladımın mənəvi sahibisiniz”, dedikdə müəllif nəyi nəzərdə tutur?

6. Nizaminin “İsgəndərnamə” poemasından verilmiş hissəni oxuyun. İsgəndərin müəllimləri qarşısında qoyduğu tələblərə diqqət yetirin.

7. Mətndə fərqləndirilmiş cümlədə (səh. 8) hansı fikir ifadə olunmuşdur? Həmin fikrə münasibət bildirin və faktlarla əsaslandırmağa çalışın.

8. “Övladımın müəlliminə məktub” mətnində müəllifin müəllim qarşısında qoyduğu tələblərlə İsgəndərin müəllimləri qarşısında qoyduğu tələbləri müqayisə edərək aşağıdakı sxemi tamamlayın.




✓ *Hansılar oxşardır? Bu tələblər sizin arzu və istəklərinizlə üst-üstə düşürmü?*

9. Verilmiş sxemi şərh edin.




✓ *Sizcə, müəllimin cəmiyyət qarşısında borcu nədir? Bəs sizin?*

✓ *Bəs valideyn və şagirdin cəmiyyət qarşısındakı borcu nədir?*

✓ *Sizcə, sual işarəsinin yerində nə yazılmalıdır?*

✓ *Təhsil prosesinin iştirakçıları arasındakı əlaqənin hansı müsbət cəhətləri vardır?*

- *Poemadan verilmiş hissəni oxuduqdan sonra sualları cavablandırın.*
  - ✓ *Nizami nə üçün "İsgəndərnamə" əsərində İsgəndəri yeddi alimlə "xəlvətə çəkir"?*
  - ✓ *Sizcə, dünyanın yarısını fəth edən İsgəndər nə üçün dünya sirlərini öyrənməyə çalışır? Onu bu qənaətə gəlməyə nə vadar edir?*
  - ✓ *İsgəndərin suallarına siz necə cavab verərdiniz?*



Bir dəfə dünyanı səyahət edən
İsgəndər kecərək neçə ölkədən,
Gəlib öz yerinə, yurduna çatdı,
Doğma vətənini nurla parlatdı.
Ağıl hər bir sirrə yol tapsın deyə,
O verdi fikrini elmə, biliyə.
Xəyalı göyləri gəzdi, dolaşdı,
Bağlı qapıların sirrini açdı.
Bəyəndi pəhləvi, yunan və dəri
Dilində yazılmış bir çox əsəri.
İstər rum elində, istər yunanda,
Dünya dillərində nə var cahanda
Buyurdu, tərcümə edilsin bütün
Bilik xəznəsni doldurmaq üçün.
O böyük, ağıllı, ayıq hökmüdar
Öz şahlıq taxtında tutarkən qərar,
Əmr etdi, verildi belə bir fərman:
"Alimdir gözündə ən əziz insan!
Elmlə, hünərlə! – Başqa cür heç kəs
Heç kəsə üstünlük eləyə bilməz!
Rütbələr içində seçilir biri –
Hamıdan ucadır alimin yeri!"

Belə qərar verdi: yanında ancaq
Hər kəs öz elmiylə bir yer tutacaq.
Hamı elmə, fənnə elədi rəğbət,
Çünki elmə təşviq edirdi dövlət.
Yeddi filosofu seçdi bu zaman:
Dedi alimlərə sirri açaraq:
"Sirrimiz nə qədər gizlin qalacaq?
Gəlin bir günü də elmə sərf edək!
Bircə gün baxaraq günəşə, aya,
Fələyin sirini qoyaq ortaya.
Bilək ki, bu öküz belitək çadır
Bu möhkəm yer üstdə necə dayanır?
Əvvəli necəymiş bu göyün, yerin,
Bu haqda fikrini hamı söyləsin!
Necə yaranmışdır, desin, bu dünya
Əvvəl yer yaranmış, yoxsa asiman?
Qoy açsın bu sirri ağlın açarı.
Neçə çiçəklmiş yerin baharı?
Necə qoyulmuşdur bina əzəldən?
Necə səslənmişdir ilk mahnı teldən?

*Nizami Gəncəvi,*
*"İsgəndərnamə" poemasından ixtisarla*

✓ *Miniatürü öz sözlərinizlə təsvir edin. Miniatürlə poema arasındakı uyğunluğu nə ilə əsaslandırardınız?*

10. Qanunu oxuyun, ixtisarla verilmiş mətnin dili üzərində iş aparın.

## "TƏHSİL HAQQINDA"
## Azərbaycan Respublikasının Qanunu

**Maddə 4. Təhsilin əsas məqsədi**

4.0. Azərbaycan Respublikasında təhsilin əsas məqsədi aşağıdakılardır:

4.0.1. Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

4.0.2. milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq;

4.0.3. sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq.

**Maddə 5. Təhsil hüququna dövlət təminatı**

5.1. Dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir.

5.2. Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir.

5.4. Dövlət hər bir vətəndaşın icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Dövlət təhsil müəssisələrində hər bir təhsilalan pulsuz ümumi təhsil almaq hüququna malikdir. Dövlət orta ixtisas təhsilində və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq təhsilalanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir.

5.5. Dövlət əmək bazarının tələblərinə uyğun olaraq təhsil müəssisələrinə ixtisaslı kadr hazırlığı üçün dövlət sifarişləri verir və məzunların müvafiq işlə təmin olunmasına şərait yaradır.

5.6. Dövlət maddi vəziyyətindən asılı olmayaraq, istedadlı şəxslərin təhsilini davam etdirməsinə təminat verir, sosial müdafiəyə ehtiyacı olanların təhsil almasına şərait yaradır.

5.7. Dövlət milli təhsil ənənələrinin qorunmasına, inkişafına və innovasiyaların tətbiqinə təminat verir.

5.8. Dövlət xaricdə yaşayan azərbaycanlıların təhsili ilə bağlı xüsusi layihələr və proqramlar həyata keçirir.

**Maddə 7. Tədris dili**

7.1. Azərbaycan Respublikasının təhsil müəssisələrində tədris dili dövlət dili – Azərbaycan dilidir.

7.2. Vətəndaşların və təhsil müəssisəsi təsisçilərinin istəyi nəzərə alınaraq, xüsusi hallarda (Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və ya müvafiq icra hakimiyyəti orqanı ilə razılaşma əsasında) ümumi təhsil müəssisəsində Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi və Azərbaycan coğrafiyası fənləri tədris olunmaqla tədris müvafiq dövlət təhsil standartları əsasında digər dillərdə də aparıla bilər.

**Maddə 19. Ümumi təhsil**

19.1. Ümumi təhsil təhsilalanlara elmlərin ümumi əsaslarının öyrədilməsini, zəruri bilik, bacarıq və vərdişlərin aşılanmasını, onların həyata və əmək fəaliyyətinə hazırlanmasını təmin edir.

19.2. Ümumi təhsil təhsilalanların fiziki və intellektual inkişafına, zəruri biliklərə yiyələnməsinə, onlarda sağlam həyat tərzinə və sivil dəyərlərə əsaslanan vətəndaş təfəkkürünün formalaşmasına, milli və dünyəvi dəyərlərə hörmət hissinin aşılanmasına, ailə, cəmiyyət, dövlət və ətraf mühit qarşısında hüquq və vəzifələrinin müəyyən edilməsinə imkan yaradır.

19.7. Ümumi təhsil sistemində təhsilalanların fiziki inkişafını təmin etmək və müxtəlif yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək məqsədilə məktəbdənkənar təhsil proqramları tətbiq olunur.

19.9. İbtidai təhsilin məqsədi təhsilalanlara oxumaq, yazmaq və hesablama bacarıqları aşılamaq, onlarda insan, cəmiyyət və təbiət haqqında ilkin həyati biliklər, məntiqi təfəkkür elementləri, estetik, bədii zövq və digər xüsusiyyətlər formalaşdırmaqdan ibarətdir.

19.13. Ümumi orta təhsilin məqsədi təhsilalanların şifahi nitq və yazı mədəniyyətinin, ünsiyyət bacarığının, idrak fəallığının və məntiqi təfəkkürünün inkişafını, təhsil proqramına daxil olan fənlər üzrə və eləcə də dünya sivilizasiyasının inkişafı haqqında müvafiq bilik və təsəvvürlərinin formalaşdırılmasını, müasir informasiya-kommunikasiya vasitələrindən istifadə etmək qabiliyyətini, hadisələri qiymətləndirmək və öz gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirmək bacarığını təmin etməkdən ibarətdir.

19.17. Tam orta təhsil səviyyəsində təhsilalanların istedad və qabiliyyətinin reallaşdırılması, müstəqil həyata və peşə seçiminə hazırlanması, fəal vətəndaş mövqeyinin, milli və ümumbəşəri dəyərlərə, insan hüquqlarına və azadlıqlarına hörmət hissinin və tolerantlığın formalaşdırılması, müasir informasiya-kommunikasiya texnologiyalarından və digər texniki vasitələrdən sərbəst istifadə etməsi, iqtisadi biliklərin əsaslarına yiyələnməsi, xarici dillərdən birində, yaxud bir neçəsində ünsiyyət saxlaması və s. təmin olunur.

**Maddə 31. Təhsil prosesinin iştirakçıları**

31.0. Təhsil prosesinin iştirakçıları aşağıdakılardır:

31.0.1. təhsilalanlar – uşaqlar, şagirdlər, tələbələr, kursantlar, müdavimlər, magistrantlar, doktorantlar və başqaları.

**Maddə 32. Təhsilalanların hüquq və vəzifələri**

32.3. Təhsilalanların hüquqları aşağıdakılardır:

32.3.1. qanunvericilikdə nəzərdə tutulmuş qaydada təhsil müəssisəsinə qəbul olunmaq;

32.3.2. təhsil müəssisəsini, təhsilin istiqamətini, ixtisası, təhsilalma formasını və təhsil dilini sərbəst seçmək;

32.3.3. dövlət təhsil standartlarına uyğun keyfiyyətli təhsil almaq;

32.3.4. müvafiq qaydada təhsilin təmayülünü, təhsil proqramlarını və sinifdənkənar məşğuliyyəti seçmək;

32.3.9. fasiləsiz təhsil almaq;

32.3.10. sağlamlıq üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq;

32.3.15. dövlət və bələdiyyə ümumi təhsil müəssisələrində dərsliklərlə pulsuz təmin olunmaq;

32.3.16. təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək, öz fikir və mülahizələrini sərbəst ifadə etmək.

32.5. Təhsilalanların vəzifələri aşağıdakılardır:

32.5.1. dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək;

32.5.2. pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;

32.5.3. təhsil müəssisəsinin nizamnaməsinin tələblərinə riayət etmək;

32.5.4. dövlət, cəmiyyət, ailə və özü qarşısında məsuliyyətini dərk etmək;

32.5.5. təhsil sahəsində qanunvericiliyin tələblərinə, etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək;

32.5.6. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**Maddə 34. Valideynlərin və ya digər qanuni nümayəndələrin hüquq və vəzifələri**

34.1. Valideynlərin və ya digər qanuni nümayəndələrin təhsil sahəsində hüquqları aşağıdakılardır:

34.1.1. yetkinlik yaşına çatmayan övladları (qəyyumluğunda və ya himayəsində olan şəxslər) üçün təlim-tərbiyə müəssisəsini seçmək;

34.1.2. təhsil prosesinin təşkili, tədrisin keyfiyyəti, övladlarının (qəyyumluğunda və ya himayəsində olan şəxslərin) dərsə davamiyyəti, təhsilə marağı və davranışı haqqında məlumat almaq;

34.1.3. təhsilalanların hüquqlarını müdafiə etmək, təhsil müəssisəsinin idarə olunmasında iştirak etmək;

34.1.4. təhsil müəssisəsi ilə əməkdaşlıq etmək, tədris prosesinin təkmilləşdirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması üçün təkliflər irəli sürmək və könüllü yardımlar etmək.

34.2. Valideynlərin və ya digər qanuni nümayəndələrin təhsil sahəsində vəzifələri aşağıdakılardır:

34.2.1. övladlarının (qəyyumluğunda və ya himayəsində olan şəxslərin) erkən yaşlarından fiziki, əxlaqi və intellektual inkişafına şərait yaratmaq, onların icbari ümumi orta təhsil almasının təmin olunması və mənəvi yetkinliyi üçün məsuliyyət daşımaq;

34.2.2. övladlarını (qəyyumluğunda və ya himayəsində olan şəxsləri) humanistlik, vətənpərvərlik, azərbaycançılıq, əməksevərlik, öz dilinə, ədəbiyyatına və tarixinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə etmək.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 19 iyun 2009-cu il*

11. “Təhsil haqqında” Qanuna əsasən özünüzün təhsil sahəsindəki hüquq və vəzifələrinizi yığcam şəkildə qruplaşdırın.

| Hüquqlarım | Vəzifələrim |
| --- | --- |
| 1. Təhsil müəssisəsinə qəbul olunmaq; | 1. Bilik, bacarıq və vərdişlərə yiyələnmək; |
| 2. ____________________ | 2. ____________________ |
| 3. ____________________ | 3. ____________________ |

12. Mətnə əsasən məktəbdə şagirdə hansı dəyərlərin aşılandığı barədə fikir yürüdün. “Təhsil haqqında” Qanundan istifadə etməklə suala cavab verin.

13. Mətndə (səh. 9) mötərizədə verilmiş sözlərdən hansının işlənməsi daha məqsədəuyğundur?

14. Uyğunluğu müəyyənləşdirin.

| | |
|---|---|
| Örnək | müəyyən edilmiş ölçü vahidinin dəqiq nümunəsi |
| Nümunə | hər hansı bir məmulatın haqqında təsəvvür yarada biləcək hissəsi |
| Etalon | hər hansı bir şey üçün ölçü nümunəsi, müqayisə üçün nümunə |

15. *Örnək, nümunə, etalon* sözlərini leksik mənalarına əsasən cümlələrdə yerləşdirin.

- Biz hələlik vətənin yüksək dağlarına çəkiləcəyik, orada bütün bəşəriyyət üçün ....... ola biləcək bir ölkə düzəldəcəyik. (*C.Cabbarlı*)
- Azərbaycan bütün şərqə ....... göstərilən azad bir ölkədir.
- Təhvil verilən məhsulun keyfiyyətini əvvəlcədən müəyyən edilmiş ....... əsasında yoxlayırlar.

16. *Etalon* sözü termin kimi işlənə bilərmi? Fikrinizi nümunələrlə əsaslandırın.

17. Poemada (səh. 11) *yer* sözünün ifadə etdiyi mənalara diqqət yetirin. Müəyyən etdiyiniz mənalar əsasında həmin sözləri cümlədə işlədin.

18. Sinonimlər cərgəsini tamamlayın.

*inam, ... , ...*

19. Mətndəki (səh. 8) *əvvəlcə* sözünün 1-ci abzasda sinonimini tapın. Sizcə, bu söz mətndəki sözü əvəz edə bilərmi?

20. Poemada (səh. 11) hansı sözlərdə fonetik norma pozulmuşdur?

21. Mətndə (səh. 9) sonuncu abzasda nöqtələrin yerinə uyğun şəxs şəkilçiləri artırın.

22. Həm mətndə (səh. 8), həm də poemada sual cümlələrini seçib onların adi sual cümləsi, yaxud bədii sual olduğunu müəyyənləşdirin. Nə üçün “Təhsil haqqında” Qanunda sual cümlələri yoxdur?

23. Mətndə (səh. 8) tünd şriftlə verilmiş cümlədə uzlaşma harada pozulmuşdur?

24. Mətndə (səh. 9) *Vətən* və *millət* sözlərinin böyük hərflə düzgün yazılıb-yazılmadığını əsaslandırın.

25. Mətndə (səh. 9) altından xətt çəkilmiş cümlədə hansı sözdən sonra vergül işarəsi səhv qoyulmuşdur? Həmin sözü müəyyənləşdirib cümlədə elə işlədin ki, ondan sonra vergül işarəsi qoyulsun.

26. Mətndə (səh. 9) göy rəngdə verilmiş cümlədə hansı sözdə dəyişiklik etsəniz, cümlə düzgün olar?

27. Poemada (səh. 11) altından xətt çəkilmiş sözlər böyük, yoxsa kiçik hərflə yazılmalıdır?

28. Mətnlərin üslubları arasında hansı fərq vardır? Həmin fərqləri müəyyənləşdirib cədvəl şəklində yazın.

| Mətnlər | Üslubi fərqlər |
|---|---|
| "Övladımın müəlliminə məktub" | |
| "İsgəndərnamə" poeması | |
| "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu | |

29. Fərqləndirilmiş abzasda:
- Mürəkkəb cümlələri seçib sxemini qurun.
- Hansı cümlədə söz sırası pozulmuşdur?

✓ *Söz sırası pozulmuş cümləni elə dəyişin ki, - - - - ~~~~ ==== sxeminə uyğun olsun. Sonra hər iki cümləni məzmun baxımından müqayisə edin. Dəyişiklik baş verdimi?*

30. "Əgər gələcəkdə müəllim olsam ..." mövzusunda esse yazın.
- *Esse yazmaq üçün 18–19-cu səhifələrdə verilmiş göstərişlərdən istifadə edə bilərsiniz.*




## Giriş

Bu hissə oxucuya essenin nədən bəhs etdiyini, nəyin müzakirə olunduğunu çatdırmalı, əsas ideyanı özündə əks etdirməlidir.

## Əsas hissə

Əsas hissədə müəllif essenin əsas mahiyyətini açmalı, fikirləri inkişaf etdirərək onları sübutlarla, faktlarla təqdim etməlidir. İrəli sürülən fərziyyələr nümunə və təsvirlərlə zənginləşdirilməlidir. Giriş hissədə yığcam şəkildə verilmiş fikirlər əsas hissədə inkişaf etdirilməli və əsaslandırılmalıdır. Hər bir abzasın özünün əsas məzmunu ifadə edən cümləsi olmalı və abzasın əvvəlində verilməli, həmin abzasın əsas ideyasını özündə ehtiva etməlidir.

## Nəticə

Müəllif essedə ifadə etdiyi arqumentləri və ideyaları bir daha vurğulayaraq oxucunun diqqətini əsas fikirlərə cəmləməlidir. Bu hissə, sadəcə, essedə irəli sürülmüş əsas düşüncələrin təkrar olunaraq ümumiləşdirilməsi deyil, sübutlar gətirməklə, əsaslandırmaqla əldə edilən nəticənin təqdiminə xidmət etməlidir.

## ESSENİN QİYMƏTLƏNDİRİLMƏ MEYARLARI

**Giriş**

1. Esse giriş, əsas hissə və nəticədən ibarətdir.
2. Giriş essenin əsas məzmununa hazırlıq funksiyası daşıyır.

**Əsas hissə**

1. Hər bir abzasın özünün əsas məzmunu ifadə edən cümləsi var.
2. Bu hissələrdə giriş hissədə verilmiş ideya və fikirlər inkişaf etdirilir.
3. Nümunələr və təsvirlər qısa və məqsədyönlü olur.
4. Müəllif ifadə etdiyi ideyalar üçün kifayət qədər dəstəkləyici detallardan və faktlardan istifadə edir.
5. Bir fikirdən, bir abzasdan digərinə əlaqəli keçidlər edir və bu zaman “mən”, “sən” əvəzinə, “biz” əvəzliyindən, “əlavə olaraq”, “baxmayaraq ki”, “bununla belə” və s. tipli sözlərdən istifadə edir.
6. Cümlələrin və ideyaların məntiqi ardıcıllığına xüsusi olaraq diqqət yetirir.

**Nəticə**

1. Fikirlərini əsaslandırır.
2. Arqument və ideyalar bir daha vurğulanır, nəticə ümumiləşdirilir.

1. Müəllif müxtəlif cümlə tiplərindən istifadə edir.
2. Zəngin (lazımi) lüğət ehtiyatına malikdir.
3. Yazı mövcud dil qaydalarına uyğundur.
4. Hərf səhvləri yoxdur.
5. Essenin söz ehtiyatı verilmiş limitdən (məsələn, 200 söz) az deyil.

2

1. Mətni tələffüz qaydalarına uyğun oxuyun.

## ÜZEYİRİN MƏNƏVİ QARDAŞI

Hər il sentyabrın on səkkizi ... bayramı kimi qeyd olunur. Çünki həmin gün Azərbaycanın iki görkəmli bəstəkarı Üzeyir Hacıbəyli ilə Müslüm Maqomayev anadan olub. Bu, adi bir təsadüfdür, yoxsa zərurət? Bu barədə heç nə deyə bilmərik. Bircə onu deyə bilərik ki, hər iki sənətkarın həyatın?da və taleyin?də belə bənzəyiş çoxdur. Dünyanın müxtəlif yerlərində, eyni ilin, eyni ayında və günündə dünyaya gələn Müslüm Maqomayevlə Üzeyir Hacıbəyli ömürləri boyu bütün işlərdə bir-birini tamamlamış və "təqib" etmişlər.



*Üzeyir Hacıbəyli*



*Müslüm Maqomayev*



✓ *Mətnin birinci cümləsində nöqtələrin yerinə nə yazılmalıdır?*

Bütün işlərdə bir-birini "təqib" edən bu iki dost "rəqabət" apara-apara professional musiqi sənətimizin və Azərbaycan operasının bünövrəsini qoymuşlar.

Üzeyir Hacıbəyli kimi Müslüm Maqomayev də təbiətən sadə və zəhmətsevər idi. Çətin vaxtlarda Üzeyir bəy kimi gah inzibati işlərdən yapışır, gah teatrın orkestrində skripka çalır, gah da orkestrin dirijor pultu arxasında dayanırdı. Üzeyir

**ORFOQRAFİYA**

Bitişik, ayrı, yoxsa defislə?

- Mətndə göy hərflə verilmiş sözlərdə *da, də* hissəciyi necə yazılmalıdır?

**ORFOEPİYA**

Hansı düzdür?

- [yerlərində] – [yerrərində]
- [oxşarrıx] – [oxşarrıq]
- [əsərləri] – [əsərrəri]

Hacıbəyli Moskvada və Peterburqda (1911–1913) təhsil alarkən teatr və musiqi ilə əlaqədar bütün işləri o tənzimləyirdi, məcrasına yönəldirdi, bir dəfə də olsun, “yoruldum”, “usandım” demirdi. Arada vaxt tapıb gözəl musiqi əsərləri bəstələyirdi.

*İstəyirdi sənət və məslək dostu Üzeyir Hacıbəyli kimi o da milli opera yazsın.* Bu barədə çox düşünüb-daşındı, çox götür-qoy etdi. Nəhayət, “Şah İsmayıl” operasını (1915–1916) yazdı. Opera ilk dəfə 1919-cu ilin martın 7?də tamaşaya qoyuldu. Şah İsmayıl rolunun ifaçısı Hüseynqulu Sarabski idi.

Müslüm Maqomayevin “Şah İsmayıl” operası Üzeyir Hacıbəylinin Leyli və Məcnunundan hansı xüsusiyyətləri ilə seçilirdi? Hər iki bəstəkarın eyni janr?da yaratdıqları əsərlərin ümumi quruluşlarında və musiqi dillərində bir oxşarlıq vardır. Üzeyir Hacıbəylinin operasında olduğu kimi, Müslüm Maqomayevin “Şah İsmayıl” operasında?da muğamat improvizasiyalarından istifadə edilmişdir. Lakin muğam parçaları əsərdə xeyli az yer tuturdu. Bunun da səbəbi odur ki, müəllif Azərbaycan tamaşaçılarının hələlik mürəkkəb opera formalarını dinləməyə tam hazır olmadıqlarını nəzərə almışdır. Bunu sonralar Müslüm Maqomayevin özü?də etiraf etmişdir: **“Mənim məqsədim Üzeyir Hacıbəylinin yazdığı operalar şəklində opera yaratmaq idi, yalnız bircə bu fərq ilə ki, muğamatlardan (improvizasiya yerlərindən) savayı bütün qalan parçalar yazdığım orijinal musiqi olmalıdır”.**

Daim yeniliyə can atan bəstəkar həmişə məhsuldar işləyirdi. Bu baxımdan onun yaradıcılıq fəaliyyətinin 20–30-cu illər dövrü xüsusi maraq doğurur. Opera teatrının 1919–1930-cu il mövsümünün repertuarına daxil edilmiş “Xoruzbəy” musiqili komediyası, bəstəkarın şəxsi arxivində saxlanılan və Azərbaycanda ilk balet nümunəsi hesab edilən “Dəli Muxtar” baletinin librettosu, eləcə də birpərdəli “İblis” operası üçün yazdığı uvertüra dediklərimizin bariz nümunəsidir.

*Simfonik musiqiyə xüsusi məhəbbəti olan bəstəkar Azərbaycan xalq melodiyalarından, musiqi folklorunun bir sıra nümunələrindən ustalıqla bəhrələnərək simfonik orkestr üçün diqqəti cəlb edən orijinal simfonik əsərlər: “Azərbaycan çöllərində”, “Ceyran rapsodiyası”, “Azad olmuş Azərbaycan qızının rəqsi” və s. yazmışdır.* Həmin əsərlər Azərbaycan musiqisində müstəqil “orkestr miniatürü” janrının ilk nümunələridir. Onlarda Azərbaycan musiqi folklorunun Avropa professional musiqisi ilə müəyyən sintezi vardır. Bu meyil bəstəkarın “Şah İsmayıl”dan 20 il sonra opera teatrında səhnəsində tamaşaya qoyulmuş “Nərgiz” operasında xüsusilə qabarıqdır.

Bəstəkarın “Nərgiz” operası milli Azərbaycan musiqi ladları əsasında yazılmışdır. Operada diqqəti cəlb edən bir sıra xüsusiyyətlər vardır. Bu, hər şeydən əvvəl, Azərbaycan opera səhnəsində ilk dəfə kəndli qızının, çobanın və fəhlənin operada əsas surətlər kimi çıxış etməsi ilə əlaqədardır.

Bütün bunlarla yanaşı, bəstəkar həm də Azərbaycan operasına təzə vokal ifadə vasitələri gətirmişdir. Azərbaycan musiqisinə, Azərbaycan torpağına sonsuz sevgisi olan bəstəkar ömrünün sonuna kimi də öz sevgisinə sadiq qalıb. Təsadüfi deyil ki,

o, Nalçik şəhərində ölüm ayağında vəsiyyət edib ki, onu Azərbaycan torpağında basdırsınlar. Xalq böyük sevgi bəslədiyi oğlunu Bakıda Fəxri xiyabanda dəfn etmişdir. O bu xiyabana bir zamanlar "rəqibi" və "məslək dostu" Üzeyir bəyin çiyinləri üstə gəlmişdi.

**Möhbəddin Səməd, "Yaddaşımızın yaşıdları" kitabından**

2. Bu hissəni mətndə hansı abzasdan sonra yerləşdirmək olar?

1912-ci il sentyabrın 4-də Yelizavetpol quberniyası Şuşa şəhərinin sakini Üzeyir bəy Əbdülhüseyn bəy oğlu Hacıbəyli Moskvada, Teatralnı ploşaddakı notariusun yanına gedir. 1912-ci il iyunun 14-də Bakıdan aldığı beşillik 125 nömrəli pasportunu təqdim edir və bir də bu vəkalətnaməni:

*Əbdül Müslüm Maqometoviç həzrətləri!*

*Bu vəkalətnamə ilə Sizə səlahiyyət verirəm ki, mənə aid olan musiqi əsərlərinin istifadəsi üçün nümayəndə olasınız. Ayrı-ayrı şəxslər, müxtəlif cəmiyyət və şirkətlərlə əsərlərimin istifadəsi üçün razılığa gəlmək, bu münasibətlə şərtlər təyin edib müxtəlif qiymətlərlə istədiyiniz kimi müqavilələr bağlamaq, əsərlərimin istifadəsi üçün pul almağı və ümumiyyətlə, bu işdə məni əvəz etməyi, harada lazım gələrsə, mənim əvəzimdən qol çəkməyi, qanunun tələb etdiyi bütün formal işləri yerinə yetirməyi Sizə etibar edirəm. Bütün bunları Sizin qanuni yolla icra edəcəyinizə inanıram, bu münasibətlə sizinlə mübahisə etməyəcək və etiraz etməyəcəyəm.*

*Rafael Hüseynov, "Vaxtdan uca" kitabından*

3. Bu hissə hər iki bəstəkarın hansı mənəvi keyfiyyətlərini üzə çıxarır?

Üzeyir Hacıbəyli vaxtilə "Bakinski raboçi" qəzetinin 30 iyul 1940-cı il tarixli nömrəsində çap etdirdiyi bir məqaləsində xüsusi həssaslıqla açıb göstərmişdi:

*"Müslüm Maqomayev yazdığı operada öz istəyinə nail ola bilmişdi. "Şah İsmayıl" Azərbaycanın o dövrdəki musiqi həyatında improvizə olunmuş milli operanı Avropa operasının texniki cəhətdən inkişaf etmiş formaları ilə əlaqələndirmək sahəsində ilk təşəbbüsdür. Burada bəstəkarın operaya məxsus əsas ünsürləri – ariyaları, duetləri, çoxsəsli xorları və sair tətbiq etmək arzusu bariz surətdə özünü göstərir".*

4. Mətnləri (səh. 20–22) oxuyub üslubunu müəyyənləşdirin. Həmin mətndən və aşağıdakı çərçivələrdə verilmiş məlumatlardan istifadə etməklə Ü.Hacıbəyli və M.Maqomayevin həyat yollarının kəsişən cəhətlərinin təsadüf, yoxsa zərurət olduğu barədə fikir mübadiləsi yürüdün.

**Zərurət**

Səbəb-nəticə əlaqələrindən yaranan zərurət müəyyən şərait olduqda hökmən baş verən hadisədir. Zərurət bu və ya başqa prosesdə inkişafın başlıca istiqaməti, meyli kimi meydana çıxır, lakin bu meyil özünə çoxlu təsadüflər arasından yol açır. Zərurət və təsadüfün dialektikası bundan ibarətdir ki, təsadüf zərurətin təzahür formasıdır. Deməli, zəruri proses daxilində də təsadüflər olur.

**Təsadüf**

Təbiətdə və insan cəmiyyətində baş verən çox müxtəlif hadisələr içərisində elələri də vardır ki, bunlar müəyyən şeyin və ya baş verə bilən, amma baş verməyə də bilən, bu və ya digər bir şəkildə baş verə bilən müəyyən hadisələr silsiləsinin qanunauyğun inkişafından heç də zəruri olaraq irəli gəlmir. Bunlara təsadüfi hadisələr deyilir. Çoxlu təsadüf arxasında həmişə obyektiv zərurət, qanunauyğunluq gizlənir.

**Debat**

- **Hər təsadüf zərurətə çevrilir.**
- **Bütün zərurətlər təsadüflərdən yaranır.**

5. Bu xüsusiyyətlərdən hansı mətnin dili üçün xarakterikdir:
   - mücərrədlik
   - mürəkkəblik
   - dolaşıqlılıq
   - aydınlıq
   - emosionallıq
   - kütləvilik

6. Bu fikirlərdən biri mətndə yoxdur:
   A) Ü.Hacıbəylidən fərqli olaraq M.Maqomayevin yazdığı operada muğam parçaları az yer tutur.
   B) Moskvada oxuyarkən M.Maqomayev Ü.Hacıbəyliyə yalnız maliyyə məsələlərində yardım edirdi.
   C) Azərbaycan və Avropa musiqisinin sintezi "Nərgiz" operasında daha qabarıq görünür.
   D) Dostunu son mənzilə Ü.Hacıbəyli yola salmışdı.
   E) Azərbaycan operasında xalqın sadə nümayəndələrinin ilk dəfə əsas obraz kimi təqdimi M.Maqomayevin adı ilə bağlıdır.

7. Bu suallardan birinə mətndə cavab tapmaq olar:

A) Ü.Hacıbəyli və M.Maqomayev neçənci ildə anadan olmuşlar?

B) Nə üçün onlar bir-biri ilə daima rəqabət aparmışlar?

C) Şah İsmayıl obrazının ilk ifaçısı kim idi?

D) "Şah İsmayıl" operası yazılandan neçə il sonra tamaşaya qoyulmuşdur?

E) M.Maqomayevin "Şah İsmayıl" operası "Leyli və Məcnun" operasından hansı xüsusiyyətinə görə seçilir?

8. Üzeyir Hacıbəyli və Müslüm Maqomayevin səhnə əsərlərinin oxşar cəhətlərinin müzakirəsini aparın. Nitqinizdə terminlərdən istifadə edin.

9. "Nərgiz" operasının M.Maqomayevin digər operalarından fərqli cəhətləri nədir?

10. Hansı fakt "Nərgiz" operasının fərqli təqdimatda bəstələndiyini deməyə əsas verir?

11. Mətndə hansı cümlə M.Maqomayevin yenilikçi bəstəkar olduğunu təsdiqləyir?

12. Sizcə, 18 sentyabr iki görkəmli bəstəkarın məhz həmin tarixdə anadan olması ilə mi əlamətdardır? Yoxsa bunun başqa bir səbəbi də vardır? Fikirlərinizi faktlarla əsaslandırın.

13. Mətnə əsasən "Nərgiz" operasının yazıldığı ili müəyyənləşdirin.

14. *Mətndə nədən danışılır?* sualı ilə sizə müraciət edilsə, onun məzmununu 2-3 cümlə ilə necə çatdırarsınız?

15. "Uzun ömrün akkordları" filmindən Ü.Hacıbəyli ilə M.Maqomayevin məktublaşması səhnəsinə baxın. Məktubu yazan və onu oxuyan şəxsin mimikalarına diqqət yetirin. Həmin fraqmentə əsasən "Dost dosta arxa olmalıdır" fikrini əsaslandırın.

16. Ü.Hacıbəylinin "Koroğlu" operasından uvertüranı dinləyin. Bu musiqi sizdə hansı hislər oyatdı?

17. Mətndə (səh. 20) *rəqabət* və *təqib* sözlərinin dırnaq işarəsi içərisində verilməsinin səbəbi nədir?

18. Mətndə (səh. 22) altından xətt çəkilmiş cümlədə hansı sözün işlənməsi leksik normanın pozulmasıdır? Niyə belə hesab edirsiniz? Həmin sözü uyğun ifadə ilə əvəz edin.

19. Mətndən terminləri seçin, onların hansı sahəyə aid olduqlarını deyin.

20. Nömrələnmiş oxlardan hansının istiqaməti düzgündür?




21. Mətndə (səh. 20) altından xətt çəkilmiş sözlərə uyğun leksik mənanı müəyyənləşdirin.
    - baş vermiş gözlənilməyən, nəzərdə tutulmayan hadisə, əhvalat
    - bir işə hər halda və vəziyyətdə məcbur olma, istər-istəməz onu əmələ gətirmə

22. Mətndə (səh. 21) qırmızı rəngdə verilmiş cümlədə vergül işarəsi hansı sözdən sonra qoyulmalıdır? Niyə belə hesab edirsiniz? Həmin cümlənin sxemini qurun və tərkib hissələrin hansı vasitələrlə bağlandığını deyin.
23. Mətndə (səh. 21) çərçivəyə alınmış ifadələrdə dırnaq işarəsi necə işlənməlidir?
24. Mətndə (səh. 21) yaşıl rəngdə verilmiş hissədə hansı cümləni çıxarsanız, abzasın məzmununa xələl gəlməz?
25. Mətndə (səh. 21) fərqləndirilmiş cümləni sadələşdirin, təkrar sözləri çıxarın.
26. Mətndə (səh. 21) tünd şriftlə verilmiş cümlələri düzgün yazın.
27. Mətnlərin üslublarını hansı xüsusiyyətləri sadalamaqla fərqləndirə bilərsiniz?
28. Mətndə (səh. 20) çərçivəyə alınmış cümlədə qrammatik normanın hansı tələbi pozulmuşdur?

29. Həm Üzeyir Hacıbəyli, həm də M.Maqomayev bəstəkar olmaqla yanaşı, musiqidən dərs deyirlərmiş. Məlumat üçün onu deyək ki, M.Maqomayev bir müddət coğrafiyadan dərs deyib (*R.Hüseynov*). Sizcə, onların dərs dedikləri şagirdlərin valideynləri bəstəkarlara hansı məzmunda məktub yazardılar?
    - ✓ *Mətnə istinadən həmin məktubu yazmağa çalışın.*
    - ✓ *Məktubu yazarkən:*
        - *Məktub yazmaq üçün tələb olunan şərtlərə əməl edin.*
        - *Ədəbi dilin normalarına riayət edin.*

3

# “GÜN VAR MİN AYƏ DƏYƏR”

*(ixtisarla)*



Şövkət Məmmədova

> “Mən ki o qızda o istedadı görmüşəm, gec-tez harada olsa, parlayıb üzə çıxacaq”.
>
> *Üzeyir Hacıbəyli*

Bu nə nağıldır, nə də əfsanə. Doğrudan da, bir zamanlar Şövkət Məmmədova ad-familiyalı bir müğənni vardı. Bizim həməsr idi. 1981-ci ildə, baharla yayın qovuşduğu çağlarda, səksən dörd yaşında dünyamızdan (*köç etdi,* yoxsa *köçdü*). Görəsən, səksən dörd il ərzində həyatın acısını-şirinini dadmış müğənni qadın, öz sənət dəftərinə nə qədər mənalı səhifələr yazmışdır?..

Gözəl səs tembrinə malik olan Şövkət ilk gündən hiss etdi ki, indiyə qədər oxuduğu mahnıları sırf milli çərçivədən çıxarmalı, xalqının musiqisinə xələl gətirmədən yeni oxuma üsulu ilə ifa edib dünya xalqlarına tanıtmalıdır. Şövkət işə ciddi girişib maraqlı vokal effektləri araşdırdı, səsini işlətməyin yollarını öyrəndi. Az vaxt içində müəllim və tələbələrin hörmətini qazandı.

Musiqi bütünlüklə bu müğənni qızın qəlbinə hakim kəsilmişdi. O, musiqinin incəliklərinə bələd olduqca ona daha da ürəkdən bağlanırdı. Lakin günlərin bir günü hər şey dəyişdi. Şövkətin oxuması üçün göndərilən təhsil pulu birdən-birə

**ORFOQRAFİYA**

- 1-ci və 3-cü mətndə altından xətt çəkilmiş sözləri düzgün yazın.
- Sizcə, həmin sözlərin mətndə belə yazılmasının səbəbi nədir?

**ORFOEPİYA**

Düzgün tələffüzü yazın.

- axşamdan – [ ............ ]
- gündən – [ ............ ]
- faytonla – [ ............ ]

## Müğənninin xatirə dəftərindən
## FRAQMENTLƏR

**1**

1910-cu ilin isti yay günü idi. Tiflisdə evimizdə axşamdan başlayan söz-söhbət hələ də davam edirdi. Qohumlar heç cür öz dediklərindən dönmürdülər:

– Şövkət heç yana getməyəcək. Əgər artistliyə getsə, biz bir də bu evə ayaq basmayacağıq. Qız hara, artisdiy hara?! Heç belə də biabırçılıq olar?! El bizi qınamazmı?! Deməzlərmi, çəkməçi Həsənin qızı gedib mahnı oxuyur?

Xurşud xanımı od götürdü:

– Qız mənimdi, mən bilərəm. Nolsun ki, keçmişdə bizim Borçalının Ağkilsə kəndində qızlar oxumurmuş?

Qohumlar bu sözləri eşidəndə daha da özlərindən çıxdılar:

*– İndiyə qədər müsəlman qızlarından oxuyan görməmişdik. Əvvəl qızı qoyduz Tiflis qızlar gimnaziyasına, sonra musiqi məktəbinə. İndi də başlamısız ki, qızımız artist olacaq. Daha bəsdi. Biz bu biabırçılığa dözə bilmərik. Daha bizim sizin adda qohumumuz yoxdur…*

**2**

Beləliklə, həmin söhbətdən sonra məni qızlar gimnaziyasına qəbul etdilər. Komissiya təşkil edib səsimi yoxladılar. Yadımda deyil: o vaxtın hansı məşhur xanəndəsi isə oxumağıma yüksək qiymət verib o ki var məni təriflədi.

Komissiya yaxşı oxumaq istedadım olduğunu qəti müəyyənləşdirdikdən sonra İtaliyaya getməyim haqqında qərar qəbul etdi. Beləliklə, 1911-ci ilin ortalarında İtaliyanın Milan şəhərinə yola düşdüm. Mənə elə gəldi ki, artıq arzuma çatmışam. Çoxdan bəri həsrətində olduğum xoşbəxtliyə qovuşmuşam. Amma sən demə, ən çətin, ən ağır günlər qabaqda imiş. Hələ məni nə qədər əzab-əziyyət gözləyirmiş Lakin bu çətinliklər zərrəcə də olsun məni (*qorxutmurdu, yoxsa qorxutmadı*).

1911-ci ilin mayında Milan konservatoriyasına daxil oldum. Məşhur musiqi müəllimi Emma Dotti Ambrozinin sinfində oxumağa başladım.

dayandırıldı. Onu konservatoriyadan xaric etdilər. Bakıya qayıtmaq üçün isə heç yol pulu da yox idi.

1912-ci ildə Milandan Bakıya qayıdan Şövkət Məmmədovanı ilkin axtarıb tapan, onun mənəvi dayağına çevrilən Üzeyir Hacıbəyli (*olmuşdur,* yoxsa *oldu*). Bəstəkar gənc müğənninin Milan konservatoriyasından **çıxarıldığını** biləndə təəssüflənmiş, onun vokal istedadı ilə yaxından tanış olduqdan sonra Şövkətə yenidən İtaliyaya qayıtmağı məsləhət görmüşdür. Təhsil xərcini isə öz üzərinə götürmüşdü. Müğənniyə yol xərci düzəltmək üçün bəstəkar "Ər-arvad" operettasını təcili tamaşaya (*qoymuşdur,* yoxsa *qoyur*). Deyirlər, həmin tamaşanın sonunda Üzeyirin təkidinə qulaq asmayan Şövkət qəflətən səhnəyə çıxıb bir romans oxuyur, ikinci mahnını oxumaq istəyəndə salonda iğtişaş başlayır. Qoçular haray-həşir salırlar.

**3**

*Nə atam, nə də ki anam heç vaxt Bakıda olmamışdılar.* Bakıda qohumlarımız day yox idi. Biz min əziyyətlə gəlib Tağıyevin Qızlar Gimnaziyasını tapdıq. Gimnaziyanın direktoru bizi səmimiyyətlə qarşılayıb atamı sorğu-suala tutdu:

– Qızınızın ad-familiyası?

– Məmmədova Şövkət Həsən qızı.

– İndiyə qədər oxuyubmu, musiqi təhsili varmı?

– Bəli, Tiflisdə oxuyub, musiqi məktəbinə də gedib. Yaxşı da səsi var. İstəyirsiz, bir ağız oxusun. Direktor "bir ağız oxusun" ifadəsini eşidəndə mənə yaxınlaşıb pıçıltıynan dedi:

– Qızım, səni gimnaziyamıza qəbul edirik. Amma elə et ki, mahnı oxumağını yoldaşların bilməsin. Bilsələr, bizi daşqalaq edərlər. Biz özümüz gizlincə səsini yoxlarıq. Xoşumuza gəlsə, musiqi təhsili almaq üçün səni İtaliyaya göndərərik.

**4**

1915-ci ilin oktyabr ayı idi. Ağaclar öz yaşıl libaslarını dəyişməsələr də, şaxtadan hiss edirdim ki, artıq Kiyevə payız gəlib. Bunu, bəlkə də, çoxları duymurdu, lakin mən iliyimə işləyən şaxta və sazaqdan hiss etmişdim ki, artıq payızdır. Özümü soyuqdan xilas etmək üçün iti addımlarla konservatoriyaya yollandım. Aleksandra Nikolayevna Şperlinqlə üzüzə gəlib ayaq saxladım. Salam verib keçmək istəyəndə Şperlinq məni saxlayıb yanındakı yaşlı kişiyə təqdim etdi:

– Reynqold Moriseviç, sizə haqqında danışdığım Qafqazlı qız Şövkət Məmmədova budur, tanış olun.

**Məsələnin pis qurtaracağını görən Üzeyir tez Şövkəti faytonla aradan çıxarıb mötəbər bir adamın evində gizlədir.** Tamaşadan yığılan 40 min pulu isə gizli surətdə müğənniyə çatdırmaq istəsə də, buna nail ola bilmir. Üzeyir birtəhər Şövkəti qatarla yola salır. Ondan sonra Şövkətdən səs-soraq çıxmır. Bundan Üzeyir çox mütəəssir olur.

Şövkət Məmmədova təkcə opera müğənnisi olaraq qalmır. Görkəmli sənətkar Parisdə, Berlində, Təbrizdə qastrol səfərlərində olan zaman həmişə kamera ifaçılığına müraciət etmiş, konsertlərdə Azərbaycan xalq mahnıları oxuyaraq xarici ölkə dinləyicilərinin qəlbinə (*hakim kəsilmişdir,* yoxsa *hakim kəsilir*). Hətta 1925-ci ildə Parisdə qastrol səfərində olan zaman ona qulaq asan məşhur bir fransız bəstəkarı heyrətlənib demişdir: "Bu müğənni çox nadir səs tembrinə malik müğənnidir. Onun səsi royalı olduqca pis vəziyyətdə qoyur. Bu müğənni üçün xüsusi royal düzəltmək lazımdır..."

Bu yaxınlarda mətbuatda mənim barəmdə iki məşhur sənətkarın rəyi getmişdi. Həmin rəyləri olduğu kimi xatirə dəftərimə köçürmüşəm.

**5**

“Həmin hadisə 1912-ci ildə olub. Onda mən konservatoriyanın ikinci kursuna yenicə keçmişdim. Direktor deyəndə ki, təhsili üçün pulu keçirmədiyinə görə senyorita Şövkət Məmmədova konservatoriyadan xaric edilir, hönkürtü ilə ağladım. Müəllimim Emma Dotti Ambrozi də mənə qoşuldu. Düzdür, Ambrozi mənim Milan Konservatoriyasından xaric edilməyimə heyifsilənirdi, lakin bununla belə mənə kömək etməyə imkanı yox idi. Məvacibi ailəsinə zorla çatırdı. Mənə yolpulu düzəltmək istəsə də, bacarmadı. Bu işdə mənə yaxından kömək edən mənimlə birlikdə konservatoriyada təhsil alan gürcü qızı Yelena Tarxanmuravi oldu. O, Tiflisə gəlib oradan mənə yolxərciliyi göndərdi. Elə həmin pulla da birtəhər Bakıya qayıtdım”.

**6**

Həmin təsadüfi görüşdən sonra Qliyer Aleksandra Nikolayevna ilə birlikdə kirayənişin qaldığımız evə gəldilər. Onlar üçün oxuduğum “Küçələrə su səpmişəm”, “Mən bir güldüm”, “Küsmüşəm səndən” xalq mahnılarını mənim ifamda çox bəyəndilər. Ondan sonra yaradıcılıq əlaqələrimiz daha da möhkəmləndi. Məsləhət gördü ki, Azərbaycan xalq mahnıları repertuarı ilə konservatoriyada çıxış edim. Bəstəkarın təkidi ilə 1918-ci ilin yanvarında Azərbaycan xalq mahnılarından ibarət maraqlı proqramla konservatoriyanın səhnəsində çıxış etdim. Düzdür, Kiyev Konservatoriyasını 1920-ci ildə qurtarıb Bakıya gələndə mənim yeni oxumağımı pisləyənlər də oldu, lakin bu mənim yaradıcılıq əzmimi qırmadı. Çünki yeniliyin maneələrlə rastlaşacağı mənə məlum idi.

Kiyev Konservatoriyasını qurtarıb Bakıya gələndə ilk dəfə Üzeyir bəyin “Arşın mal alan” operettasında Gülçöhrə rolunda çıxış etdim. Az müddət ərzində repertuarım zənginləşdi. Klassik Avropa, eləcə də Azərbaycan operalarında çıxış etməyə başladım. “Traviata”da Violettanın, “Riqoletto”da Cildanın, “Sevilya bərbəri”ndə Rozinanın, “Şahsənəm”də Şahsənəmin, “Şah İsmayıl”da Gülzarın, “Nərgiz”də Nərgizin, “Lakme”də Lakmenin partiyalarını ifa etdim. Bütün bunlar mənim üçün yeni məktəb, məhək daşı oldu.

**Niyazi:**

“Yəqin ki, indiki nəslin nümayəndələri Şövkət xanım Məmmədovanın gözəl ifaçılığı ilə yaxşı tanış deyillər. Amma mən böyük istedad sahibi olan bu müğənninin yaradıcılığını həmişə sevib izləmişəm. O, orijinal müğənni, əla vokalistdir. Şövkət xanım vokal sənətinin Avropa üsullarını Azərbaycan milli oxuma xüsusiyyətləri ilə məharətlə birləşdirməyə nail olan sənətkarlardandır”.

**Rəşid Behbudov:**

“Şövkət xanımı mən Azərbaycan opera teatrı səhnəsinə gələn ilk qadın müğənni kimi tanıyıram. Onun həyatı keşməkeşli olmuşdur. İtaliya və Kiyevdə mükəmməl musiqi təhsili almış bu müğənni ilk gündən Azərbaycan musiqisinin ağırlığını çiynində daşımışdır. Onun gözəl ifaçılıq manerası oxuyanlarımız üçün örnək olmuşdur…”

**Möhbəddin Səməd, “Yaddaşımızın yaşıdları” kitabından**

1. 1-ci mətndə (səh. 27) fərqləndirilmiş abzasa əsasən dövr haqqında danışın.
2. Mətndən faktları seçib qruplaşdırın. Hansı fakt “Dost dosta tən gərək, tən olmasa, gen gərək” fikrini təsdiqləyir?
3. Mətndə abzasların ardıcıllığını müəyyənləşdirin. Müəllifin nitqi ilə Şövkət xanımın “xatirə dəftəri”ndən olan qeydlərini elə uzlaşdırın ki, vahid mətn alınsın. Verilmiş sitatlardan yerində və düzgün istifadə edin.
4. Hansı hadisəni Şövkət Məmmədovanın sənət həyatı üçün daha vacib hesab edirsiniz və nə üçün?
5. Hansı cümlə Şövkət Məmmədovanın anadanolma ilinin müəyyənləşdirilməsinə imkan verir?
6. Hansı hadisə Şövkət Məmmədovanın sənət yolunda həlledici dönüş yaratmışdır? Niyə belə hesab edirsiniz?
7. Biri Şövkət xanıma aid deyil:
   A) Musiqi təhsili almasında anasının əvəzsiz xidmətləri olmuşdur.
   B) Məqsədi xalqının musiqisini dünyaya tanıtmaq idi.
   C) Həyat yollarında rast gəldiyi çətinliklər onu qorxutmadı.
   D) Azərbaycan səhnəsində oxuduğu romans onun həyatını təhlükə ilə qarşılaşdırdı.
   E) Milandan Bakıya qayıtmaq üçün pul tapa bilmədi.
8. Fikirlərdən biri səhvdir:
   A) Şövkət xanımın valideynləri qabaqcıl dünyagörüşünə malik insanlar idi.
   B) Ü.Hacıbəyli böyük çətinliklərlə üzləşsə də, Şövkət xanımı Milana yola sala bilir.
   C) Maestro Niyazi və R.Behbudov Ş.Məmmədovanın sənətini yüksək qiymətləndirmişlər.
   D) Milana getmək üçün müğənniyə lazım olan pul Ü.Hacıbəylinin “Ər və arvad” operettasının tamaşasından yığılır.
   E) Kiyev Konservatoriyasından qayıdan Şövkət xanımın ilk rolu “Arşın mal alan” operettasındakı Gülçöhrə olur.
9. Ş.Məmmədovanın hər hansı bir ifasına qulaq asın. Mətnlə ifanı tutuşdurun. İfa mətndə yazılanları, Niyazi və R.Behbudovun Ş.Məmmədova haqqında dediklərini təsdiq edirmi? Müasir dövrdə belə bir ifa ilə qarşılaşmısınızmı?
10. Mətndə hansı cümlələr Ş.Məmmədovanın qeyri-adi istedada malik müğənni olduğunu təsdiq edir?
11. Mətnə əsasən müəllim-şagird münasibətləri haqqında danışın.

12. Mətndə (səh. 28) göy rəngdə verilmiş cümlədə hadisələrin təqdimatında hansı yanlışlıq vardır?

13. Mətndən frazeoloji birləşmələri seçib, işlənmə məqamlarına diqqət yetirin.

14. Mətndən istifadə etməklə *məktəb* sözünün çoxmənalılığını əsaslandırın. Mətndəki hansı cümlələr sizin cavabınıza kömək edə bilər?

15. Uyğunluğu müəyyənləşdirin.

| | |
|---|---|
| üsul | həyat hadisələrini dərk və tədqiqetmə üsulu |
| tərz | üsul, qayda |
| metod | hər hansı bir işdə tətbiq edilən sistem, yol |

16. Mətndə *dayaq* sözünün hansı mənası işlənmişdir?
    - hər hansı bir tikilinin sınmış pərdilərini, yaxud uçulan divarı və s. saxlamaq, eləcə də meyvəsi çox olan ağac budaqlarını sınmaqdan qorumaq üçün onların altına vurulan ağac, dəstək
    - üzərində nəsə bərkitmək, yaxud qurğu qurmaq üçün düzəldilmiş yer, özül; dəstək ola biləcək hər şey
    - istinad ediləcək adam, kömək, arxa, himayəçi

17. Mətndə qırmızı rəngdə verilmiş sözləri daha uyğun ifadə ilə əvəz edin.

18. Mətndə tünd şriftlə verilmiş cümlədə *pis* sözünü *yaxşı* sözü ilə əvəz edin. *Qurtaracağı* sözündə hansı dəyişiklik baş verəcək? Hər iki cümləni tutuşdurun. Məzmun dəyişdimi?

19. Mətndə (səh. 27) tünd şriftlə verilmiş sözü daha düzgün sözlə əvəz edin.

20. Mətndəki dialoji nitqləri (vasitəsiz nitq) vasitəli nitqə çevirərək mətni yenidən tərtib edin.

21. 1-ci mətndə (səh. 27) fərqləndirilmiş abzasda hansı feillərdə şəxs sonluqlarının işlənməsində tamlıq hiss olunmur?

22. 1-ci və 2-ci mətndə (səh. 27) çərçivəyə alınmış ifadələrin yazılışında hansı yanlışlığa yol verilmişdir?

23. Mətndə (səh. 26) altından xətt çəkilmiş cümlədə vergül işarəsinin düzgün işlənib-işlənməməsi ilə bağlı fikir mübadiləsi yürüdün.

24. Mətndə mötərizədə verilmiş feillərdən uyğun olanını seçib cümlələri tamamlayın.

25. 3-cü mətndə (səh. 28) fərqləndirilmiş cümlədə qrammatik normanın hansı tələbi pozulmuşdur?

26. Mətndə (səh. 26) 1-ci abzasın 1-ci cümləsi:

A) Quruluşca sadədir. B) Quruluşca mürəkkəbdir. C) Həmcins xəbərlidir.

✓ *Fikrinizi əsaslandırın.*

27. Mətni üslubunu müəyyənləşdirin. Aşağıdakı tapşırıqları yerinə yetirin.

✓ *Nöqtələrin yerinə **h, x** hərflərindən uyğun olanını yazın.*

✓ *Altından xətt çəkilmiş cümlənin quruluşunu müəyyən edin.*

1911-ci il. Tiflis. Bülbül məclisi “Rast” muğamı ilə açıb el **ma...nıları** ilə bitirdi.

Onun sehrkar səsi bütün məclisdəkiləri heyran etmişdi. Bülbülün **məla..ətli** səsinə **vale..** olan məşhur gürcü müğənnisi Vano Saraçişvili özünü **sa...laya** bilməyib yerindən qalxdı, Bülbülə yaxınlaşıb ona əl uzatdı:

– Sizinlə ilk tanışlığıma çox şadam, cavan oğlan. Siz qeyri-adi səsinizlə, gözəl oxumağınızla muğamatı mənə sevdirdiniz. Siz bu səslə Azərbaycan mahnılarını təkcə mənə yox, bütün dünyaya sevdirə bilərsiniz. Bunun üçün yeni oxuma texnikasına yiyələnməlisiniz. Dünyanın məşhur musiqi beşiyi İtaliyaya getməlisiniz. **...üsusi** musiqi məktəblərində oxuyub öyrənməlisiniz.

Bülbül ömründə birinci dəfə idi ki, İtaliya adı eşidirdi. İlk dəfə idi ki, xanəndə olmaq üçün xüsusi məktəbdə oxumaq lazım gəldiyini eşidirdi. Ona görə də görkəmli müğənninin dedikləri ona birtəhər gəldi:

– Bəyəm, İtaliyaya getmədən xanəndəlik etmək olmaz? Guya Cabbar Qaryağdıoğlu İtaliyaya gedib, xüsusi xanəndəlik məktəbi qurtarıb?

Vano Saraçişvili ürəkdən qəhqəhə çəkib əlini Bülbülün çiyninə qoydu:

– Cavan oğlan, sizin fikrinizlə, az da olsa, şərikəm. Atalar demiş: “Gərək quyunun özündə su olsun”. Bunu deməkdə məqsədim odur ki, sizdə həm gözəl səs, həm də böyük istedad var. Lakin bu mahnıları milli çərçivə **da...ilində** məhdudlaşdırmaq olmaz. Onu yalnız bir xalqın malı etmək düzgün deyil. Bilirsinizmi, sənət bəşəri olmalıdır. Hamıya zövq verməlidir. Yalnız onda sənət böyük ola bilər.

*Möhbəddin Səməd, “Yaddaşımızın yaşıdları” kitabından*

✓ *Vano Saraçişvili ilə Bülbülün fikirlərini qarşılaşdırın. Hansının dedikləri ilə razılaşırsınız?*

28. Təsəvvür edin ki, sizə xaricdə təhsil almaq istəyən bir şəxs haqqında məlumat yazmaq tapşırılıb.

✓ *Həmin məlumatı necə yazarsınız?*

✓ *Sizcə, həmin bu yazı necə adlana bilər?*

- xasiyyətnamə;
- təqdimat;
- tərcümeyi-hal

_________________________ rektoru _______________________________

11-ci sinif şagirdi __________ Bakı şəhəri ________ rayonunun ____№-li məktəbində oxuyur. __________oxuduğu müddət ərzində intellektual səviyyəsi, yaradıcılıq potensialı, dəqiq elmlərə marağı ilə daha çox fərqlənmişdir.

_________ vətənpərvərdir, məktəbin ictimai işlərində aktiv iştirak etmiş, müxtəlif tədbirlərdə könüllü kimi çalışmış, həmin təşkilatlardan müsbət xasiyyətnamə almışdır. Yoldaşları ilə münasibətdə səmimidir, ətrafı ilə ünsiyyət qura, çevik qərar verə bilir, fikirlərində müstəqildir.

Bunları nəzərə alaraq, onun rəhbəri olduğunuz universitetdə təhsil almasına şərait yaratmağınızı xahiş edirik.

*____№-li məktəbin direktoru: Yeganə Rüstəmova*

*17.09.2018-ci il*

## TƏQDİMAT

1. Yuxarı təşkilatlara və mövqelərə yazılı məlumat şəklində verilir.
2. Əvvəldə müraciət olunan şəxsin adı, soyadı, atasının adı, rəhbəri olduğu təşkilatın adı yazılır.
3. Ümumi hissədə təqdim olunan şəxs haqqında məlumat verilir.
4. Təqdimatın yazılmasının səbəbi göstərilir.
5. Təklif verilir.
6. Sonda təqdimatı yazan şəxsin adı, soyadı, atasının adı yazılır, imzalanır.
7. Yazının sonunda təqdimatın verildiyi bütöv şəkildə gün, ay və il göstərilir.

- Təqdimat işgüzar sənəd növüdür.

- “Təqdimat” ərəb sözü olub, *təqdim olunan* mənasına uyğundur.

- Təqdimat müxtəlif formalarda olur:
  1. Yuxarı təşkilatlara yazılı məlumat.
  2. Hər hansı bir hadisə və ya şəxsi təqdim etmək.

4

# "İŞIĞI OĞURLANMIŞ ULDUZ"

*(ixtisarla)*



1892-ci il aprelin 18-i idi. Azərbaycandan minlərlə kilometr uzaqda – Almaniyanın Visbaden şəhərində bir nəfər ölüm yatağında can verirdi.

73 yaşlı bu qoca başına toplaşmış qohumlarına son vəsiyyətini edirdi. O, ağzı möhkəm surğuclanıb möhürlənmiş qaradərili sandıqçanı göstərib dedi:

Yüz ildən sonra açılsın...

***Mirzə Şəfi Vazeh və Fridrix Martin fon Bodenştedt***

1. Adına əsasən mətndə nədən danışılacağı barədə fikir yürüdün.

...XIX əsrin əvvəllərində Qafqazın çar Rusiyası tərəfindən işğalı Azərbaycan xalqının iqtisadi və mədəni inkişaf tarixində yeni və **ziddi...ətli** bir dövrün başlanğıcını qoydu. *Bir tərəfdən, çar üsuli-idarəsinə qarşı çıxan ziyalıların Qafqaza sürgünü, digər tərəfdən Qərbi Avropada Şərqin bu bölgəsinə yaranan marağın nəticəsi avropalı alimlərin və ziyalıların buraya axını Şərq ədəbi ənənələrini qoruyub saxlayan Azərbaycan* ***ədəbi...atında*** *yeni bir dövrün başlanğıcını qoydu.* Həmin vaxt Tiflis Qafqazın mədəni və inzibati mərkəzi rolunu oynadığından istər Avropa və Rusiyadan, istərsə də Qafqazın müxtəlif bölgələrindən gələn mütərəqqi fikirli ziyalılar burada cəmləşirdi. Həmin vaxt Qafqaza üz tutan belə ziyalılar arasında Hannover krallığının sakini Fridrix fon Bodenştedt var idi. O, 1843-cü ildə müşahidəçi qismində Tiflisə gələndə burada Şərq dillərini öyrənmək fikrinə düşdü. Ona müəllim lazım idi.

**ORFOQRAFİYA**

Bir, yoxsa iki *y*?

- Mətndə tünd şriftlə verilmiş sözlərdə neçə *y* hərfi yazılmalıdır?

**ORFOEPİYA**

Düzgün tələffüzü yazın.

- iqtisadi – [ ........... ]
- müxtəlif – [ ........... ]
- mütərəqqi – [ ........... ]

Bodenştedtin tanışları müəllim seçmək lazım gəldikdə ona bu sahədə böyük təcrübəsi olan Mirzə Şəfi Vazehi (məsləhət görmək).

Beləliklə, 1843-cü ildən 1846-cı ilə qədər Mirzə Şəfi Bodenştedtə türk (Azərbaycan) və fars dillərini, Şərq **poezi...asının** incəliklərini (*öyrətmək*). Onlar çox tez dostlaşdılar. 1849-cu ildə F.Bodenştedt vətənə qayıdanda Mirzə Şəfi ona bir dəftər bağışladı. Dəftərin birinci səhifəsində öz dəstxəti ilə yazmışdı.

Bu onun "Hikmət açarı" adlandırdığı şeirləri idi. Beləliklə, Mirzə Şəfi şeirləri F.Bodenştedtin qaradərili sandıqçasında uzaq, çox uzaq bir səfərə çıxdı.

Almaniyaya qayıdan Bodenştedt Mirzə Şəfinin şeirlərinin bir qismini tərcümə edərək başqa Şərq şairlərinin şeirləri ilə birlikdə 1850-ci ildə "Şərqdə min bir gün" kitabında, 1851-ci ildə isə "Mirzə Şəfinin nəğmələri" adlı ayrıca kitabça şəklində (*dərc etdirmək*). Kitabın ön sözündə Bodenştedt öz ustadına müraciətlə (*yazmaq*).

Tərcümələr böyük maraqla qarşılandı. "Nəğmələr" tez bir zamanda ingilis, italyan, Norveç, İsveç, holland, Danimarka, polyak, çex, yəhudi, macar və rus dillərinə tərcümə olundu. Mirzə Şəfi dühası bütün Avropanı sehrləmişdi. Bütün Avropa Mirzə Şəfini oxuyurdu.

Böyük rus yazıçısı L.N.Tolstoy dostu şair A.Fetə yazdığı məktubunda Mirzə Şəfi dünyasına heyranlığını (*gizlədə bilməmək*).

Rubinşteyn, Raxmaninov, List, Qriq, Brams Mirzə Şəfi şeirlərinə musiqilər bəstələyirdi. Anton Rubinşteynin Mirzə Şəfi şərqilərinin özü kimi bütün dünyanı dolaşan "İran nəğmələri" adlı romanslar silsiləsi yarandı. Bu silsiləyə 13 romans daxil idi. Bu romansların içərisində "Dalğalı gecələr" xüsusilə heyranedici idi.

Fridrix Martin fon Bodenştedt 1874-cü ildə çap etdirdiyi "Mirzə Şəfinin irsindən" adlı kitabda Mirzə Şəfi Vazehin uydurma bir **şəxsi...ət** olduğunu, əslində, şeirlərin əsl müəllifinin onun özü olduğunu elan etdi.

2. Sizcə, Fridrix Bodenştedtin bu hərəkətinə nə səbəb olur?

| | | |
|---|---|---|
| A) paxıllıq | B) tanınmaq istəyi | C) məşhurlaşmaq |
| D) maddi maraq | E) şöhrət hərisliyi | |

O bu kitabın izahatında şeirlərin özünə məxsus olmasını sübuta yetirmək məqsədilə yazırdı. Bundan sonra bütün Qərbi Avropa və Rusiya "Nəğmələr"in əsl müəllifi kimi F.Bodenştedti tanımağa başladı.

Böyük rus yazıçısı İ.S.Turgenev F.Bodenştedtə yazdığı bir məktubunda tərcümə etdiyi əsərləri öz adına çıxdığı üçün onu tənqid edib yazırdı: "Şeirləri oxuduqdan sonra təəccüblə düşünürsən ki, necə böyük bir əllaməlik edilmişdir".

Şeirləri şöhrət zirvələrini fəth etməyə başlayanda Vazeh artıq dünyada yox idi. O bu şöhrətdən xəbər tutmadan 1852-ci ildə vəfat etmişdi. Ancaq o təkcə şeirlərinin şöhrətindən yox, şagirdinin **xə...anətindən** də xəbər tutmadı. F.Bodenştedt şöhrət

xumarında üzürdü. Var-dövlət onun başına yağırdı. 1887-ci ildə onun şərəfinə yazılmış “Die Lieder des Mirza-Schaffy” adlı operattanın premyerası oldu. Tarix isə üzü 1892-ci ilin 18 aprelinə doğru gedirdi...

Tarix sayğacı işə düşmüşdü. Qarşıda hələ 100 il var idi. F.Bodenştedtin nəyinə lazım idi bu 100 il? Bəlkə, o bu ucuz şöhrətin ömrünü 100 il də uzatmaq istəyirdi? Bu onun şöhrət hərisliyinin son həddi idimi? Bəlkə, 100 il keçəndən sonra insanların onu bağışlayacağına ümid edirdi? Bəlkə, bu onun oyanmış vicdanının hökmü idi?!...

**Füzuli Sabiroğlu,**
**“Füyuzat” jurnalından, 2012-ci il**

3. M.Ş.Vazehə və F.Bodenştedtə məxsus cümlələri mətnə elə yerləşdirin ki, ardıcıllıq pozulmasın.

“Tiflisə gələndə məni, hər şeydən əvvəl, müəllim tutmaq məsələsi düşündürdü ki, tatar dilini (Azərbaycan (türk) dili nəzərdə tutulur) öyrənim. Qafqazda yaşayan camaatla **ünsi...ətdə** olmaq üçün bu dili bilmək **kifa...ət** edirdi. Xoşbəxtlikdən, arayıb-axtardığım müəllimlərdən ürəyimə yatanı tanınmış xəttat və alim, gəncəli Mirzə Şəfi oldu”.

“Şagirdim və dostum Bustan (Mirzə Şəfi Bodenştedti belə çağırırdı) əfəndinin mükərrər rica və iltimasına görə mən Mirzə Şəfi ona qəsidə, qəzəl, mürəbbe və məsnəvilərdən ibarət olan öz məcmueyi-əşarımı hədiyyə edirəm”.

“Qəlbimdə yenə sən canlanırsan, ey gəncəli ustadım! Sənin yanında əyləşib nəğmələrini məlahətli səsində dinləmək istəyirəm. Sənin mənə bəxş etdiyin o ətirli çiçəklərdən gözəl bir çələng hördüm. Ey mənim gəncəli söz ustadım Mirzə Şəfi!” (Berlin, 1851)

“Bu günlərdə Mirzə Şəfini oxudum. Bilirsən, orada çox gözəl məqalələr vardır”.

“Bütün bunlar bir daha qəti sübut edir ki, “Nəğmələr”dəki həqiqi Mirzə Şəfi yer üzündə yaşamayıb, bu ad mənim kəşfimdir”.

4. Mətn əsasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirin.

| Səbəb | Nəticə |
|---|---|
| 1. F.Bodenştedtin türk dilini öyrənmək istəyi | 1. ______________________ |
| 2. ______________________ | 2. M.Ş.Vazehlə F.Bodenştedtin sıx dostluğu |
| 3. ______________________ | 3. ______________________ |

✓ *Sizcə, mətndə səbəb-nəticə əlaqələrinin hansı praktik əhəmiyyəti vardır?*

5. Mətnin üslubunu müəyyənləşdirin. Fikrinizi əsaslandırın.
6. Bodenştedtin hərəkətində “Təhsil haqqında” Qanunun *təhsilalanların vəzifəsi* maddəsinin hansı bəndinə əməl edilməmişdir?
7. Sizcə, Bodenştedt sandıqçanın niyə məhz onun ölümündən 100 il sonra açılmasını istəmişdi? Bodenştedtin hərəkətini necə qiymətləndirirsiniz?
8. O dövrdə türk dilinin Qafqazda əsas ünsiyyət dili olduğunu mətndəki hansı fikirlər təsdiq edir?
9. Mətndəki məlumatlara əsasən, Mirzə Vazeh və Bodenştedtin xarakterlərini müqayisə edin.
10. Aşağıdakı sxemi tamamlayın.



11. Sxem əsasında müqayisə aparıb fikirlərinizi ümumiləşdirin.




12. Mətnin ilk cümləsində (səh. 34) *işğal* sözünü hansı sinonimi ilə əvəz etsəniz, məzmun dəyişməz?

13. Mətndə altından xətt çəkilmiş cümlədə (səh. 35) *bütün* sözünü çıxarsaq, fikrin məna gücü zəifləyərmi? Niyə?

14. Mətndən frazeoloji birləşmələri seçib onları bir sözlə əvəz edin. Cümlədə məna fərqi yarandımı?

15. Mətndə mötərizədə verilmiş feilləri (səh. 35) düzgün işlədin. Mətnin ümumi üslubunu qorumağa çalışın.

16. Mətnin ilk abzasında birinci cümlədən əvvəl üç nöqtə işarəsi qoyulmasının səbəbini deyin.

17. Mətndə fərqləndirilmiş cümləni sadələşdirməklə bir neçə sadə cümlə düzəldin.

18. Mətndə göy rəngdə verilmiş cümlələrdə (səh. 34, 36) *o* əvəzliyindən sonra vergül qoyulmalıdırmı? Niyə?

**Hər bir şəxsin şifahi və yazılı nitqində onun özünəməxsus xüsusiyyətləri var. Bu xüsusiyyətlər fərdi üsluba aid edilir.**

**Üslubların əksəriyyətində fərdilik özünü göstərir.**

S.Vurğun, Ə.Cavad, B.Vahabzadə, T.Bayram və digərləri "Azərbaycan" mövzusunda şeirlər yazmışlar. Bu şeirlər məzmunca eyni olsa da, şairlərin təsvir olunan obyektə yanaşması müxtəlifdir.

19. "Gün var min ayə dəyər" və "İşığı oğurlanmış ulduz" mətnlərinin üslubu ilə bağlı aşağıdakı cümlələri tamamlayın.

Hər iki mətndə ______________________ və ____________________ xüsusiyyətləri özünü göstərir. Belə ki mətnlərdə _________________ üsluba məxsus ________________________________________, ____________ üsluba məxsus ____________________________istifadə edilmişdir.

Lakin hər bir mətndə onu yazan müəllifin özünəməxsus üslubu müşahidə olunur.

Əgər birinci mətndə ________________________________________, ikinci mətndə daha çox _____________________________________ müşahidə olunur.

Müşahidələrim əsasında bu qənaətə gəldim ki, __________________

___________________________________________________________

___________________________________________________________

5

1. Mətni aid olduğu üslubun xüsusiyyətlərinə uyğun oxuyun.

## HARVARD UNİVERSİTETİ

*(ixtisarla)*



**Harvard Universiteti ABŞ-ın ən qədim və nüfuzlu ali məktəblərinin assosiasiyası olan Sarmaşıq Liqasına daxildir. Ali məktəbin devizi "Həqiqət", simvolu tünd-qırmızı rəngdir.**

**Harvard Universitetinin əsası 1636-cı il sentyabrın 8-də qoyulub. Bu elm mərkəzi ilk himayəçisi, 1638-ci ildə özünün kitabxanasının və mülkünün yarısını təhsil müəssisəsinə vəsiyyət etmiş gənc nazir Con Harvardın şərəfinə Harvard Kolleci adlandırılıb.**

**Universitetin 45 nəfər Nobel mükafatçısı var.**

### ORFOQRAFİYA

Hansı səhv yazılmışdır?

- 3-cü abzasda
- 4-cü abzasın 3-cü cümləsində
- 5-ci abzasda
- 6-cı abzasın 2-ci cümləsində

### ORFOEPİYA

Fərqləndirilmiş hərfin tələffüzünü düzgün yazın.

- böyü**k** əksəriyyəti
- birinci **k**urs
- il**k**in ödəniş
- Müstəqilli**k** Bəyannaməsi

**Harvard Universiteti ABŞ-ın Massaçusets ştatının Kembric şəhərində yerləşir.** Bu universitet ABŞ-ın Müstəqillik Bəyannaməsinin elan edilməsindən 140 il əvvəl yaradılan ən qədim ali təhsil müəssisəsidir. Böyük Britaniyanın "Times Higher Education – QS World University Rankings" jurnalının 2009-cu ildə tərtib etdiyi dünya universitetlərinin reytinqinə əsasən, Harvard Universiteti 100 ən nüfuzlu ali məktəb arasında birinci yerdə olub.

Harvard Kollecinin universitetə (*çevrilməsi, çevrilməyi*) prosesi XIX əsrin ilk rübünə təsadüf edir. Bu zamana qədər təhsil müəssisəsində yalnız "İncil", dillər və riyaziyyat elmi öyrədilirdi. **Kollecə universitet statusunun** (*verilməsi, verilməyi*) **isə tibb (1810) və hüquq (1817) elmlərinin tədris edilməsi ilə bağlı olub.**

Harvard Universitetini ilk buraxılışda bu təhsil müəssisəsində çalışan yalnız bir müəllimdən İngiltərə universitetlərinin praqramı üzrə dərs almış 9 tələbə bitirib.

Harvard Universitetinin kampusu təxminən 500 *akr* ərazini əhatə edir və əsasən, Kembric və Boston ərazisində yerləşir. Harvardın əsas kampusunun 85 hektar ərazisi Kembricdə, Harvard Yard parkında, Boston şəhərinin mərkəzindən 5,5 km şimal-qərbdədir. Burda universitetin mərkəzi və akademik binaları, əsas kitabxanaları, birinci kurs tələbələri üçün nəzərdə tutulmuş yataqxanaların böyük əksəriyyəti, Memorial kilsə və başqaları yerləşir. İkinci kurs tələbələri üçün nəzərdə tutulmuş 12 yaşayış binasından doqquzu Harvard Yardın cənubundadır. Digər üç yaşayış evi "Quad Haus" adlandırılan ərazidədir.

Tələbələrin ictimai nəqliyyatla təmin edilməsi işində Harvard MBTA (*Massaçusets Körfəzi Nəqliyyat Müəssisəsi*) metro stansiyasının rolu böyükdür.

Harvard Universitetinin bütün tələbələri, demək olar ki, birinci kursdan etibarən kampus ərazisində yerləşən yataqxanalarda yaşayırlar. Müsbət qiymətləri və digər naailiyyətləri olan tələbələr evlərdə məskunlaşırlar. Bu evlər həm yaşayış yeri, həm də tələbələrə universitetin sosial mühitinə uyğunlaşmasına yardım edən inzibati bölmə kimi fəaliyyət göstərir. Harvardın istənilən kolleci 4 il ərzində, sözün əsl mənasında, burada təhsil alanların doğma evinə çevrilir.

Harvard Universitetində Redklif Qabaqcıl Tədqiqatlar İnstitutu, Harvard Kolleci, İncəsənət və elmlər fakültəsi ilə yanaşı, 12 məktəbi fəaliyyət göstərir. **Hazırda universitetin ABŞ və dünyanın 190-dan artıq ölkəsində 360 mindən çox məzunu var.**

2007-ci ilin fevralında Harvardın Müşahidəçilər Şurasının qərarı ilə Redklif Qabaqcıl Tədqiqatlar İnstitutuna Harvardın müstəqil institutu statusu verildi.

Harvard Universitetinə rəhbərlik universitetin prezidenti və kollegial şuralar ("Harvard korporasiyası") tərəfindən həyata keçirilir. Prezident bütün təlim prosesinə nəzarəti həyata keçirdiyinə görə universitetin məsul şəxsi hesab olunur. Universitetin məktəbləri, kollec və fakültəsi dekanlar tərəfindən idarə olunur.

1975-ci ildə Redklif Kolleci və Harvard Universiteti qəbul şöbələrini birləşdirərək vahid qəbul siyasəti həyata keçirməyə başlayıb. 1999-cu il sentyabrın 14-də Redklif Kollecinin Harvard Universitetinə birləşdirilməsi prosesi başa çatdırılıb. Həmin il kollecin adı dəyişdirilərək Redklif Qabaqcıl Tədqiqatlar İnstitutu olub. 1946-cı ildən etibarən bu iki təhsil müəssisəsinin bütün kursları birləşdirilib. Redklif Kolleci 1879-cu ildə xeyriyyəçi və yazıçı Artur Gilman və onun oğlu tərəfindən təsis edilib. Kollecin yaradılmasında məqsəd qadınları təhsilə cəlb etmək, onların Harvard Universitetində (*oxumağına, oxumasına*) yol açmaq olub. 1879-cu ildən 1943-cü ilədək Harvard Universitetinin professorları Redklif Kollecində mühazirə oxuyublar. 1960-cı ildən sonra isə inteqrasiya prosesi daha da sürətlənib. Redklif Kollecinin tələbələri Harvard Universitetinin diplomunu ilk dəfə 1963-cü ildə alıblar.

2. Cümlələrin ardıcıllığını hansı əsasa görə bərpa edə bilərsiniz?

Harvard Universitetinə qəbul qaydaları çox ciddidir, sənədlərini təqdim edənlərin, təxminən, 20 faizi bu ali təhsil müəssisəsinin tələbəsi adını qazanır. Qəbul imtahanları test və müsahibə mərhələləri üzrə aparılır. Harvard Universitetinə daxil olmaq üçün ərizələrin qəbulu hər il yanvarın 1-də başa çatır. Universitetə daxil olmaq üçün ilkin ödəniş 75 ABŞ dolları təşkil edir.

Universitetdə təhsilini davam etdirmək istəyənlər üçün Harvard İxtisasartırma və yay məktəbləri fəaliyyət göstərir. Harvard Universiteti, ümumilikdə, 600-dən artıq kurs təqdim edir. Onların 100-dən çoxu onlayn rejimində həyata keçirilir.

Harvard Universitetinin Kembric və Bostonda yerləşən məktəblərində 21500 tələbə təhsil alır. Onların 14500-dən çoxunu magistrant və doktorantlar təşkil edir. Bundan əlavə, 30 minə qədər tələbə universitetin təklif etdiyi müxtəlif kurslarda təhsil alır. Tələbələr, əsasən, ABŞ-ın 50 ştatını və dünyanın 80-dən artıq ölkəsini təmsil edir.

Universitetdə 400-dən çox tələbə təşkilatı fəaliyyət göstərir. Burada müxtəlif idman növləri üzrə 20-dən artıq tələbə idman komandası, bir neçə tələbə teatrı və radiostansiyası var. Hər il universitetdə beynəlxalq musiqi festivalı keçirilir.

Harvard Universitetində təhsil alan tələbələr 11–89 yaş arasındadır. Harvardın ən gənc tələbəsi Uilyam Cemys Sidis olub. O, 1909-cu ildə 11 yaşında Harvard Kollecinə daxil olmaqla bu ada layiq görülüb. Harvard Universitetini 1997-ci ildə 89 yaşında bitirən Meri Fazano isə ali məktəbin ən yaşlı məzunu adını alıb.

## Universitetin məşhur məzunları

| | |
|---|---|
| Con Adams | ABŞ-ın 2-ci prezidenti |
| Teodor Ruzvelt | ABŞ-ın 26-cı prezidenti |
| Franklin Delano Ruzvelt | ABŞ-ın 32-ci prezidenti |
| Con Kennedi | ABŞ-ın 35-ci prezidenti |
| Kiçik Corc Buş | ABŞ-ın 43-cü prezidenti |
| Barak Obama | ABŞ-ın 44-cü prezidenti |
| Ban Ki-Mun | BMT-nin Baş katibi |
| Bənazir Bhutto | Pakistanın sabiq Baş naziri |
| Bil Qeyts | "Microsoft" şirkətinin təsisçisi |
| Cek Sozdak | Tibb üzrə Nobel mükafatı laureatı |
| Albert Qor | Sülh üzrə Nobel mükafatı laureatı |
| Tomas Şellinq | İqtisadiyyat üzrə Nobel mükafatı laureatı |
| Roy Qlauber | Fizika üzrə Nobel mükafatı laureatı |
| Donald Kram | Kimya üzrə Nobel mükafatı laureatı |
| Tomas Eliot | Ədəbiyyat üzrə Nobel mükafatı laureatı |

**"Dünyanın 100 ən yaxşı universiteti" kitabından**

## SORĞU

Məktəbdə 9–11-ci sinif şagirdləri arasında "Təhsilimi davam etdirmək istədiyim ali məktəb" mövzusunda sorğu keçirin.

- Sorğunun məqsədi:

  Şagirdlər arasında Azərbaycanın ən məşhur universitetini müəyyənləşdirmək

- Sorğu üçün:

  – Şagirdlərin sayını müəyyənləşdirin;
  – Suallar hazırlayın.

- Nümunə üçün suallar təqdim edirik:

  – Təhsilinizi hansı universitetdə davam etdirmək istəyirsiniz?

  – Təhsilinizi niyə məhz ______________________________ universitetində davam etdirmək istəyirsiniz?

✓ *Alınan cavabları ümumiləşdirin. Nəticələri diaqram şəklində təqdim edin.*

**Nümunə**




**Qeyd:**

Sizin nəticələriniz alınan cavablardan asılı olaraq fərqli ola bilər.




❍ *Unutmayın ki, bu diaqram bir nümunədir. Sizin nəticələriniz fərqli olacaq.*

✓ *Nümunə kimi verilmiş diaqramları düzgün oxuyun.*

3. "Harvard Universiteti" mətninin üslubunu müəyyənləşdirib həmin üslubun xüsusiyyətlərini sadalayın.

4. *Con Harvarda məxsus kitabxana tarixən qitənin ikinci kütləvi kitabxanası hesab edilir. Harvard Universitetinin kitabxana sistemində 90 kitabxana və 14,5 milyon cild kitab var. Bu kitabxana dünyanın ən iri, ABŞ-ın isə böyüklüyünə görə ikinci kitabxanasıdır* cümlələrini hansı abzasa yerləşdirmək olar?

5. Mətnə əsasən Harvard Universitetini səciyyələndirən iki əsas xüsusiyyəti deyin.

6. Bunlardan biri mətndə öz əksini tapmayıb:

   A) Harvard Universitetinin tələbələri kampusda yaşayır.
   B) Universitetin təsisçisi yazıçı olmuşdur.
   C) Redklif Kollecinin yaranmasında əsas məqsəd qadınların ali məktəbdə oxumasına yol açmaq olub.
   D) Harvard kollecinin universitet kimi fəaliyyət göstərməsi 1810-cu ilə təsadüf edir.

7. Mətndə üstünlük təşkil edir:

   A) faktologiya   B) statistika   C) həm faktologiya, həm statistika

8. Fikirlərdən düzgün olanları seçin:

- Harvard Universitetini bitirən ən gənc və ən yaşlı məzun arasında 88 il fərq vardır.
- Harvardda təhsil alan məzunlar müxtəlif yaş həddindədirlər.
- Üç fənnin tədrisi kollecə universitet status verilməsinə təkan verdi.
- Universitetə rəhbərlik Kollegial Şura tərəfindən həyata keçirilir.
- Harvard Universitetində hər il beynəlxalq musiqi festivalı keçirilir. Şəkidə keçirilən Beynəlxalq Musiqi Festivalı haqqında məlumat toplayın. Azərbaycanda daha hansı festivallar keçirilir? Sizcə, bu festivallar hansı məqsədlə keçirilir?

9. Təsəvvür edin ki, Harvard Universitetinə qəbulla bağlı elan hazırlamalısınız. Mətndəki məlumatlardan istifadə etməklə həmin elanı hazırlayın.

*Elə hesab edin ki, universitet rektorusunuz. Rəhbəri olduğunuz təhsil müəssisəsi haqqında təsəvvür yaratmaq üçün hansı məlumatları və necə təqdim edərdiniz?*

10. Aşağıdakılardan biri *təsis* sözünün leksik mənasıdır:

- yazıda səhvləri, nöqsanları düzəltmə
- ayrı-ayrı hissələri seçib birləşdirməklə tam bir şey yaratma
- nəyin isə əsasını qoyma

11. Aşağıdakı cümlələrdə *əsas* sözünün leksik mənasını izah edin.

- İon hidridləri hidroliz zamanı əsaslar əmələ gətirir. (*"Ümumi kimya"*)
- Bunun əsası ondadır ki, XX əsrin əvvəllərində Türkiyəyə münasibətdə və türk dünyası, ümumtürk dili ideyası sahəsində, "Füyuzat" çox önəmli bir jurnal olmuşdur. (*"Xalq" qəzetindən, 2008-ci il* )
- Bu dostluğa rəvac verən əsas qüvvə geniş yayılmış "Molla Nəsrəddin" jurnalı idi. (*"Xalq" qəzetindən, 2008-ci il*)
- Azərbaycana məhəbbət "Vaqif" pyesinin əsasını təşkil edir. (*A.Bayramov*)
- S.Vurğun, ümumən bədii dilimizi də, H.Cavidin dilini də milli əsaslar üzərində inkişaf edən təmiz, aydın bir dil kimi görmək istəyirdi. (*A.Bayramov*)

12. Cümləni tamamlayın.

*Kampus dedikdə .......*

13. Mötərizədə verilmiş sözlərin düzgün formasını seçib cümlələri tamamlayın.

14. Mətndə altından xətt çəkilmiş cümlədə (səh. 42) *faizi* sözünü müvafiq şərti işarə ilə göstərib şəkilçini düzgün artırın.

15. *Mətndə* (səh. 41) *göy rəngdə verilmiş cümlə mürəkkəb cümlədir* fikri ilə razısınızmı? Niyə?

16. Mətndə tünd şriftlə verilmiş cümlələrə aşagıdakı sözlərdən hansı müvafiq ifadəni artırsanız, cümlə mürəkkəb olar?

- Deyilənə görə
- Məlumata görə
- Qeyd edək ki
- Məlumdur ki
- Araşdırmalar göstərir ki
- Uzunmüddətli təhlillərə əsasən

✓ *Qurduğunuz cümlələrin sxemi aşağıdakılardan hansına uyğun olacaqdır?*





17. Bakı Dövlət Universiteti haqqında məlumat toplayıb görüntülü təqdimat hazırlayın.

**Plan**

- Sizcə, Bakı Dövlət Universiteti necə yarandı?
- Bakı Dövlət Universitetinin yaranmasını zəruri edən səbəblər hansılar idi?
- Bakı Dövlət Universitetinin yaranması haqqında hansı məlumata maliksiniz?
- Bakı Dövlət Universitetinin yaranmasında rolu olan şəxslər, ilk müəllim heyəti haqqında məlumat toplayın.
- Məlumat toplayıb suallarınızı cavablandıracaq zəruri informasiyaları seçin.
- Topladığınız məlumatları təhlil edin.
- Şəxsi düşüncələrinizi ifadə edən fikirlərdən daha çox istifadə edin.
- Təqdimatınıza şəkillər əlavə edin.

6

# ÖMRÜN MƏNASI

(*ixtisarla*)

*Müəllimlik müqəddəs bir sənətdir həyatda,*
*Müəllimin hər sözü həqiqətdir həyatda.*
*Süleyman Rüstəm*

Müəllimlər qurultayına nümayəndə seçildiyimi biləndə, təbii, xeyli sevinmiş, həm?karlarıma təşəkkür etmişdim. **Nümayəndə olmağın bütün başqa məziyyətləri bir kənara dursun, uzun illər ayrıldığım, uzaq düşdüyüm bir çox yoldaşlar ilə bir yerdə görüşmək ümidi məni daha çox sevindirirdi.** Həyat sürətli, mürəkkəb, iş çox, vaxt az, adamlar həddindən artıq məşğuldurlar. Xatirini istədiyin, söhbətindən, ünsiyyətindən xüsusi zövq aldığın yaxın yoldaşı da bəzən aylar, illərlə görmürsən.

Respublika miqyasında çağırılan konfrans və qurultaylar imkan verir ki, yoldaşlar yaxından görüşüb əhvallaşsın, bir?birinin işi ilə yaxşı tanış olsun, müvəffəqiyyətinə sevinsinlər.

**Bu ümidlə də mən müəllimlər qurultayında çoxdan ayrıldığım yoldaşların bəzisi ilə görüşüb sevinmişdim.** Bu görüşlər yalnız indiki şəraiti, vəziyyəti əks etdirmək yox, həm də keçən günlərin xatirələri kimi mənalı və maraqlı idi.

Ancaq bir adam haqqında ümidim boşa çıxmışdı. O da iyirmi?iyirmi beş il bundan əvvəl bir yerdə, bir məktəbdə işlədiyim, bir müəllim, tərbiyəçi kimi xatirini çox istədiyim Ülkər xanım idi. Ülkər xanım məktəblilərə həssas ana nəvazişi ilə yanaşan tanınmış məşhur müəllimlərdən idi. İki?üç il əvvəl bir məktub ilə ona

**ORFOQRAFİYA**

Necə yazılmalıdır?

➤ Mətndə göy hərflə verilmiş sözlər:
- bitişik
- defislə
- ayrı

**ORFOEPİYA**

Hansı düzdür?

| | |
|---|---|
| ➤ [müəlim] | – [mə:llim] |
| ➤ [şəra:yit] | – [şəra:it] |
| ➤ [müra:ciət] | – [müra:ciyət] |
| ➤ [təəsüf] | – [tə:ssüf] |

müraciət edib əhvalını soruşmuşdum. O da təvazökar bir cavabla orta məktəbdə işlədiyini, işinin çox və maraqlı olduğunu, uşaqlarından razı qaldığını bildirmişdi.

Təəssüf ki, bu qurultayda Ülkər xanımı görmədim.

Yəni XANARXI RAYONU MAARİF ŞÖBƏSİ onu belə bir hörmətli yerə layiq görməmişdi?

"Ülkər müəllim, yerin görünür".

Bir neçə gündə biz xalq maarifinin inkişaf yolları, dərs proqramları, yeni tərbiyə, on?bir?illik məktəblər haqqında çox mötəbər adamların məruzə və çıxışlarını eşitdik, mübahisələr gördük, müzakirələr keçirdik, qərar, qətnamələr qəbul etdik...

Qurultayın işi qurtar?ha?qurtar idi. Müəllimlər sədrin otağına toplaşmışdılar. Bu ən sevincli bir gün idi. Təltif olunanların familiyası əlifba sırası ilə oxunurdu. Hər adamın adı çıxdıqca əyləşənlər onu təbrik edir, əl çalırdılar, təltif olunanlar qırmızı qutuda ordenini, ya medalını alırdı. Burada da Ülkər müəllim bir işıq kimi zehnimdən keçdi. Bu sualı mən başımdan təzəcə keçirmişdim ki, mənim üçün gözlənilməz bir hadisə baş verdi.

Sizcə, nə baş verəcək?

Deyəsən, mənim ürəyimdən keçənləri duymuşdular. İxtiyarsız olaraq öz-özümə dilləndim:

– Necə?

*Mən təəccüb elədim. "Məgər Atamova Ülkər nümayəndədir, məgər o buradadır? Necə olub ki, üç gün ərzində mən əziz yoldaşımı, köhnə həmkarımı, çoxdan görüşünə həsrət olduğum müəllimi görə bilməmişəm?!"*

Mən qabaq tərəfdə oturmuşdum. Müəllimin adı çəkiləndə çox maraqlı bir xəbər eşidən kimi arxaya dönüb bütün sıraları gözdən keçirməyə, Ülkəri axtarmağa başladım. Ülkərin hansı sırada əyləşdiyini, indi bu dəqiqə haradansa qalxıb, göyərçin yerişilə tribunaya tərəf gələcəyini ürək döyüntüsü ilə gözləyirdim.

Ancaq buralarda Ülkərdən əsər-əlamət görünmürdü. Bu necə işdir?! Ülkər burada yoxdursa, katib nə üçün onun adını çağırır?

– Ülkər bəs hanı?

...Yəni Ülkər bu məclisdə çətin görünən qədər balaca bir adamdır?

Xeyr!

...Ümumi alqış səsi təkrar ucaldı. O, utancaqlıqdan başını qaldırmadı. Ayaqlarının ucuna baxa-baxa məğrur yerişini pozmadan alqışlar altında sədrin stoluna yaxınlaşdı.

"Bu Ülkərdirmi? Mən axtaran müəllim budurmu?"

Sıranın kənarına əyilib müəllimin üzünə diqqətlə baxdım. Qocalıq, gərgin və ehtiraslı əmək, mübarizə illəri öz işini görmüşdü.

...Nişanlarımızı alıb qurultay binasından çıxanda məktəbli qız və oğlanların Ülkər müəllimi gül dəstələri ilə qarşıladığını gördüm. Onlar müəllimi doğma anaları kimi əhatə edib təbrik edirdilər.

Mən Ülkərin səadətini Vətən balalarının gələcəyə istiqamətlənən ayıq baxışlarında, həyatın bütün nemətlərini əks etdirən şən gülüşlərində, xalqa etibar, iftixar və minnətdarlığını ifadə edən ehtiram və rəftarlarında görürdüm, özüm də bu mənzərəyə küsənirdim.

**Fikrə münasibət bildirin və müzakirə aparın.**

Bir çox gənclərin, uşaqların, baharda dağlardan çağlayıb gələn dağ suları kimi duru və səsli gülüşlərində Ülkər müəllimin müqəddəs əməyinin, ictimai məzmunlu ömrünün dərin mənasını görürdüm.

**Mir Cəlal Paşayev**

1. Hər iki mətni məzmun baxımından müqayisə edin.

Məktəb illərində müəllimimiz
Tək müəllim deyil, ataydı, ata.
Adı Süleymandı; o illərdə biz
Ümid bağlamışdıq bu böyük ada.

O qədər sevimli, o qədər əziz,
O qədər mülayim bir insandı ki...
Ürəyi, diləyi, vicdanı təmiz,
O qədər, o qədər mehribandı ki.

O qara illərdə düşdükmü dara,
Müəllim! Sən bizə havadar oldun.
Sabahı düşündün, bağrında yara,
Vətənə, millətə vəfadar oldun.

Yaxşı yadımdadır bu günə qədər
“Qorxulu nağıllar”, qorxulu illər.
Yaxşı ki, o illər düşdü dərbədər,
Gəldi dünyamıza uğurlu illər.

Qasım İsmayılov küçəsindəki
Məktəbin şagirdi şairdir indi,
Qəlbinin ən dərin guşəsindəki
Qoşmadır, nəğmədir, şeirdir indi.

O qanlı illərdə məhəbbətlə sən
Bizə nişan verdin bu gülüstanı.
Deyirəm ürəkdən, var səsimlə mən –
Sağ ol müəllimim Süleyman Sani!

*Süleyman Rüstəm*

2. Hansı mətnin dili üçün səciyyəvidir:

- emosionallıq
- dialoji nitq
- elmilik
- kütləvilik

3. Hikmətli fikirlərdən biri mətnin ideyası ilə səsləşir:

A) Düşünmədən öyrənmək faydasız, öyrənmədən düşünmək təhlükəlidir. (*Konfutsi*)

B) Gedəcəyiniz yeri bilmirsinizsə, çatdığınız yerin əhəmiyyəti yoxdur. (*S.Cordan*)

C) Çatmaq istədikləri bir hədəfi olmayanlar işləməkdən də zövq almazlar. (*E.Raux*)

D) İnsanı həyata bağlayan onun gözəl cəhətləridir. (*Sokrat*)

E) Hərə öz qəlbinin dərinliklərindəki işığı üzə çıxara bilsə, dünya daha işıqlı olar. (*Ə.Turxan*)

4. Hekayədən çıxış edərək Ülkər müəllimin daxili və xarici görkəmi haqqında danışın.

5. Əsərdə Ülkər müəllimin simasında müəllimə xas hansı insani keyfiyyətlər sadalanır? Öz müəlliminizlə Ülkər müəllimi müqayisə edin. Hansı fərqli və oxşar xüsusiyyətləri müşahidə etdiniz?

6. *Qocalıq, gərgin və ehtiraslı əmək, mübarizə illəri öz işini görmüşdü* cümləsinə münasibət bildirin. Burada hansı mübarizə illərindən və gərgin əməkdən söhbət gedir?

7. Hekayənin qəhrəmanının həyəcanlarına səbəb nə idi? Onun Ülkər müəllimə olan münasibətini müzakirə edin. Əsərdən həmin hissələri seçin, əlavələr edin.

8. Ülkər müəllimi xatırlayan şəxsin obrazını yaradın. Sizcə, bu qəhrəmana hansı ad uyğun gələr və nə üçün? Bəs yazıçı olsaydınız, həmin qəhrəmana hansı adı verərdiniz?

9. Ülkər müəllimi, ümumiyyətlə, müəllimi qəhrəman hesab etmək olarmı? Əsərdən çıxış edərək fikrinizi əsaslandırın.

10. Hansı obrazı daha çox sevdiniz, yaxud üstünlük verdiniz? Nə üçün?

11. Mətnə əsasən Ülkərin hansı kənddə müəllim işlədiyini müəyyənləşdirin.

12. "Azərbaycanfilm" kinostudiyasının istehsalı olan "Bizim Cəbiş müəllim" filminə baxın. Cəbiş müəllimlə Ülkər müəllim obrazını müqayisə edin. *Hər iki müəllim ömrünün, həyatının ən yaxşı günlərini Vətən balalarının yetişməsinə sərf edir* fikrini həm Ülkər, həm də Cəbiş müəllim obrazına aid etmək olarmı? Fikirlərinizi əsaslandırın.

13. Mətnin 1-ci cümləsindəki (səh. 48) *təbii* sözünü cümlədə elə işlədin ki, həmin söz suala cavab versin.

14. Mətndə (səh. 49) göy rəngdə verilmiş cümlədə *qabaq* sözünü cümlədə elə işlədin ki, həmin söz suala cavab verməsin.

15. Bunlardan biri *məziyyət* sözünün leksik mənasıdır:

*Bir adamın və yaxud nəyin isə üstünlüyünü göstərən xüsusiyyət*

*Nəyin isə tərkib hissəsi, elementi*

*Əsərdə, kitabda və s. şərh olunan, haqqında danışılanın əsas şərhi*

16. Mətnlərdə altından xətt çəkilmiş cümlələrdə (səh. 50) hansı sözlər sinonimdir? Həmin sözlər həmişə bir-birini əvəz edə bilirmi?

17. Mətndə tünd şriftlə verilmiş cümlələrdə (səh. 48) hansı ifadələr biri digərini əvəz edə bilər?

18. *Yəni Ülkər bu məclisdə çətin görünən qədər balaca bir adamdır* cümləsində *çətin* sözü hansı mənada işlənmişdir? Bu cümlədə *çətin* sözünü aşağıdakı sinonimləri ilə əvəz etmək olarmı?

mürəkkəb, qəliz, ağır, dolaşıq, əziyyətli

✓ *Çətin* sözünü cümlədə elə işlədin ki, *mürəkkəb* və *əziyyətli* sözləri onu əvəz edə bilsin.

✓ Şeirin 3-cü bəndində hansı söz *çətin* sözünün sinonimi ola bilər?

19. Uyğunluğu müəyyənləşdirin:

| | |
|---|---|
| **Qərar** | *Bir işin görülməsi üçün verilən hökm, göstəriş* |
| **Əmr** | *Bir məsələni müzakirə etdikdən sonra hamı tərəfindən çıxarılan nəticə* |

20. *Qədirin iştirak etdiyi elə bir iclas yox idi ki, protokolun ayağında qətnaməyə zidd gedən olmasın (M.C.Paşayev)* cümləsində *qərar* sözü hansı sözün yerinə yazıla bilər?

21. “Müəllim olmaq istərdinizmi?”

22. Mətndə (səh. 49) çərçivəyə alınmış ifadəni düzgün yazın.

23. Mətndə (səh. 49) yaşıl rəngdə verilmiş cümlədə *bu* sözündən sonra vergül işarəsi qoyulmalıdır. Bu hökmü necə təsdiq edərsiniz?

24. *Həyat sürətli, mürəkkəb, iş çox, vaxt az, adamlar həddindən artıq məşğuldurlar* cümləsi ilə bağlı hökmlərdən hansı düzgündür?

- Məzmun qarşılaşdırılır.
- Sadə cümlədir.
- Xəbərlik şəkilçisi ixtisar olunmuşdur.
- Cümlədə ancaq suala cavab verən sözlər işlənmişdir.
- Cümlədə *və* bağlayıcısından istifadə etmək olar.

✓ *Cümlədə ifadə olunan fikri müasir dövrlə əlaqələndirməyə çalışın. Hər bir fikri bildiyiniz 1-2 faktla əsaslandırmağa çalışın.*

25. Mətndə sual cümlələrini müəyyənləşdirib cədvələ uyğun qruplaşdırın.

| Cavab tələb edən sual cümlələri | Cavab tələb etməyən sual cümlələri (bədii sual) |
|---|---|
| 1.<br>2. | 1.<br>2. |

26. Mətndə fərqləndirilmiş hissədə (səh. 49) əkslik yaradan məqam varmı? O əksliyi hansı sözlər yaradır?

27. “Sağ ol, müəllimim” şeirində ziddiyyət yaradan fikirlər varmı? Həmin fikirləri seçib göstərin. Belə fikirlərin bədii nümunələrdə hansı məqsədlə işləndiyini deyin.

28. Mətndə (səh. 48–49) və şeirdə (səh. 50) müraciət bildirən sözləri seçin, onların nə məqsədlə işləndiyini deyin.

**Biz adi danışıqda hər hansı bir məlumatı çatdırmaq üçün sözdən istifadə edirik. Bu, sözün *informativ funksiyası* hesab edilir. Sözün bədii üslubdakı əsas işi onun *poetik funksiyasıdır*. Poetik funksiya daşıyan sözə poetizm, yəni *bədii söz* deyilir.**

**Bədii əsərlərdə məcazi mənada işlənən sözlər bədii söz hesab edilir.**

Məsələn:

*Ulduzlar utanıb gözəlliyindən*
Sənin qədəminə yerə axışdı.
(*M.Araz*)

*Öpsün alnımızı axşamın yeli*
Bu geniş düzlərin əvəzi varmı?
(*H.Arif*)

**Bədii dil obrazlı dildir. Obrazlılıq bədii əsərlərdə ifadəlilik, canlılıq yaradır. Bədii əsərlərdə fikrin daha qüvvətli verilməsi üçün təzadlardan, bədii xitablardan, bədii suallardan və s.-dən geniş istifadə edilir. Bunlar üslubi hadisələrdir.**

**Sənətkar obrazların xarakteri, anlayışlar, münasibətlər, hadisələr arasındakı ziddiyyətləri göstərmək üçün təzadlardan istifadə edir.**

Məsələn:

O mənim üstümə *kin* püskürəndə
Mən ona yanaşdım *məhəbbətimlə*.
(*X.R.Ulutürk*)

**Bilirsiniz ki, bədii (ritorik) sual cümlələri quruluşca sual şəklində olsalar da, məzmunca sual ifadə etməyən cümlələrdir və bu baxımdan onlar həqiqi sual cümlələrindən fərqlənir. Sual cümlələrinin bu növündə cavab tələb olunmur.**

Məsələn:

Şeirimdə dil açıb danışmırmı bəs,
Sənin bulaqların, göy çinarların?!
(*B.Vahabzadə*)

Daha sən də qurdla qiyamətə qalmayacaqsan ki?!
(*S.Rəhimov*)

29. Aşağıdakı cümlələri sxem əsasında qruplaşdırın:

| Bədii sual | Bədii təzad | Xitab |
|---|---|---|
| | | |

1. Ayrılarmı könül candan?!
Azərbaycan! Azərbaycan! (*S.Vurğun*)

2. Şair, hökmdarın hüzurundasan. (*S.Vurğun*)

3. Nə yatmısan, qoca vulkan, səninləyəm!
Ayağa dur, Azərbaycan, səninləyəm! (*M.Araz*)

4. Bəlkə, ona bir ali məktəbi tövsiyə etmək lazım idi? Nə üçün mən – hansı sənəti xoşlayırsan, onu da seç – dedim?.. Məgər sənətin özünün adamın gələcək taleyində əhəmiyyəti azdırmı?! (*S.Rəhimov*)

5. Yetər fəraq odlarından kül ələndi başımıza
Dur ayağa,
Ya azad ol, ya tamam yan, Azərbaycan (*M.Şəhriyar*)

6. Ey vətən! Torpağın əzizdir mənə,
Mən səndə tapmışam səadətimi. (*S.Rüstəm*)

7. – Müəllimə mənə dedi ki, oğlum, daima öz ürəyini təmiz saxla, heç bir zaman onu ləkələmə! (*S.Rəhimov*)

8. Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox! (*Z.Yaqub*)

✓ *7-ci cümlədə hansı söz səhv yazılmışdır?*

30. Təxəyyülünüzə əsasən Ülkər müəllimin xarici görkəmini təsvir edib mətnə əlavə edin.

31. Müəllimlik sənəti barədə mətbuatda dərc etmək üçün məqalə hazırlayın.

32. Hekayənin ardını yazmağa çalışın:

- Həmkarlar görüşürlər.
- Keçmiş günləri xatırlayırlar...

# II DƏYƏRLƏR


1. Təbəssüm
2. Faydalı məsləhət
3. Hekayət
4. “Çempion”
5. Salur Qazanın evinin yağmalandığı boy
6. Referat
7. 20 Yanvar – Ümumxalq Hüzn Günü

Böyük işlər görmək üçün dahi olmaq, insanlardan yüksəkdə durmaq şərt deyil; bunu onlarla bir yerdə də etmək olar.

**Ş.L.Monteskyu**

Uşaqlarınıza ən dəyərli töhfəniz ağıldır, qalanını özləri də əldə edə bilərlər.

**İ.Kant**

1. Sizcə, bölmə nə üçün belə adlandırılmışdır?
2. Hər iki mütəfəkkirin sözlərinə münasibət bildirin.
3. Dəyərlər dedikdə nə başa düşürsünüz?
4. Sizcə, nə üçün bölmə üçün bu sözlər epiqraf seçilmişdir? Bu fikirlərdə hansı hikmət gizlənmişdir?
5. Necə düşünürsünüz, insana, ilk növbədə, nə aşılanmalıdır? Ağıl, yoxsa bilik?
6. *Ağıl* anlayışının içində hansı dəyərlər vardır?

1

# TƏBƏSSÜM

"Çox şeyi unuduruq, amma bir gülüş, sevgi dolu bir baxış yaddaşımızda unudulmaz izlər buraxa bilir".

*D.Ertuğrul Yaman*

**ORFOEPİYA**

Düzgün tələffüzü yazın.

- əfsunlu – [.................]
- bunların – [.................]
- insanların – [.................]



Sizcə, şəkildə təsvir olunan uşaqların simasında təbəssüm, yoxsa gülüş vardır?

Nədir, görəsən, bu əfsunlu hal?..
Qəlbə qığılcım atan sevgi şimşəyidirmi?..
Könülə bağışlanan hüzurdurmu?..
Səadət qaynağıdırmı?..
Ünsiyyət qurmada ən kəsə yoldurmu?..
Sakitləşdirici məlhəmdirmi?..
Yoxsa çöhrənin ən gözəl bəzəyimi?..
Əslində, o bunların hamısıdır.
Təbəssümdür onun adı...

Səmimi təbəssüm. Gözəllik, cazibədarlıq rəmzi təbəssüm.

Könüldən gələn səmimi bir təbəssüm qaranlıq, zülmət bürümüş qəlb üçün işıqdır, nurdur. Donmuş qəlblərdəki ən sərt buz dağlarını belə əridəcək günəş, hərarət mənbəyidir səmimi təbəssüm.

Sanki nəhəng bir seldir o – bütün pislikləri, çirkinlikləri dalğalarında boğan, qovub kənara atan sel.

Səmimi təbəssüm insanların bir-birinə bağışlayacağı ən gözəl, ən dəyərli hədiyyədir. Çünki o, burulğanadək bir başa könül yurduna düşər və oranı sevgiyə bürüyər.

Yer üzünə insanla bərabər gəlmiş təbəssüm həyatımızda olduqca mühüm rol oynayır. Əslində, təbəssüm sosial bir ehtiyac, bir zərurətdir. Qida ehtiyacımızı ödəmək üçün nə qədər vacibdirsə, bu sosial ehtiyacı ödəmək də bir o qədər əhəmiyyətlidir.

**Afaq Ağayeva, "İşıq" jurnalından**

✓ *Mətndəki hansı abzas digərlərindən fərqlənir? Niyə belə hesab edirsiniz?*

1. Hər iki mətni oxuyun. Hansı mətn sizdə təbəssüm, hansı gülüş oyatdı? Hansı mətndə incə yumor var?

Gənc bir musiqiçi bir az da utancaq bir ifadə ilə dahi bəstəkar Motsarta yaxınlaşdı:

– Ustadım, sizdən bir şey soruşmaq olarmı?

– Buyurun!

– Sizcə, bir simfoniyanı yazmaq üçün nə lazımdır?

– Hələ çox gəncsiniz, niyə daha kiçik əsərlərdən başlamırsınız?

– Ancaq, ustadım, siz öz simfoniyalarınızı 10 yaşınızda yazmamışdınızmı?

– Doğru deyirsiniz, ancaq mən o yaşımda: "Bir simfoniyanı yazmaq üçün nə lazımdır?" – deyə soruşmamışdım ki?..

Məşhur pianoçu Artur Rubinşteyn konsertlərindən birində kiçik bir qızın xatirə dəftərini imzalamaqda tərəddüd edirdi. O, əllərinin çox yorulduğunu bildirəndə kiçik qız tez cavab verdi:

– Əllərinizin nə qədər yorulduğunu bilirəm. Ancaq mənim də əllərim, ən azı, sizinkilər qədər yorğundur...

– Niyə?..

Cavab düşündürücü idi:

– Sizi alqışladıqları üçün...

2. Mətnin (səh. 60) məzmunu ilə tanış olub aşağıdakı tapşırıqları icra edin.

- ✓ *Məzmunu "Təbəssüm" mətninin məzmunu ilə əlaqələndirin.*
- ✓ *Say bildirən sözlərdən sonra şəkilçi necə yazılmalıdır?*
- ✓ *Hansı saydan sonra şəkilçi yazılmır? Niyə?*
- ✓ *Mötərizədə verilmiş sözlərdən uyğun olanını seçib işlədin.*
- ✓ *Altından xətt çəkilmiş cümlədə **sayəsində** sözünü çıxarıb cümləni düzgün yazın.*
- ✓ *Fərqləndirilmiş cümlədə hansı söz səhv yazılmışdır? Səhvi düzəldin.*



Oktyabrın 3 Dünya Təbəssüm Günü kimi qeyd olunur. Bu günü qeyd etməyi XX əsrdə ABŞ rəssamı Harvi Bell təklif edib. Deyə bilmərik ki, o, xüsusi istedada malik bir rəssam olub. Heç özü də belə düşünməyib. Sadəcə, (*sevdiyi, bəyəndiyi*) işlə məşğul olub. Lakin bir gün aldığı sifariş sayəsində tezliklə məşhur və tanınmış adama çevrilib.

...İki sığorta şirkətinin birləşməsi (*prosesində, nəticəsində*) çoxlu çətinliklər üzə çıxır. Yaranan vəziyyət əməkdaşlara pis təsir edir, onlar bədbin, əsəbi və dalğın görünürlər. Onların bu halı müştərilərə də sirayət edir. Onda şirkətin rəhbərliyi qərara gəlir ki, parlaq və fərqli bir simvoldan vizit kartı kimi istifadə olunsa, vəziyyət düzələr. Bu məqsədlə rəssam Bellə müraciət edirlər. O da təbəssümü qulaqlarına qədər uzanan şən və dəyirmi sifət çəkir. Şirkətin əməkdaşları rəssamın eskizi əsasında hazırlanan nişanları taxanda əhvali-ruhiyyələri yüksəlir: onlar da, yaxalarında gəzdirdikləri smaylik də müştəriləri təbəssümlə qarşılayır.

Möcüzə baş verir: şirkətin işləri yağ kimi getməyə başlayır.

Tezliklə smayliklər təsvir üçün münasib olan hər yerdə, o cümlədən geyimdə, qab-qacaqda görünməyə başlayır. *Bellin təsvir etdiyi tünd sarı rəngli məzəli sifət bütün dünyanı fəth edir.*

İdeyasının uğur qazanmasından ruhlanan rəssam hər il oktyabr ayının ilk cümə gününü Dünya Təbəssüm Günü kimi qeyd etməyi təklif edir. Həmin gün ilk dəfə 1999 ildə qeyd olunur. Təbəssüm gününün şüarını da rəssam özü düşünüb tapıb: "Xeyirxah iş gör. Heç olmazsa, bircə təbəssümün yaranmasına kömək et".

*AzərTAc https://azertag.az/xeber*

3. Sizcə, təbəssümün insan həyatında hansı rolu vardır?

4. Nə üçün müəllif təbəssümü sosial ehtiyac hesab edir? *Sosial ehtiyac* dedikdə nə başa düşürsünüz? Daha hansı sosial ehtiyaclar vardır?

5. Müəllifin təqdimatında təbəssüm nəyə bənzədilir və hansı obyektlərlə müqayisə edilir? Sizcə, müəllif, sadəcə, "sosial zərurət olan təbəssüm insana mütləq lazımdır" desə idi, bu kifayət etməzdimi?

6. Hansı fikir mətnin (səh. 58–59) məzmunu ilə səsləşir?
   A) Sülh bir təbəssüm ilə başlayar.
   B) Gülüş bir günəşdir, o qışı insanın üzündən götürür.
   C) İnsan həmişə gülməlidir.
   D) Keçmişə görə ağlama, olacaqlara görə gülümsə.

7. Müəllif mətndə *səmimi təbəssüm* ifadəsini işlədir. Saxta təbəssüm olurmu?

8. Mətndən (səh. 58–59) istifadə etməklə təqdim olunanları səbəb-nəticə əlaqələri şəklində qruplaşdırın.

| Səbəb | Nəticə |
|---|---|
| 1. Üzdə səmimi təbəssüm yarandı. | 1. Qəlbdəki qaranlıq yox oldu. |
| 2. | 2. |
| 3. | 3. |

9. Mətndən (səh. 58–59) çıxan nəticəni 1–2 cümlə ilə yazın.

10. *Təbəssüm nədir?* sualına bir cümlə ilə necə cavab verərdiniz?

11. Mətndən (səh. 58–59) istifadə etməklə sxemi tamamlayın.




12. Mətnə (səh. 58–59) uyğun şəkil çəkə bilərsinizmi?

13. *Gülüş* və *təbəssüm* sözlərinin sinonim olub-olmadığını əsaslandırın.

14. Lüğət üzərində iş aparmaq üçün özünüz suallar tərtib edin.

15. Mətni oxuyun, orada ifadə olunan fikirlərə münasibət bildirin.

X əsrin 70-ci illərində gülüşü orqanizmin çox güclü ehtiyat mənbəyi kimi ciddi şəkildə öyrənməyə başlayıblar. Həkimlər hesab edirlər ki, gülüş uzun sürən şadlıq hissi yaradır. Şadlıq hissi nə qədər çoxdursa, sağlamlıq üçün faydası da bir o qədər çoxdur. Xoş əhvali-ruhiyyə bəzən bütün günə kifayət edir.

Gülüş haqqında elmin – helotologiyanın yaranması tarixi də maraqlıdır. Onun banisi amerikalı jurnalist Norman Kazins "ölümü güldürən" adam kimi məşhurlaşıb. Həkimlər nadir sümük xəstəliyindən əziyyət çəkən N.Kazinsin dərdinə əlac edə bilmirlər. Öləcəyini düşünən Norman son günlərində doyunca gülmək qərarına gəlir, bir guşəyə çəkilərək gününü komediya filmlərinə baxmaqla, lətifələr oxumaqla keçirir, bolluca "C" vitamini qəbul edir.

Nəticə bütün dünyanı heyrətə gətirir. Jurnalist dəhşətli xəstəlikdən sağalır və öz müalicə metodunu "Gülüşün və C vitamininin superdozası" kimi müəyyən edir.

*AzərTAc https://azertag.az/xeber*

✓ *Helotologiya elminin mövcudluğu barədə məlumatlı idinizmi?*

✓ *"Gülüş ədəbiyyatda və məişətdə" mövzusunda söhbət aparın.*

16. Mətnlər hansı üslubda yazılmışdır?

17. Mətndə (səh. 59) altından xətt çəkilmiş cümlədə hansı söz səhv yazılmışdır?

18. Mətndəki (səh. 58–59) sual cümlələrinə necə cavab verərdiniz?

19. Mətndə (səh. 58) üç nöqtə işarələrinin işlənmə səbəbini deyin.

20. Mətnlərin dilini tədqiq edin. Əgər üslubi səhvlər varsa, düzəldin.

21. Mətni oxuyun, tapşırıqları yerinə yetirin.

- ✓ *Fərqləndirilmiş cümlələrdə durğu işarələrini bərpa edin.*
- ✓ *Tünd şriftlə verilmiş sözlərin yazılışında hansı səhvə yol verilmişdir?*
- ✓ *Mötərizədə verilmiş feillərə uyğun şəxs sonluqları artırıb cümlələri tamamlayın.*
- ✓ *Mətndəki frazeoloji birləşmələri müəyyənləşdirin.*
- ✓ *Mətndə poetizmlər varmı?*

Əsrarəngiz gözəlliyə malik qədim Şəkinin adı çəkiləndə istər-istəməz insanların (*dodağı qaçmaq*). Yəni biləndə ki, qarşındakı insan şəkilidir, təbəssümünü (*gizlədə bilməmək*). *Bu da ondan irəli gəlir ki* şəkililər olduqca baməzə *şən hazırcavab ağıllı saf təmiz* səmimi və gülərüz insanlardır. Sən bircə dəfə də olsun, Şəkiyə getmisənsə, yəni Şəki torpağına (*ayağı dəymək*), demək, artıq sənin özünün şəkili olmağına bircə addım qalıb. Bu yerin insanlarının şirin ləhcəsi, sözü-söhbəti səni elə ovsunlayacaq, elə məst edəcək ki, heç özün də bilmədən qarşındakı ilə elə onun öz "dilində" (*ünsiyyət qurmaq*).

Şəki ən çox nələri ilə *tanınır deyə sual edilərsə onun* ***Xan Sarayı*** *Marxalı şəbəkəsi ipək kəlağayısı təkəlduzu paxlavası pitisi... ilə yanaşı yəqin ki* lətifələri də ilk olaraq xatırlanacaqdır. Şəki torpağının özü orijinallığı ilə seçildiyi kimi, bu məşhur sənət və yaradıcılıq nümunələri ilə də Azərbaycan və dünya mədəniyyəti xəzinəsinin ayrılmaz tərkib hissəsini təşkil etməkdədir.

Qafqazın "gülüş mərkəzi" adlandırılan Şəki ilə Bolqarıstanın məşhur Qabrovo şəhəri qardaşlaşmış şəhərlərdir və hər il aprel ayının 1-də keçirilən **"Gülüş Bayramı"** bu gözəl mədəniyyət mərkəzlərində böyük təntənə ilə qeyd olunur

*Qiymət Məhərrəmli, filologiya üzrə fəlsəfə doktoru*

✓ *Mətnlər əsasında (səh. 58-59, 60, 62, 63)* ***təbəssüm*** *və* ***gülüş*** *haqqında gəldiyiniz qənaəti 6-7 cümlə ilə ifadə edin.*



2

# FAYDALI MƏSLƏHƏT

(*ixtisarla*)



İstək ilə nəticə arasında keçilməz bir uçurum var ki, onu ancaq ağıllı simalar keçə bilirlər.

**Cəfər Cabbarlı**

Bir kənddə Əhməd adında oğlan var idi. Əhmədin atası koldan-kosdan qırıb satmaqla bir təhər ailəni dolandırardı.

Aylar dolanır, illər keçir, Əhməd on səkkiz yaşına çatır, hazırlıq görüb uzaq bir şəhərə oxumağa gedir.

Əhməd getdiyi şəhərdə həm işləyir, həm də oxuyur. Qazandığı pulun yarısını evlərinə göndərir. Bir neçə il oxuduqdan sonra qayıdıb evlərinə gəlir. Əhməd yolda bir kişiyə rast olur, onunla söhbət eləyə-eləyə bir xeyli gəlib, böyük bir kəndə çatır.

**ORFOQRAFİYA**

- Mətndə altından xətt çəkilmiş sözlər necə yazılmalıdır?

**ORFOEPİYA**

Düzgün tələffüzü yazın.

- kənddə – [ ........... ]
- adamla – [ ........... ]
- yolundan – [ ........... ]
- yaylıqla – [ ........... ]

Kişi Əhmədə deyir:

– Oğul, indi sən oxuyub savadlı adam olubsan. De görüm, qeyzlə bir iş görmək istəsən, əvvəlcə nə etmək lazımdır?

Əhməd kişinin sualına cavab vermək üçün nə qədər söz deyirsə, heç biri düz olmur: axırda yalvarır ki, nə istəyirsən, verim, o sözü de.

*Kişi deyir*

*Bir il mənim yanımda qal əkinimə bağ-bağçama kömək elə gedəndə zəhmət haqqı min manat pul verim Sonra da baxarıq mümkün olsa bəlkə o sözü də dedim*

Əhməd fikirləşir ki, onsuz da evə əliboş gedirəm. Elə yaxşısı budur, qalım, bir il işləyim, min manatı da alıb evə apararam.

Bəli, Əhməd burada işləməkdə olsun, kişinin gəliri həmin il iki-üç qat artır. İlin axırı gələndə Əhməd deyir:

– Təklifin nədir?

Kişi dedi:

– Oğul, sənin işlədiyin müddətdə mənim gəlirim günü-gündən artırdı. Odur ki, mən istəyirəm, bir il də yanımda işləyəsən, bu dəfə gedəndə iki min manat verim.

Əhməd götür-qoy eləyir ki, elə az pulla gedincə, qalım, əlavə iki min manatı da alım. Odur ki, razı olub qalır. İkinci il də tamamlanır. Əhməd haqq-hesabını çəkib getməli olur.

Kişi:

– Oğul, mən sənə üç min manat verəcəyəm. İstəsən, sənə iki qiymətli söz öyrədərəm. Həmən sözlərdən biri sən oxumaqdan qayıdıb gələndə verdiyim sualın cavabı, biri də ayrı bir məsləhətli sözdür, – deyir.

Əhməd deyir:

– Mən istəyirəm, o sözləri deyəsən.

Kişi deyir:

– Bala, birinci sözün qiyməti min manatdı, istəyirsən, deyim.

Əhməd razı olur.

Kişi deyir:

– Qəzəblənib bir iş görmək istəsən, əvvəlcə bir az səbr elə, sonra gör.

Əhməd deyir:

– Elə bu?

Kişi deyir:

– Bala, əgər, bu söz sənə min manatdan artıq xeyir verməsə, qayıt gəl, pulunu geri qaytarım.

Kişi deyir:

– Oğul, ikinci sözün qiyməti iki min manatdı. İstəsən, onu da deyərəm. Yenə həmin söz iki min manatdan çox xeyr verməsə, gəl, pulunu apar.

Əhməd istəyirdi ki, hər şeyi bilsin. Ona görə razı oldu. Kişi dedi:

– Bala, tanımadığın adamla yol getsən, nəbadə karvan yolundan kənara çıxasan!

Əhməd bu sözə lap pərt oldu, öz-özünə dedi: “Burada nə var ki, mən iki min manatımı verdim?”

Kişi gətirib Əhmədə iki yağlı çörək verdi. Birini yaylıqla bağlayıb cibinə qoydu, o birini açıq verdi. Özünə də tapşırdı ki, yolda acıb-eləsən, əlindəki çörəyi yeyərsən, yaylığa bağladığımı evdə kəsib arvadınla yarı bölərsən. **Əhməd kişidən razılıq eləyib başladı evinə qayıtmağa.** Yolda iki nabələd adama rast gəldi. Bunlardan biri dərviş, o birisi isə piyada zəvvar idi. Əhməd bu adamlarla xeyli söhbət eləyə-eləyə getdi. Axır ki, gəlib bir yerdə iki yolun ayrıcına çatdılar.

Yolun biri karvan yolu idi, adamlar hey gedib gəlirdilər. O birisi meşənin içinə gedən sərin kölgəli yol idi.

Dərviş dedi:

– Gəlsəniz, bu sərin yol ilə gedək.

Kişinin sözü Əhmədin yadına düşdü, odur ki onlardan ayrılıb karvan yolu ilə getdi.

Səhər açıldı. Əhməd gördü, karvan yolunun kənarında bir daşın üstündə dünən gördüyü zəvvar ayağyalın, başaçıq oturub ağlayır. Əhməd kişidən ağlamağının səbəbini soruşdu. Zəvvar başına gələn əhvalatı danışdı:

– Dünənki dərviş meşədə məni soydu, pulumu, paltarımı əlimdən aldı, özümü də bərk döydü.

Əhməd o saat barmağını dişləyib öz-özünə dedi:

– Əgər iki min manatı verib o sözü öyrənməsəydim, indi mən də zəvvarın gününə düşərdim.

Əhmədin bu düşüncəsini təsdiqləyən kiçik hekayət düşünüb nağıla əlavə edin.

Əhməd öz-özünə dedi:
– Əgər kişi mənə “səbir elə” sözünü öyrətməsəydi, əlimdən xəta çıxardı.

Sizcə, çörəyin içində nə qədər pul var idi?

Əhməd kişinin verdiyi çörəyi cibindən çıxarıb kəsdi ki, yesinlər, çörəyin içindən çoxlu pul töküldü. Sayıb gördü, ..................

Başa düşdü ki, kişi onun zəhməthaqqını da veribmiş. Pulun yanından yazılı bir kağız da tapdı. Kağızı oxudu. Gördü, kişi yazıb ki, “Oğul, Əhməd, nəsihətlərimi yadından çıxartma”.

Əhməd kişidən çox razı qalıb, gətirdiyi pullarla ailəsini, ata-anasını dolandırıb xoş gün keçirdi.

**Azərbaycan nağılı**

1. Mətnin bədii üslubda olduğunu əsaslandıran bir neçə xüsusiyyət deyin və mətnə uyğun meyarları seçin:
   - sadə – mürəkkəb
   - aydın – şifrəli
   - konkret – mücərrəd
2. Aşağıdakı hökmlərdən birini seçib fikrinizi əsaslandırın.
   - Mətn təsviri xarakterlidir.
   - Mətn nəqli xarakterlidir.
   - Mətn mühakimə xarakterlidir.
3. "Faydalı məsləhət" nağılı "Övladımın müəlliminə məktub" mətni ilə məzmun baxımından necə əlaqələnə bilər? Hansı tövsiyələr üst-üstə düşür?
4. Mətnin ideyasını müəyyənləşdirin və onu epiqrafla müqayisə edin. Epiqraf və ideya bir-birini tamamlayırmı? Niyə belə hesab edirsiniz?
5. Mətnə əsasən nəyi müəyyən etmək olar?
   1. Əhmədin 18 yaşında oxumağa getməsini
   2. Əhməd kişinin təkliflərinə ürəkdən razı olmasını
   3. Zəvvarın yolunu davam etdirmək üçün dərvişlə getməsini
   4. Əhmədin səbirli olmasını
6. Kişi nə üçün Əhmədi bir il yanında saxlayır? Aşağıdakı cavablardan birini seçməklə fikrinizi əsaslandırın.
   1. Əhmədin səbirli olub-olmadığını yoxlamaq istəyir.
   2. Əhmədi zəhmətsevərliyə alışdırmaq istəyir.
   3. Təsərrüfatını idarə etmək üçün ona sağlam gənc lazım idi.
7. Kişi Əhmədə aşılamaq istəyir:
   A) savadını daha da artırmasını
   B) özündə bacarıq formalaşdırmasını
   C) çevik qərar verməyi
   D) hadisələrdən düzgün nəticə çıxarmağı
   E) düşüncəli hərəkət etməyi
8. Hansı hikmətli söz mətnin məzmunu ilə səsləşir?
   - Ağıl yaşda deyil, başdadır.
   - İş ustasından qorxar.
   - Məsləhətli don gen olar.
   - Yalnız kara gələn məsləhət yaxşı məsləhət sayıla bilər. (*L.K.Vovenarq*)
9. Bir anlıq özünüzü Əhmədin yerində təsəvvür edin. Siz necə hərəkət edərdiniz? Onun suallarına və cavablarına uyğun jest və mimikalardan istifadə edin.

**10. Mətni oxuyub münasibət bildirin. Mətndəki fikirlərlə razısınızmı?**

Bədən dili üzümüz, başımız, qollarımız və bütün bədənimizlə duyğu və düşüncələrimizi göstərmək üçün etdiyimiz hərəkət və jestlərdir. İnsanları düzgün şəkildə oxumaq (düşüncə, duyğu və niyyətlərini anlamaq üçün hərəkət və jest informasiyalarını toplamaq) daima çalışmaq və doğru təhsil almaq ehtiyacı yaradan bir bacarıqdır. Baş və üz hərəkətləri, mimika və jestlər hiss etdiklərimiz haqqında çox şey söyləyə bilər. İnsanlar danışmazdan əvvəl bir-birini bədən dili vasitəsilə tanıyırlar. Məsələn, heyrətləndikdə qaşlarımızı qaldırır və ya "bəli" deyərkən başımızı tərpədirik. Bədən dilimiz ətrafı necə hiss etdiyimizi və özümüzü necə tanıtmaq istədiyimizi izah edir. İnandırmaq, sadəcə, sözlərimizlə deyil, həmin sözləri hansı hərəkətlərlə çatdırmaqla da bağlıdır.

✓ *Hər hansı bir mövzuda dialoq qurub nitqinizi bədən dili ilə müşayiət edin.*

✓ *Eyni dialoqu jest və mimikasız təkrar edin.*

✓ *Yoldaşlarınız nəyi müşahidə etdi? Hansı nitq daha canlı və təsirli oldu?*

**11. Mətni oxuyun, məzmun baxımından "Faydalı məsləhət" nağılı ilə müqayisə edin.**

✓ *Mətndə buraxılmış durğu işarələrini bərpa edin. Fikrinizi əsaslandırın.*

19-cu əsrin alim və şairlərindən biri olan Həsirçizadə Mehmet Ağa həm də çox hazırcavab bir adam idi. Bir gün dostu Fuad paşaya qonaq getmişdi. Birdən gözü paşanın barmağındakı almaz üzüyə sataşdı və diqqətlə baxmağa başladı.

Fuad paşa

Üzüyümə baxırsan deyə soruşdu.

Hə qaşı nə daşıdır Onu öyrənmək istəyirəm.

Almazdır.

Çox gözəl bəs faydası nədir

Heç nə.

Nə gəlir gətirir
Heç nə.
Ancaq mənim atamdan qalma bir cüt daşım var onunla ildə 50 qızıl qazanıram.
Nə daşıdır bu elə
Dəyirman daşı.... Mən bu daşlarla həm çörəkpulumu çıxarıram, həm də insanlara kömək edirəm...

12. Nağılda tünd şriftlə verilmiş cümlədə hansı sözü dəyişsəniz, məna düzgün olar?

13. Hər iki cümləni fərqləndirilmiş sözlər baxımından müqayisə edin. Hansı düzdür? Cavab üçün mətnə istinad edin. Cümlələrin məzmununda fərq varmı? Fikrinizi əsaslandırın.
   - Əhməd bu adamlarla *xeyli* söhbət eləyə-eləyə getdi.
   - Əhməd bu adamlarla söhbət eləyə-eləyə *xeyli* getdi.

   ✓ *"O birisi meşənin içinə gedən sərin kölgəli yol idi" cümləsini də eyni qayda ilə dəyişib müqayisə edin. Fərq yaranacaqmı? Niyə?*

14. Mətndə (səh. 66) çərçivəyə alınmış sözü güman-şübhə bildirən hansı modal sözlə əvəz etsəniz, məna dəyişməz?

15. *Əhvalat* və *qeyzlə* sözlərinin leksik mənasını müəyyənləşdirib sinonimlərini tapın.

16. Sinonimlər sırasında hansı söz artıqdır?

*fayda, səmərəli, qazanc, mənfəət, xeyir*

17. *Ağıl* sözündən istifadə etməklə frazeoloji birləşmələr düzəldin. Bu zaman müvafiq söz və şəkilçilərdən istifadə edə bilərsiniz.

| | şəkilçi | söz | feil |
|---|---|---|---|
| AĞIL | – | – | öyrətmək |
| | – | baş | gəlmək |
| | ... | – | çaşmaq |
| | ... | ... | getmək |
| | – | – | ... |

✓ *Frazeoloji birləşmələrin mənasını izah etməklə qarşılığını tapın. Bir neçəsini cümlədə mübtəda və xəbər vəzifəsində işlədin.*

18. Mətndə (səh. 65) fərqləndirilmiş cümlədə durğu işarələrini bərpa edib cümlənin sxemini qurun. Vasitəsiz nitqi vasitəli nitqə çevirib yazın.

19. Mətndə (səh. 65) altından xətt çəkilmiş cümlələrdə *ki* hissəciyindən sonra hansı halda vergül işarəsinin işlənməsi doğrudur? Fikrinizi əsaslandırın.

20. Uyğunluğu müəyyənləşdirin.

| | |
|---|---|
| 1 İnsanın əsl dəyəri | ən yaxşı müəllim təcrübədir. |
| 2 O baş ağıllıdır ki, | ayaq çəkər. |
| 3 Bu gün çıxdığın hər pillə | onun zəhməti ilə ölçülür. |
| 4 Hər hansı bir sahədə | hər şeydən mənfəət götürər. |
| 5 Ağılsız başın əziyyətini | sabahkı həyatın təməlidir. |

- *Qurduğunuz cümlələrdə:*
  - ✓ *mübtəda ilə xəbəri müəyyən edin.*
  - ✓ *cümlələrin quruluşunu fərqləndirin.*
- *Atalar sözlərindən hansı "Faydalı məsləhət" mətninin ideyası ilə səsləşə bilər?*

21. Mətndə (səh. 65) çərçivəyə alınmış hissədə aşağıdakı sxemlərə uyğun cümlələri seçib qruplaşdırın.

M: "V".  M: "V", – m.

22. Mətndən (səh. 64–66) aşağıdakı sxemlərə uyğun cümlələri seçin.



23. Hekayə yazın.

**"Faydalı məsləhət"** (***Fərqli ad seçə bilərsiniz.***)
**Hekayənin adı**

**Özünüz düşünün**
**Hekayənin ideyası**

**Məsləhət istəmək bir insanın digərinə göstərdiyi ən böyük etibardır.** (***F.Bekon***)
**Hekayənin epiqrafı**

**Hekayənin süjet xətti:**

1. Yeniyetmə gənc (*oğlan və ya qız*) çətin bir vəziyyətə düşür.
2. Məsləhət almaq üçün müəlliminə (*dostuna, atasına, anasına və s.*) müraciət edir.

**İSTİQAMƏT:**

- -*sa*² şərt şəkilçisinin köməyi ilə əmələ gələn cümlələrdən
- hadisələrin zaman və məkan uyğunluğu
- vasitəsiz nitqli cümlələr
- xitablar
- poetizmlər
- bədii üslub
- obrazların geyim tərzi
- obrazların danışıq tərzi, istifadə etdiyi sözlər

3

1. Mətni ədəbi tələffüz qaydalarına uyğun oxuyun.

## HEKAYƏT

(*ixtisarla*)

**ORFOQRAFİYA**

Hansı düzdür?

- zülümkar – zülmkar
- haman – həmən – həmin
- hamsı – hamısı
- peşiman – peşman

**ORFOEPİYA**

Nümunə əsasında davam etdirin.

- saxlayanla – [saxlıyannan]
- bağlayıb – [ ............ ]
- bulayaraq – [ ............ ]
- ağlaya-ağlaya – [ ............ ]

Qədimdə belə bir rəvayət varmış
Ki, Mərv ölkəsində bir şah yaşarmış.
Bir neçə köpəyi zəncirləyərək,
Bəndlərdə saxlardı onları divtək.
İtlərdə əjdaha qüvvəti vardı,
Dəvənin boynunu qopararlardı.

Acıqlanan zaman şah bir nəfərə,
Atarmış yazığı quduz itlərə.
Şahın qəzəbinə düşsəydi hər kəs,
Köpəklər dağıdıb yeyərdi dinməz.
Şahın yaxın olan adamlarından
Ağıllı, kamallı bir nəfər cavan



2. Şəkillə məzmun arasında uyğunsuzluq varmı?

Qorxdu ki, dostları qıran bu cəllad
Günlərin birində olsun ona yad.
İtlərdən qorxaraq min həyəcanla
O gedib dostlaşdı it saxlayanla.
İtlərin yanına gəlcək hər kərə,
Bir qoyun atardı vəhşi itlərə.
Bu yolda bəsləndi, saxlandı itlər,
**O gəncdə qalmadı qorxudan əsər.**
O açıq əllini görən hər köpək
Ona qul olmuşdu, boyun bükərək.
Bir gün acıqlandı şah o cavana,
Üzünü, gözünü turşutdu ona.
Cəllada əmr etdi haman zülümkar:
"Bu gənci bu saat itlərə apar!"
...Gəncin əl-qolunu bağlayıb haman,
İtlərə atdılar onu kənardan.
O dəmirpəncəli, o pələng itlər
Əvvəlcə cavana hücum etdilər.
Ancaq tanıyınca baxıb durdular,
Quyruq bulayaraq boyun burdular.
Hamsı yerə yatdı üzləri üstə,
Yatdılar baş qoyub dizləri üstə.
Bir gün gəlib keçdi bunun üstündən,
Üzünü göstərdi ağ səhər yenə,
*Boyandı üfüqlər qızıl rənginə.*
Şah peşiman oldu öz tutduğundan,
Yaxın nədimlərə söylədi bu an:
Dünən o günahsız ahucuğu mən
Səhv edib itlərə verdim əlimdən.
Bir baxın, görün ki, o quduz itlər
Gəncin vücudundan qoydumu əsər?"
İtləri saxlayan gəldi çaparaq,

Sizcə, itlərə baxan qayıdıb şaha nə deyəcəkdir?

Dedi ki:

Əlifbadakı hərflərin sıralanmasına əsasən itəbaxanın şaha deyəcəyi sözü müəyyənləşdirin.

21 7, 15, 5, 1, 11, 1, 29, 32, 18, 29
3, 1, 20, 1, 30, 1, 24 14, 27,
18, 7, 24.

21, 20, 28, 20 27, 29, 16, 29, 20, 7
5, 7 30, 6, 24, 19, 7, 19, 14, 26
32, 7, 24, 7, 24

Şah əmr eylədi ki: "Dayanmaq olmaz,
O əldən getmişi tez edin xilas".
İtlərin yanından yol məmurları
Gənci gətirdilər saraya sarı.
Şah heyran qaldı ki, o igid cavan
Necə can qorumuş o quduzlardan.
Ağlaya-ağlaya göz yaşı tökdü,
Ondan üzr istəyib, diz üstə çökdü.
Dedi ki: "Aç, söylə sən, ey qəhrəman,
Necə can qurtardın o quduzlardan?"
Gənc dedi: "Əvvəlcə çəkinib səndən,
Tikələr atmışdım o itlərə mən.
Etdiyim yaxşılıq getmədi hədər,
İtlər öz ağzını möhürlədilər.
...Yaxşı ki, dost yeyən deyilmiş itlər.
Dostluğu səndə yox, itdə gördüm mən,
İt bilən hörməti ayaqladın sən.
İt sənə dost olar, bir sümük atsan,
Namərd qədir bilməz, olsan da qurban".

**Nizami Gəncəvi, "Leyli və Məcnun" poemasından**

3. Mətnin bədii üslubda olduğunu təsdiq edən üç fakt göstərin.

4. Mətni nəsr şəklində danışın.

5. Mətndə işlənən atalar sözlərini seçin.

6. Mətnin ideyasını müəyyənləşdirin və ona uyğun atalar sözləri deyin.

7. Mətndə hansı suala cavab yoxdur?

- Cavan nə üçün köpəksaxlayanla dostlaşır?
- Padşahın nə üçün cavana qəzəbi tutur?
- İtlərin cavana toxunmaması xəbərini ona kim çatdırır?
- İtlərin ona toxunmamasını cavan necə izah edir?

8. Aşağıdakı sxem əsasında bənzəyən və bənzədilənləri qruplaşdırın.

| Bənzədilən | Bənzəyən |
|---|---|
| 1. köpək | 1. div |
| 2. it | 2. .......... |
| 3. .......... | 3. .......... |

✓ *Sizcə, şair bu üsuldan niyə istifadə etmişdir?*

9. Mətnə əsasən demək olar:

A) Gənc uzaqgörəndir.
B) Şah rəhmdildir.
C) Şah zalımdır.
D) Mətndə 4 obraz var.
E) Mətn təsviri xarakterlidir.

10. “Hekayət”i janr baxımından “Faydalı məsləhət” əsəri ilə müqayisə edin, oxşar və fərqli cəhətləri göstərin.

| | Hekayət | Faydalı məsləhət |
|---|---|---|
| Fərqli cəhətlər | | |
| Oxşar cəhətlər | | |

✓ *Məzmun baxımından bu əsərlər arasında oxşarlıq varmı? Niyə belə hesab edirsiniz?*

11. Mətndə təbliğ olunan əsas fikir yaxşılıq etməkdir.

Mətndə təbliğ olunan əsas fikir ünsiyyət qura bilmək bacarığıdır.

12. Mətnin üslubunu müəyyənləşdirin və onu "Hekayət"in üslubu ilə müqayisə edin.

İnsanlar arasında ünsiyyətin reallaşmasının ən mühüm vasitəsi dildir. Dil vasitəsilə həyata keçirilən ünsiyyət sözlü (verbal) ünsiyyət adlanır.

Dil insanlar arasında ən mühüm ünsiyyət vasitəsi olsa da, yeganə ünsiyyət vasitəsi deyildir. Nitq vasitəsilə gerçəkləşən ünsiyyət mülahizə, sual, cavab, replika və s. kimi vasitələrlə həyata keçirilir. Bununla belə, ünsiyyətin qeyri-verbal vasitələri də mövcuddur. Bunların içərisində təbəssüm, mimika, əl və bədənin ifadəli hərəkətləri, vokal mimika və s. mühüm yer tutur. Bu vasitələr həm ayrılıqda, həm də verbal ünsiyyətlə birgə ünsiyyət prosesində iştirak edir. Ünsiyyətin belə vasitələri ekspressiv-mimik vasitələr adlanır.

Ünsiyyət prosesində əşyəvi-hərəki vasitələrin də özünəməxsus yeri vardır. Onların sırasına aşağıdakılar daxildir:

a) lokomotor və əşyəvi hərəkətlər, poza

b) başqasına yaxınlaşma, uzaqlaşma, cəlbetmə və ya özündən kənaretmə, itələmə

c) etiraz

Hər bir baxış və ya təbəssüm öz-özlüyündə deyil, ancaq kommunikativ funksiya daşıdıqda ünsiyyət vasitəsinə çevrilir.

Bəs ünsiyyət nədir?

Uzun illər alimlər bu anlayışın dəqiq elmi tərifini axtarmışlar. 1969-cu ilədək çap olunmuş ingilisdilli psixoloji ədəbiyyatlarda bu anlayışın 96 tərifi vardır.

Ünsiyyətə verilmiş aşağıdakı izah hazırda əsas tərif kimi qəbul edilmişdir:

İki və daha çox adamın öz münasibətlərini aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədilə səylərini əlaqələndirməyə yönəldilmiş qarşılıqlı təsir prosesi ünsiyyət adlanır.

*"Ünsiyyətin psixologiyası"ndan*

Siz bu suallara necə cavab verərdiniz?

- ✓ *İnsanlar nəyin naminə bir-biri ilə ünsiyyət qururlar?*
- ✓ *Ünsiyyətin motivləri nədən ibarətdir?*

13. Mətndə (səh. 73) tünd şriftlə verilmiş cümlədə *əsər* sözü hansı mənada işlənmişdir? Həmin sözü cümlədə fərqli mənada işlədin. *Əsər* sözü mətndə iki yerdə işlənmişdir. Həmin misraları oxuyun. Sizcə, onlar eyni leksik məna daşıyırmı?

14. *Boyandı üfüqlər qızıl rənginə* cümləsində *qızıl* sözü hansı mənada işlənmişdir?

15. *O açıq əllini görən hər köpək* cümləsində (səh. 73) *açıq əlli* sözünü mənanı dəyişməmək şərtilə hansı sözlə əvəz etmək olar?

16. *Şah heyran qaldı ki, o igid cavan* misrasındakı *igid* sözü *tədbirli, uzaqgörən*, yoxsa *qəhrəman* mənasında işlənmişdir? Niyə?

17. Sxemi tamamlayın:




18. Mətnin ilk cümləsində (səh. 72) *qədimdə* sözünü *keçmişdə* sözü ilə əvəz etsək, məzmunda dəyişiklik baş verərmi?

19. *Səhərin açılması* ifadəsi mətndə necə təqdim olunur? Sizcə, şair niyə bu üsuldan istifadə etmişdir?

20. *Tövsiyə, məsləhət, nəsihət* sözlərini sinonim saymaq olarmı? Verilmiş nümunələrdən istifadə etməklə fikrinizi əsaslandırın.

- Başqalarının yanında verilən nəsihət məzəmmətdir. (*A.Kapus*)
- Çoxları məsləhət alır, ancaq ağıllılar ondan faydalana bilir. (*S.Publili*)
- Ağıllı tövsiyəyə qulaq asmaq heç zaman gec deyil. (*S.Conson*)

✓ *Dərs sözü nəsihət sözünü əvəz edə bilərmi?*

21. *Ünsiyyət, əlaqə, münasibət* sözləri sinonim hesab edilir. Sizcə, onlar həmişə bir-birini əvəz edə bilirmi? Cümlədə işlətməklə fikirlərinizi şərh edin.

22. *İtlərin yanına gələcək hər kərə* misrasında *kərə* sözünü aşağıdakı sözlərdən hansı ilə əvəz etsək, məzmun dəyişməz?

- dəfə
- heç
- dənə

23. Mətndə altından xətt çəkilmiş cümlədə qrammatik normanın hansı tələbi pozulmuşdur?

24. Mətndə göy rəngdə verilmiş cümlənin sxemini seçib fikrinizi əsaslandırın.

1) M: "V?"        2) "V": M.

25. *Dedi ki: Aç, söylə sən, ey qəhrəman* cümləsində *ey* nidasından sonra niyə vergül işarəsi qoyulmamışdır? *Ey* sözünü cümlədə elə işlədin ki, ondan sonra vergül işarəsi qoyulsun.

26. Mətndə təzad varmı? Əgər varsa, onları hansı hadisələrin və ya anlayışların təqdimində görürsünüz?

27. Xitabları yadınıza salın. Onlarda durğu işarələrinin işlənmə qaydasını izah edin. "Hekayət" mətnində xitab varmı?

**Bədii əsərlərdə xitablardan geniş istifadə olunur. Xitablar 3 cür olur:**

a) insana müraciətlə işlədilənlər; b) başqa canlı varlıqlara (heyvanlara, quşlara) müraciətlə işlədilənlər; c) cansız varlıqlara müraciətlə işlədilənlər.

**Bədii ədəbiyyatda xitablardan yalnız müraciət deyil, surətin müəyyən hiss-həyəcanının, əhvali-ruhiyyəsinin və ya müəllifin daxili duyğularının ifadə vasitəsi kimi də istifadə edilir.**

**Xitablar bədii əsərlərdə dialoqlarda, vasitəsiz nitqdə, müəllif nitqində işlənir.**

- – Söylə, oğlum, söylə, mənim *körpə pələngim*, düşmən atları Kür çayından içə bildimi? (*H.Mehdi*)
- Qoy mənim sazım sənə əbədi yadigar olsun, *Xançoban*! (*S.Rəhimov*)
- *Ey ağ günümün aynası, candan əziz oğlum*. (*S.Rüstəm*)

28. Aşağıdakı cümlələr içərisindən bədii xitabları seçib yazın.

1. Düz deməsəm, onda məni bağışlayın, Üz tutaram uşaqlara, qocalara, cavanlara, Sağlığında qiymət verin insanlara. (*C.Novruz*) 2. Bir arzum var, ay adamlar, qoyun deyim, Sağlığında qiymət verin insanlara. (*C.Novruz*) 3. Ey yanağı lalə kimi al gözəl, Siyah zülfün zənəxdanə yaraşmış. (*M.P.Vaqif*) 4. Ötünüz, ey xoşavazlı, qəlbə zövq verən quşlar! (*S.S.Axundov*)

**4**

1. Sizcə, mətndə nədən danışılacaq?
2. Nə üçün *çempion* sözü dırnaq işarəsi içərisində verilmişdir?

## ÇEMPİON



Şəklə diqqət yetirin.

- Simalardakı sevincli təbəssüm hansı reallığı əks etdirir?
- Prezidentin simasındakı kövrək təbəssüm nəyin bariz nümunəsidir?

3. Mətnin dili üzərində iş aparın:
   - Mətnin dilində yol verilmiş üslubi xətaları müəyyənləşdirin.
   - Qüsurlu cümlələri seçib düzgün yazın. Lazımsız təkrarları çıxarın. Mətni aid olduğu üslubun xüsusiyyətlərinə uyğun yenidən işləyin.
   - Mətndə işlədilmiş vergül işarələrinin düzgün qoyulub-qoyulmadığını araşdırın.

Nə qəzetlər, nə də televiziyalar o qədər maraq göstərməmişdilər. Tribunalar da ağzına qədər dolmamışdı. Ancaq "Əlillər Olimpiadası"nda hər gün qəribə hadisələr baş verirdi. *Əslində buna qəribə hadisədən çox "həyat dərsi" demək daha doğru olardı.* Çünki, əlil idmançılar arasında bu birliyi başqa bir yerdə görmək, demək olar ki, qeyri-mümkün idi...

*Həyat dərsi dedikdə nə başa düşürsünüz?*

Növbədə 400 metr məsafəyə əlil arabası yarışı var idi. Start verilən kimi 8 idmançı böyük bir əzmlə irəli atıldı. Tribunadakılar etiraf etməsələr də, əlillərin bu mübarizəsinə ürək ağrısı ilə baxırdılar. Bəlkə də, elə bu ürək ağrısını azaltmaq üçün onları belə ürəkdən alqışlayırdılar.

İki yüz metr başa çatanda idmançılar iki qrupa bölünmüşdülər. Tamaşaçılar isə, sadəcə olaraq, alqışlayır, adi yarışlarda olduğu kimi idmançıları həvəsləndirmirdilər. Onsuz da, idmançılar kifayət qədər çətin yarışırdılar.

İkinci yüz metr başa çatanda idmançılardan üçü irəli çıxmışdılar. Görünür, "son yarışın sonuna yüz metr qalmış üçüncü idmançı da "oyundan çıxdı". İndi yarış zolağında ancaq iki idmançı qalmışdı. Hər iki idmançı sanki bir-birinə nəzarət edir, yan-yana, hətta təkər-təkərə irəliləyirdilər. İdmançılardan biri arıq və çəlimsiz, o biri isə kök və cüssəli idi...

Finiş xəttinə son metrlər qalmış arıq idmançı tək qaldığını hiss etdi. **Rəqibinin ondan nə qədər geridə olduğunu görmək üçün çevrilib arxaya baxanda yerində donub qaldı.** Kök idmançı yarış zolağından kənara çıxmış, hələ bu azmış kimi, arabası da aşmışdı. Hamı arıq idmançının finiş xəttini keçib yarışa "nöqtə qoyacağını" gözləyirdi. Ancaq idman tarixində görünməmiş bir hadisə baş verdi. Çempionluğuna bir neçə metr qalan arıq idmançı arabasını saxlayıb geri qayıtdı və rəqibini ayağa qaldırıb arxadan itələməyə başladı. Hara qədər? Əlbəttə ki, finiş xəttini keçənə qədər...

Çempionluqdan əlini üzmüş bir rəqib qarşıda, çempionluğuna bir neçə metr qalmış bir rəqib arxada göz yaşları ilə finiş xəttini keçdilər. Tribunadakı tamaşaçılar hamı bir nəfər kimi ayağa qalxıb bəşər tarixinin, bəlkə də, ilk "məğlub olan çempionunu" alqışlayırdılar...

**"Ailəm" jurnalı, 2009-cu il**







4. Şəkilləri müqayisə edin. Hansı nəticəyə gəldiniz?

5. Mətni oxuyub məzmununu “Çempion” mətninin məzmunu ilə müqayisə edin. Hansı nəticəyə gəldiniz? Fikirlərinizi əsaslandırın.



## BİR SALXIM ÜZÜM

Biçin vaxtı idi. Əkinçi ailəsi bir tərəfdən zəmidəki sünbülləri biçir, bir tərəfdən də, dərz bağlayıb arabalara yükləyirdi. Bu vaxt ana kiçik bir ağacın budaqları arasında bir salxım üzüm gördü və “Bu qızmar istidə bir salxım üzüm nə yaxşı olar”, – deyib salxımı qopardı. Elə yemək istəyirdi ki, gözü bir az irəlidə dərzləri arabaya yükləyən ataya sataşdı. “Onun bu üzümə məndən daha çox ehtiyacı var. Səhərdən bəri ən çox işləyən odur”, – deyərək üzüm salxımını ona verdi. Ata bu gözlənilməz “hədiyyə”dən çox sevindi. Elə üzümü yemək istəyirdi ki, gözü buğdaları yığan qızına sataşdı və öz-özünə dedi: “Qızım nə qədər də yorğundur. Yaxşısı budur, bu üzümü ona verim”. Qız atasının verdiyi üzümü sevinclə aldı. Elə yemək istəyirdi ki, dərzləri arabanın üstünə yükləyən qardaşını gördü. “Qardaşım günəşin altında neçə saatdır, işləyir. Dili-dodağı quruyub. Yaxşısı budur, mən bu üzümü ona verim”, – dedi. Oğlan bacısının uzatdığı salxımı sevinclə aldı. Yemək istəyirdi ki, o da arxın kənarında başaqları yığan anasını gördü. “Anam nə qədər də yorulub. Yaxşısı budur, mən bu üzümü ona verim”, – dedi. Ana üzümü görəndə əvvəlcə gülümsədi, sonra da .......

*“Ailəm” jurnalından*

✓ *Mətni öz təxəyyülünüzə əsasən tamamlayın.*

6. Aşağıdakı hikmətli sözlərdən hansılar mətnlərin ideyasına uyğundur?

1. Bir olsa yoldaşın, dostun əməli
   Daşdan su çıxarar onların əli. (*N.Gəncəvi*)
2. Həqiqi dostluq mənəvi fədakarlıqdır. (*T.Əhmədov*)
3. Nifaq olan yerdə fəlakət də var,
   Səadət günəşi birlikdən doğar. (*N.Gəncəvi*)
4. Adəm oğlu bütün insanları özü qədər sevməlidir. (*M.Qandi*)

7. Mətndə (səh. 78–79) danışılır:

A) İdman yarışlarının maraqsız keçməsindən
B) İdmançıların bir-birlərinə kömək etməsindən
C) İnsanın mənəvi aləminin ucalığından
D) Tamaşaçıların əlil idmançıları həvəsləndirməsindən
E) Əlillərə diqqət və qayğının vacibliyindən

8. Fikirlərdən hansı düzdür?

1. Kök və cüssəli idmançı yarışı qəsdən uduzur.
2. Arıq, çəlimsiz idmançı rəqibinə kömək üçün geri dönür.
3. Tamaşaçılar həvəssiz olsa da, idmançıları alqışlayırdılar.
4. Tamaşaçılar idmançıları yarışa həvəsləndirmirdilər.
5. Finiş xəttinə 200 metr qalmış kök idmançı yıxıldı.

9. Sizcə, yarışın qalibi kim olacaq? Münsiflər heyəti birinciliyi kimə verəcək? Əgər həmin heyətin tərkibində olsa idiniz, qərarınız necə olardı? Kimi qalib hesab edərdiniz?

10. *Çünki əlil idmançılar arasında olan bu birliyi başqa bir yerdə görmək, demək olar ki, qeyri-mümkün idi* cümləsində ifadə olunan fikrə münasibət bildirin. Bu hökmlə razısınızmı? Ətrafınızda baş verən hadisələrdən nümunə gətirməklə bu fikrin əksini sübut edin.

11. Öyrəndiyiniz mətnlərdə bir-birinə kömək, arxa olan insanları, obrazları xatırlayın. Mətnlər əsasında *İnsan insanın dostu, yoldaşı, qardaşıdır* fikrini təsdiq edin.

12. "Bir salxım üzüm" mətninə əsasən *Ailə kiçik cəmiyyətdir*. *Mənəvi dəyərlərin təməli ailədə qoyulur* qənaətinə gəlmək olarmı?

13. "Övladımın müəllriminə məktub", "Üzeyirin mənəvi qardaşı","Gün var…", "İşığı oğurlanmış ulduz", "Təbəssüm" , "Faydalı məsləhət" və "Çempion" mətnlərində həyati dərs olan fikirləri seşin və ümumiləşdirin. Bu ümumiləşmə sizə nə verdi?

14. “Çempion” mətnində frazeoloji birləşmələri seçib onların mənalarını izah edin.

15. Aşağıdakı sxemlərdə hansı uyğunluq səhv göstərilmişdir?

| | |
|---|---|
| **əzmlə** → iradə | **alqışlayır** → əl çalır |
| **ancaq** → yalnız | **əzmlə** → cəsarətlə |

16. *Çıxmaq* feilini aşağıdakı mənalarda cümlədə işlədin.

- bir yerdən çıxmaq
- uzaqlaşmaq
- yola düşmək
- görünmək
- yuxarı qalxmaq
- bitmək
- cücərmək
- işini tərk etmək
- bir ədədi azaltmaq
- çap olunmaq
- sona çatmaq
- eşidilmək

✓ *Bu sözlərdən hansı biri termin kimi işlənəcək?*

17. *Kök* sözünün omonimliyini və çoxmənalılığını əsaslandırın.

**Kök**

→ omonimliyi →
1.
2.
3.

→ çoxmənalılığı →
1.
2.
3.

18. Mətndə (səh. 78) fərqləndirilmiş cümlədə vergül işarəsi hansı sözdən sonra qoyulmalıdır? *Həyat dərsi* ifadəsinin dırnaq işarəsi içərisində verilməsinin səbəbini izah edin.

19. Mətndə (səh. 78) göy rəngdə verilmiş cümlədə hansı sözdən sonra vergül işarəsi səhv qoyulmuşdur? Fikirlərinizi əsaslandırın.

20. Mətnin (səh. 79) son cümləsində *bəlkə də* sözünün hər iki tərəfindən vergül işarəsi qoyulmasının səbəbini izah edin.

21. Mətndə (səh. 79) altından xətt çəkilmiş cümlələrdə hansı normanın tələbi pozulmuşdur? Bunu nə ilə sübut edərsiniz?

22. Mətndə (səh. 79) tünd şriftlə verilmiş cümlənin təhlili hansı sxemə uyğundur?

A)
B)
C)
D)
E)



23. İstənilən qəzet və ya jurnaldan ixtiyari bir mətn seçin. Mətnin dili üzərində iş aparın. Bunun üçün aşağıdakı ardıcıllığa riayət edin:

- Mətnin yazı formasını (bədii, elmi və s.) müəyyənləşdirin.
- Mətndə orfoqrafik səhvləri tapın.
- Mətndə durğu işarələri və sözün sətirdən sətrə keçirilmə səhvlərini (əgər varsa) müəyyənləşdirin.
- Cümlələrdə təkrar işlənən söz və ifadələri (əgər varsa) seçin.
- Yerində düzgün işlədilməyən söz və ifadələri daha düzgün olanlarla əvəz edin.
- Mətnin oxunaqlılığına ağırlıq gətirən söz və ifadələri seçib uyğun bildiyiniz sözlərlə əvəz edin.
- Mübtəda ilə xəbərin uzlaşmasına, söz sırasına, sözlərin düzgün əlaqələnməsinə diqqət yetirin.

24. Paralimpiya oyunları haqqında ətraflı məlumat toplayın. Bir neçə cümləsi verilmiş mətni davam etdirin. Azərbaycan paralimpiyaçıları ilə bağlı məlumat toplayın və əldə etdiyiniz informasiyanı mətnə əlavə edin. Görüntülü təqdimat da hazırlaya bilərsiniz.

Paralimpiya sağlamlıq imkanları məhdud şəxslərin beynəlxalq idman yarışlarıdır. Paralimpiya hərəkatının tarixi 1948-ci ildən başlanır. Oyunların keçirilməsinin təşəbbüskarı Böyük Britaniyanın Elsberri şəhərindəki Stok Mandevil xəstəxanasının neyrocərrahı Lüdviq Qutmandır.

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsi 1996-cı il fevral ayının 9-da yaradılmışdır.

Azərbaycan Milli Paralimpiya Komitəsi ilk dəfə 1996-cı ildə Atlantada keçirilən X Yay Paralimpiya Oyunlarında cəmi iki idman növü üzrə iki idmançı ilə iştirak etmişdir.

5

Dünya tarixində ən böyük hünər və qəhrəmanlıqlar vətən naminə edilib.

**J.J.Russo**

# SALUR QAZANIN EVİNİN YAĞMALANDIĞI BOY

(*ixtisarla*)




**ORFOQRAFİYA**

- Mətndə mötərizədə verilmiş sözlərin hansı yazılış variantı düzgündür?

**ORFOEPİYA**

Hansı düzdür?

- [igidnən] – [igitnən]
- [qiymətli] – [qiymətdi]
- [qurtların] – [qurtdarın]
- [dərisindən] – [dərisinnən]
- [na:mərtlər] – [na:mərtdər]

Bir gün Amit soyunun aslanı, Qonur atın yiyəsi, Uruz xanın ağası, Bayındır xanın kürəkəni, Qalın Oğuzun dayağı, igidlərin arxası Ulaş oğlu Salur Qazan yerindən durmuşdu. Doxsan otaqlı uca evlərini qara yer üzərində tikdirmişdi. Doxsan yerdə böyük ipək xalı döşətdirmişdi

O, qaba dizləri üstünə çökdü, dedi: *Sözümü dinləyin səsimə səs verin, bəylər Yata-yata yanımız ağrıdı Dura-dura belimiz qurudu Duraq gedək a bəylər Ov ovlayaq quş quşlayaq sığın-keyik yıxaq qayıdıb otağımıza düşək yeyib-içək günümüzü xoş keçirək Oğlum Uruz üç yüz igidlə evimin keşiyində dursun*

Salur Qazan Qonur atını çəkdirdi, mindi. Qalın Oğuz bəyləri atlandılar. Böyük qoşun Ala dağa ova çıxdı.

Kafirlərin (*casusu, cəsusu*) bunu gördü. Çuğul gedib, Şöklü Məliyə xəbər verdi. Yeddi min kafir mindi çapdı, gecə yarısı Qazan bəyin yurduna gəldi. Kafirlər onun qızıl tağlı evlərini çalıb-çapdılar, qız-gəlinini əsir aldılar. Tövlə-tövlə (*şahanə, heybətli*) atlarını mindilər, qatar-qatar qızılı dəvələrini yedəkləyib apardılar. Qiymətli xəzinəsini talan etdilər. **Qırx incə belli qız ilə Boyu uzun Burla xatun əsir getdi**. Qazan xanın oğlu Uruz bəy üç yüz igidlə əli bağlı, boynu bağlı getdi.

Gecə yatarkən Qaraca çoban yuxuda qara qayğılı əhvalat gördü.

*Təxəyyülünüzə əsasən Qaraca Çobanın yuxuda nə gördüyünü təxmin edin.*

Hövlnak ayağa durdu. Qabangücü və Dəmirgücü adlı iki qardaşını yanına çağırdı. Ağılın qapısını bərkitdi. Üç yerdə təpə kimi daş yığdı, ala qollu sapandını əlinə aldı.

*Sizcə, bundan sonra nə baş verəcək?*

Qazanın bu işlərdən xəbəri yox idi.

...O gecə Salur Qazan yuxuda qarma-qarışıq əhvalat gördü, hövlnak ayağa durdu. Dedi: "Qardaşım Qaragünə, bilirsənmi, yuxumda nə gördüm? Qara-qayğılı əhvalatlar gördüm. Gördüm ki, yumruğumda bir şahin çırpınıb quşumu əlimdən alır. Hündür evimin üzərinə göydən ildırım çaxdığını gördüm. Qatı, qara dumanın düşərgəmin üstünü bürüdüyünü gördüm. Quduz qurdların evimi dəldiyini gördüm. Gördüm ki, qara saçım qarğı kimi uzanır, uzandıqca gözümü örtür. Əllərimdə on barmağımı qan içində gördüm. Xan qardaşım, mənim bu yuxumu yoz mənimçin!".

Qardaşı deyir: "Qara bulud dediyin sənin taleyindir. Qar ilə yağmur dediyin sənin qoşunundur. Saç qayğıdır, dərdi-sərdir. Qan qanqaralıqdır. Qalanın yoza bilmərəm".

*...Qazan bəy Qonur atını mahmızladı, yola çıxdı. Gəlib-gəlib yurduna çatdı.* Gördü ki, yurdunda bir tazı qalıb, quzğun dolaşır. Yurduna dedi:

Qohum-qəbiləli komam-yurdum!
Qulanla sığına-keyikə qonşu yurdum!
Səni düşmən haradan talayıb, gözəl yurdum!
Bəylərin at çapdırdığı meydan qalmış.
Qara mətbəxin yerində ocaq qalmış...

...Qazanın qara qıyıq gözləri qan-yaş doldu. Qanı damarlarında qaynadı. Qara bağrı sarsıldı. Qonur atını dizləri ilə vurub, kafirin keçdiyi yola düşdü, getdi. Qazanın qarşısına bir su çıxdı. Qazan dedi: "Su, Allahın üzünü görmüşdür. Mən bu su ilə xəbərləşim!"

Görək, xanım, necə xəbərləşdi. Qazan deyir:

Çağlayaraq qayalardan çıxan su!
Ağac gəmiləri atıb-tutan su!
Bağ ilə bostanın zinəti su!
Şahanə atların içdiyi su!
Qızıl dəvələrin gəlib keçdiyi su!
Çevrəsində ağ qoyunların yatdığı su!
Yurdumdan bir xəbər bilirsənsə, de mənə!
Dərdli başım qurban olsun, suyum, sənə!

...Qaraca Çoban yurdunun kafirlər tərəfindən talan olunduğunu ona deyir.

...Qaraca Çobandan yurdunun talan olduğunu eşidən Qazan xan qəhərləndi. Yola düzəlib götürüldü.

...Ardınca Qalın Oğuz bəyləri gəlib yetişdi. Görək kimlər gəldi:

Acığı tutanda qara daşı kül eyləyən, bığını boynu dalında yeddi dəfə düyünləyən, igidlər igidi, Qazan bəyin qardaşı Qaragünə çaparaq yetişdi: "Çal qılıncını, qardaşım Qazan, yetdim!" – dedi.

Bunun ardınca, görək, kimlər yetişdi:

Dəmir qapı Dərbənddəki dəmir qapını (*hücumla, hucumla*) alan, altmış tutamlıq böyük nizəsinin ucunda igidləri böyürdən Qıyan Səlcik oğlu Dəli Dondaz çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, yetdim!" – dedi.

Bunun ardınca, xanım, görək, kimlər yetişdi:

Amidlə Mərdin qalasını vurub-yıxan, Dəmir yaylı Qıpçaq Məlikə qan qusduran, Oğuzun ağ saqqallı qocaları görəndə o igidə "əhsən" deyən, al məxmər şalvarlı, atı mavi qotazlı Qaragünə oğlu Qarabudaq çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, yetdim!" – dedi.

İcazəsiz Bayındır xanın düşmənini basan, (*altmış, altımış*) min kafirə qan qusduran, ağ-boz atının yalı üzərində qar yığılan Qəflət qoca oğlu Şir Şəmsəddin çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Bunun ardınca, görək, xanım, kimlər yetişdi:

Parasarın Bayburd hasarından sıçrayıb aşan Qalın Oğuzun müjdəçisi, Qazan bəyin silahdaşı, Boz ayğırlı Beyrək çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, çatdım!" – dedi.

Bunun ardınca, görək, xanım, kimlər yetişdi:

Altmış təkə dərisindən olan kürkü topuqlarını örtməyən, altı erkək dərisindən papağı qulağını örtməyən Qazan bəyin dayısı At ağızlı Aruz Qoca çaparaq yetişdi: "Çal qılıncını, bəyim Qazan, çatdım!" – dedi.

Sayılmaqla oğuz bəyləri tükənməz. Hamı yetişdi. Sakitcə kafirin üstünə at saldılar, qılınc çaldılar. Gumbur-gumbur nağaralar döyüldü. Burması qızıl tunc borular çalındı. O gün cəsur ər igidlər bəlli oldu. O gün namərdlər gizlənməyə yer axtardı.

Qazan bəyin qardaşı kafirin bayrağını qılınclayıb yerə saldı.

**"Kitabi-Dədə Qorqud"dan**

1. Şəkil əsasında mətn tərtib edib dastanın uyğun hissəsinə əlavə edin. Hazırladığınız mətni niyə məhz həmin hissəyə əlavə etdiyinizi əsaslandırın.



✓ *Mətnə və şəklə əsasən oğuzların məşğuliyyətini müəyyən edin.*

✓ *"Övladımın müəlliminə məktub" mətnində ananın hansı tövsiyəsi Salur Qazanların yetişməsi üçün vacib amil hesab edilə bilər?*

## DASTANIN ƏSKİ VARİANTI

Bir gün Ulaş oğlı, Tulu quşun yavrısı, bizə miskin umudı, Amit soyının aslanı, Qaracuğın qaplanı, qonur atın yiyəsi, xan Uruzun ağası, Bayındır xanın güyəgisi, Qalın Oğuzun dövləti, qalmış yigit arxası Salur Qazan yerindən durmışdı. Toqsan başlu ban evlərin qara yerin üzərinə dikdirmişdi. Toqsan yerdə ala qalı-ipək döşəmişdi. Səksən yerdə badyalar qurılmışdı. Altun ayaq sürahilər düzilmişdi. Doquz qara gözlü, xubyüzlü, saçı ardına örilü, köksi qızıl dügməli, əlləri biləgindən qınalı, barmaqları nigarlı məhbub kafir qızları Qalın Oğuz bəglərinə sağraq sürüb içərlərdi.

İçüb-içüb Ulaş oğlı Salur Qazanın alnına şərabın itisi çıqdı. Qaba dizi üzərinə çökdi, ayıtdı: "Ünüm aslan bəglər, sözüm dislən bəglər! Yata-yata yanımız ağrıdı, dura-dura belimiz qurıdı; yüriyəlim, a bəglər, av avlayalım, quş quşlayalım, sığın-keyik yıqalım, qayıdalım otağımıza düşəlim, yeyəlim-içəlim, xoş keçəlim!

Üc yüz yügidlən oğlum Uruz mənim evim üstinə dersun!" – dedi.

2. Dastanın əski (köhnə) variantı ilə sadələşdirilmiş mətnini tutuşdurun. Hansı çətinliklə qarşılaşdınız? Əski variant XI–XII əsrin dili haqqında sizdə hansı fikirlər formalaşdırdı? Mətndən ixtiyari abzası seçib sadələşdirin. Aşağıdakı cədvəldən istifadə edin. Sonra hər üç variantı tutuşdurun.

| Dastanın əski variantı | Sadələşdirilmiş variant | Sizin variantınız |
|---|---|---|
| Xanlar xanı xan Bayındır yildə bir kərrə toy edib Oğuz bəglərin qonaqlardı. | Xanlar xanı Bayındır xan ildə bir dəfə şadlıq edib Oğuz bəylərini qonaq edərdi. | Bayındır xan ildə bir dəfə Oğuz bəylərini qonaq çağırıb şənlik məclisi qurardı. |
| ____________ | ____________ | ____________ |
| ____________ | ____________ | ____________ |
| ____________ | ____________ | ____________ |
| ____________ | ____________ | ____________ |
| ____________ | ____________ | ____________ |
| ____________ | ____________ | ____________ |
| ____________ | ____________ | ____________ |

3. Mətnin üslubunu müəyyənləşdirin. Seçiminizi əsaslandırın.

4. Mətnin dili üçün aşağıdakı xüsusiyyətlərdən hansı səciyyəvidir?
   - aydın – şifrəli
   - sadəlik – mürəkkəblik
   - konkretlilik – faktikilik

5. Mətnin tipi:

   A) nəqlidir. B) təsviridir. C) həm nəqlidir, həm təsviridir.

6. Qazan xanın yuxusunu kim yozur?

   A) Qaragünə B) Alp Aruz C) Bamsı Beyrək
   D) Şir Şəmsəddin E) Dədə Qorqud

7. Mətndə hansı cümlə Qaragünənin Salur Qazanın qardaşı olduğunu təsdiq edir? Dastanda Salur Qazan necə təqdim olunur?

8. Fikirlərdən hansı düzgündür?

   A) Qazan xan yurdunun talan olduğunu ovda olarkən bilir.
   B) Oğuz igidlərinin birliyi onların qələbəsini təmin edir.
   C) Qaraca Çoban Qazan xanın yuxusunu yozur.
   D) Qazan xan yurdunu üç yüz igidə tapşırır.
   E) Aruz kafirin bayrağını qılınclayır.

9. Mətndən xalqımızın tarixi ilə bağlı hansı faktları toplaya bildiniz?

10. Oğuz igidləri mətndə necə və nə üçün məhz belə təsvir olunur? Həmin təsvirlərə əsasən onların qəhrəmanlığı barədə danışın.

11. *Vətən sizin üçün nədir?* sualına necə cavab verərdiniz?

12. Mətnin məzmununu 2-3 cümlə ilə yığcam şəkildə ifadə edin.

13. 90-cı illərin hadisələri barədə məlumat toplayın. Həmin hadisələri mətndə təsvir olunan hadisələrlə müqayisə edin.

14. Sizcə, Oğuz igidlərini birləşdirən Salur Qazanın ailəsini, yoxsa Oğuz elinin talan olunmuş sərvətini xilas etmək istəyi idi?

15. Mətnə əsasən *Xalqımızın gücü onun birliyindədir* fikrini sübuta yetirin.

16. Birlik dedikdə nə başa düşürsünüz? Mətnin hansı cümlələri Oğuz igidlərinin birliyini sübuta yetirir? *Şövkət Məmmədovanın uğurunu təmin edən onun ətrafındakı mütərəqqi insanların olması idi* faktı bu fikri təsdiqləyə bilərmi?

17. “Dədə Qorqud” filmindən mətnin məzmununu əks etdirən hissəyə baxın. Filmlə mətnin məzmununu müqayisə edin.

18. Mətnin ilk abzasında işlənən *soy* sözünün leksik mənası aşağıdakılardan hansıdır?

- Şəxs adından başqa verilən ad
- Bir kökdən olan adamlardan hər biri
- Mənşə, əcdad
- Nəyin isə üst qabığını çıxarmaq

✓ ***Ağılın qapısı*** *və* ***Ləmanın ağlı*** *birləşmələrindəki* ***ağıl*** *sözünü məna və yazılış baxımından müqayisə edin.*

19. Altından xətt çəkilmiş cümlədə *qaba* sözü hansı mənada işlənmişdir?

20. Mətndə *atlandılar* sözünün hansı mənası işlənmişdir?

1. Ata minmək
2. Tullanmaq, hoppanmaq
3. Döyünmək, çırpınmaq

✓ ***Döyünmək*** *sözünü cümlədə işlədin.*

21. Məntiqi ardıcıllığı tamamlayın.




22. *Qatı* sözünü cümlədə elə işlədin ki:

- *şiddətli, güclü* mənasında;
- *amansız, qəddar* mənasında;
- *sıx* mənasında olsun.

23. Mətndə (səh. 84) birinci cümlədə hansı sözlər bir-birinin sinonimidir?

24. *Həmrəylik* və *birlik* sözləri eyni anlama gəlirmi? Həmin sözləri cümlədə işlətməklə fikrinizi əsaslandırın.

25. Təxəyyülünüzə əsasən *yağma* sözünün sinonimlər cərgəsini müəyyənləşdirin.

yağma → talan → ? → ?

26. Mətnin dilində müasir ədəbi dilimizlə bağlı hansı fərqləri görürsünüz? Bir neçə cümlə seçib onları müasir ədəbi dilimizin cümlə quruluşu ilə müqayisə edin.

27. Mətndə bədii xitabları seçin və işlənməsinə diqqət yetirin.

28. Mətndə (səh. 85) tünd şriftlə verilmiş cümlədə hansı norma pozulmuşdur?

29. Mətndə çərçivəyə alınmış hissəni (səh. 86) bir cümlə ilə ifadə etmək mümkündürmü? Niyə?

30. Mətndə (səh. 85) fərqləndirilmiş cümlələri bir cümlə şəklində yazın.

31. Mətndə çərçivədə verilmiş vasitəsiz nitqli cümlələrin birinin sxemini qurun. Sizcə, digər cümlələr də sxemə uyğun olacaqmı? Niyə belə hesab edirsiniz?

32. Mətndə (səh. 84) fərqləndirilmiş abzasda durğu işarələrini bərpa edin.

33. Mətnin ilk abzasında sözlərin böyük hərflə yazılmasının səbəbini izah edin.

34. Mətndə bir neçə abzasın əvvəlində üç nöqtə işarəsi qoyulmuşdur. Sizcə, nə üçün?

35. Cümləni tamamlayıb mətn tərtib edin. Mətnə ad verin.

1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ……………… dünya …………………… yaratmağın əhəmiyyətini …………………… dekabrın ……………………………… .

# REFERAT

Referatın uğurlu olmasını istəyirsinizsə, ardıcıllığa riayət edin. Referatda 3 əsas hissə var:

- nədən bəhs edəcəyinizi diqqətə çatdırmaq
- lazım olan vacib məsələləri ön plana çəkmək
- problemin yekun şəklində ümumiləşdirilməsi

1. Mövzunu müəyyənləşdirin.
2. Mövzunu əhatə edən suallar hazırlayın.
3. Sualları cavablandıra biləcək məlumatlar toplayın.
4. Məlumatlar içərisindən lazım olanları seçin.

**Referat hazırlığı bir neçə mərhələdən ibarətdir.**

- Aktual mövzu seçin.
- Mövzu ilə bağlı problemin həllinə yönəlmiş suallar hazırlayın.

- Mövzu ilə bağlı lazımi materiallar toplayın.
- Toplanılan məlumatların mənbələrini qeyd edin.
- Materiallar içərisindən ən uyğun olanını seçin.
- Mövzuya uyğun olaraq şəkil, xəritə, sitat və s. toplayın.
- Seçilmiş materialların suallarınıza uyğunluğunu yoxlayın.
- Seçilən məlumatları düzgün əlaqələndirin.

- Girişi düzgün tərtib edin:
  - Müzakirə obyekti olan əsas problemi açıqlayın.
  - Fikirlərinizi faktlarla sübuta yetirin.
- Əsas hissədə problemin mahiyyətini açmağa çalışın.
- Nəticə hissədə problemin həllini verin, ən əsas məsələləri ümumiləşdirin, problemə öz münasibətinizi bildirin.

- Referatın görüntülü təqdimatına hazırlaşın.
  - Görüntü üçün fonu, rəngi, dizaynı düzgün seçin.
  - Mövzuya uyğun şəkil seçin.
  - Görüntü üçün elə giriş verin ki, dinləyiciləri maraqlandıra biləsiniz.

- Referatın təqdimatı.
  - Referatın və ya mətnin təqdim olunması çox vacib bacarıqdır.
- Təqdimat zamanı aşağıdakılara əməl etməlisiniz:
  - Aydın və ucadan danışın.
  - Dinləyicilərin diqqətini cəlb etmək üçün uğurlu giriş edin.
  - Vacib olan məqamları diqqətə çatdırın.
  - Təqdimat zamanı səslənmə, danışıq tempi, fasilə, səsin yüksəkliyinə, jest və mimikalara diqqət yetirin.

- Təqdimat haqqında rəylərin soruşulması.
- Təklif və iradların dinlənilməsi.

**“Referat” latın sözü olub *məruzə etmək, məlumat vermək* mənalarına uyğun gəlir.**

Referat əsasən aşağıdakı mənalarda işlədilir:

1. elmi əsərin, oxunmuş kitabın və s. şifahi və ya yazılı qısa məzmununu, xülasəsi mənasında;
2. ədibin yaradıcılığına və ya başqa məxəzlərin icmalına həsr olunmuş yığcam məruzə mənasında.

**Referatın yazılışında elmi üslubdan istifadə olunur.**

Referat işi daha çox elmi səciyyə daşıyır. Buna görə də onu yazarkən işlətdiyiniz anlayış, termin və əlaqələndirici ifadələr elmi mahiyyət daşımalıdır.

**Referatın özünəməxsus dil və yazılış tələbləri vardır.** Bunlar aşağıdakılardır:

Referatın yazılış dili aşağıdakı yanaşmaları əhatə edir:

- dəqiqlik
- qısalıq
- aydınlıq
- sadəlik

**Referatın strukturuna verilən tələblər aşağıdakılardır:**

- Titul vərəqi
- Mündəricat
- Giriş
- Fəsillər
- Paraqraflar, yarımbaşlıqlar və bəndlər
- Nəticələr
- Əlavələr
- Biblioqrafiya

**Biblioqrafiyada istifadə olunan ədəbiyyatın siyahısı verilir.**

**Referatda fikri ifadə edərkən aşağıdakı ifadələrdən istifadə olunmalıdır.**

- Fikrimizcə (zənnimizcə, nöqteyi-nəzərimizcə, təqdim olunduğundan irəli gələrək), mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də.....................
.............................................................................
- Sadalanan (təqdim olunan, göstərilən) suallar içərisində, bizim nöqteyi-nəzərimizcə, ............................................. daha çox maraq doğurur.
- Bu məsələnin üzərində dayanmaq ........................

**Ayrı-ayrı məsələlərin təhlilindən ümumi nəticələrə keçid:**

- Yekunda (nəticədə, nəticəyə gələrək) demək olar ki, ................................
.................................................................................................
- Məqalənin məzmunu üzrə aparılan təhlil əsasında aşağıdakı nəticələr əldə olunur (nəticələrə gəlinir) .....
- Görürük ki, ...............................................................................
- Beləliklə, demək olar ki, (bu qənaətə gəlmək olar ki) ...............................
.................................................................................................

**Referat yazılarkən yol verilmir:**

- adi danışıq sözləri, ixtiyari söz birləşmələri, terminlərin məişət formalarına;
- Azərbaycan dilində birbaşa, konkret elmi tərcümələri olan sözlərin xarici dildən götürüldüyü kimi yazılmasına (məsələn: dövr – epoxa və s.);
- fiziki ölçü vahidlərinin rəqəmlərsiz qısa yazılışına (məsələn: km., bu yazılış doğrudur: 1 km, 150 km və s.);
- əks fiziki kəmiyyətin qarşısında riyazi (–) işarəsinin yazılmasına ("mənfi" yazılmalıdır);
- mətnin ortasında və sair (və s.) tipli sözlərdən istifadəyə;
- mətndə sitatlardan çox istifadə edilməsinə.

## MƏRSİYƏ

Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı, millətimi gülləbaran eylədilər!
Tutulub vahimədən nitq bu gün, dil bu səhər,
Bəzəyib Abşeronu qanlı qərənfil bu səhər,
Bakı fəryad eyləyir, gözdən axır sel bu səhər.
Gəmilər nalə çəkir, ərşə çıxır zil bu səhər,
Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı, millətimi gülləbaran eylədilər!
Öz Qızıl ordumuzun Yurdumuza qəsdinə bax,
Üstümə tank yeridən fitnəkarın şəstinə bax,
Gözü qanımla xumar düşmənimin məstinə bax,
Qara bayraqlarımın cərgəsinə, dəstinə bax,
Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı, millətimi gülləbaran eylədilər!
Öldü gənc, öldü uşaq, öldü gəlin-qızlarımız;
Ölmədi! Şanlı şəhid oldu neçə yüzlərimiz,
Bu saat Kərbübəla düzləridir düzlərimiz;
Necə qan ağlamasın üzlərimiz-gözlərimiz?!
Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı, millətimi gülləbaran eylədilər!
Hər qızılgüllü məzar – sinəmizin dağı, məzar!
Əyilir üstünə göy qübbəsinin tağı, məzar!
Hər məzar qanlı beşik – laylaları ağı, məzar!
Dayanıb kam alacaq bizdən hələ yağı, məzar!
Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı, millətimi gülləbaran eylədilər!

Ey Vətən oğlu, Vətən övladı, sil göz yaşını!
Qan haçan yerdə qalıb, tazələ öz yaddaşını!
Çox görüb, Qabil, Azərbaycanım işğal qoşunu,
Görməyib ancaq hələ böylə cinayət işini...
Yazmışıq təqvimə qan ilə bu yanvar qışını,
Gecəni atəş ilə qırmızı dan eylədilər,
Xalqımı, millətimi gülləbaran eylədilər.

**Qabil**

Təsəvvür edin ki, məktəb sizə 20 Yanvar hadisələri ilə bağlı dəyirmi masa hazırlamağı tapşırıb.

- Siz bu tədbiri hazırlamaq üçün nə iş görərdiniz?
- Tədbirə kimləri dəvət edərdiniz?
- 20 Yanvar hadisələrini necə təqdim edərdiniz?

  - Tədbirin keçirilməsi ilə bağlı elan hazırlamağı unutmayın.
  - Tədbiri keçirəndən sonra onun protokolunu hazırlayın.

## *20 Yanvar – Ümumxalq Hüzn Günü*



III

# TARİXİMİZ


1 Azərbaycan

2 Azərbaycanın ilk vitse-admiralı

3 Döyüşçü yoldaşlarına “qayıdacağam” demişdi...

4 Baharın müjdəçisi

5 Xocalı – qan yaddaşımız!

6 Mən bir qadına aşiqəm...

7 Mətn

Tarix keçmişin təcrübə və müdrikliyini gənc nəslə çatdırır.

*Diodor*

Tarix onun üçün yazılıb ki, bütün qarışıqlıqlardan sonra insan öyrənib bilsin ki, onun xoşbəxtliyi ağıl və ədalət üzərində qurulmuşdur.

*İohan Herder*

1. Tarix dedikdə nə başa düşürsünüz? Ulu öndərimiz *Tariximiz bizim üçün dərs olmalıdır* deyərkən xalqımıza nəyi tövsiyə edir, insanları nədən çəkindirirdi?
2. Keçmiş nə üçün müdrik hesab edilir?
3. Bugünkü şanlı tariximizi gələcək nəslə ötürəcək siz yeniyetmələr sabahın mütəxəssisləri kimi daha xoş günlər üçün nə edəcəksiniz?
4. İ.Herder *qarışıqlıq* deyərkən nəyi nəzərdə tutur? İnsanları nədən çəkindirir? Onları nə üçün ağıllı və ədalətli olmağa çağırır?
5. Bölməni oxuyarkən *Azərbaycanımız şanlı keçmişimizin, milli birliyin qəhrəmanlıq və igidliyin salnaməsidir* fikrini təsdiq edin.

1

1. İntonasiya və ədəbi tələffüz qaydalarını gözləməklə şeiri oxuyun.

## AZƏRBAYCAN



Vətən! Namus da, vicdan da yaranmış şanlı hüsnündən!

**Səməd Vurğun**

**ORFOQRAFİYA**

*q*, *ğ*, yoxsa *g*?

- Mətndə göy rəngdə verilmiş sözləri düzgün yazın.

**ORFOEPİYA**

- Mətndə tələffüz formasında verilmiş sözləri seçib düzgün yazın.

Hər millətin, hər torpağın öz adı var, öz ünvanı,
Yağılara baş əyməyib Azərbaycan qəhrəmanı.
Vahid Vətən himnimizdi şəhidlərin axan qanı,
Nəsillərə yadi....ardı, zaman yazdı bu dastanı.
Millətlərə hürriyyətdi, isti...laldı şüarımız,
Azadlığı, səadəti qorumaqdı qərarımız.
Respublikam – ana torpaq, qədim Odlar diyarımız!
Yaşadı...ca vətənimiz, ölsək, şəhid məzarımız.
Üç rən...dədi bayra...ımız, qalxan bayraq enən deyil,
Mərd o...ullar dar ayaqda öz andınnan dönən deyil.
O vətən ki tapdalanır ayaq altda, vətən deyil,
O torpaqda bağ becərsən, ot göyərib bitən deyil.

Ana Kürün, Xan Arazın böyümüşük laylasına,
Sərvətimiz ayna tutub göy Xəzərin aynasına.
Dünya baxsın tarix olmuş Azərbaycan dünyasına,
Mübarizə zinət verir ömrün-günün mənasına.

**Nəriman Həsənzadə**

*Şeirdə Azərbaycan necə tərənnüm olunur?*

2. Hansı xüsusiyyətlər mətnin bədii üslubda olduğunu deməyə əsas verir?

3. Şeirin ideyasını müəyyənləşdirin və epiqrafla əlaqələndirin. Nə üçün epiqraf kimi məhz həmin aforizm seçilmişdir? Siz bildiyiniz hansı aforizmi və ya hikmətli sözü epiqraf kimi verməyi təklif edirsiniz?

4. Şeirdən istifadə etməklə *Azərbaycanımızın bu günü milli birliyin təntənəsidir* fikrini təsdiqləyin.

5. *Tarix olmuş Azərbaycan dünyası* dedikdə şair nəyə işarə edir? O hansı tarixi məqamları ön plana çəkir?

6. Mətndə aşağıdakı fikirlərdən hansı yoxdur?

   A) Bir kərə yüksələn bayraq bir daha enməz. (*M.Rəsulzadə*)
   B) Azərbaycan torpağını qoruyan mərd oğullar həmişə vardır.
   C) Ən böyük arzumuz xalqların əmin-amanlıq içərisində yaşamasıdır.
   D) Azərbaycan xalqının şüarı həmişə azadlıq olmuşdur.
   E) Himnimiz bizim üçün müqəddəsdir.

7. Şeirin hansı iki misrasını çıxarsaq, məzmuna xələl gəlməz?

8. Hansı fikirlər düzgündür?

   1. Şair şeirdə ölkəmizi iki adla təqdim edir.
   2. Xəzərin sərvətinin çox olduğunu göstərir.
   3. Araz Kürdən böyük olduğu üçün onu xan adlandırır.
   4. Azadlığın qorunması xalqın ən böyük amalıdır.

9. Şeirdə altından xətt çəkilmiş sözlərin aşağıda verilənlər içərisindən leksik mənalarını müəyyənləşdirin.

| | |
|---|---|
| **1** Hər hansı bir sinfin, cəmiyyətin, onun üzvlərinin həyat və fəaliyyətinə mane olan sıxıntı və məhrumiyyətlərin olmaması | **2** Öz dövlətində hökmran olma, başqa dövlətdən asılı olmama, hakimiyyət hüququ |
| **3** Siyasi müstəqillik, başqalarından asılı olmadan yaşamaq | **4** Müstəqillik, azadlıq |

10. Şeirdə hansı misrada antonim sözlər, bədii təzadlar işlənmişdir?

11. Şeirdən istifadə etməklə verilmiş sözlərin sinonimlərini tapın.

- yağı – ...,
- vahid – ...,
- səadət – ...,
- məzar – ...,
- dar – ...,
- ayna – ...,

12. Aşağıdakı hökmlərdən hansı düzdür?

- Şeirdə ancaq mürəkkəb cümlələrdən istifadə olunmuşdur.
- Şeirdə mürəkkəb cümlənin hər iki növündən istifadə edilmişdir.
- Şeirdə mürəkkəb cümlə ilə yanaşı, sadə cümlənin məqsəd və intonasiyaya görə bütün növlərindən istifadə olunmuşdur.
- Şeirdə söz sırası pozulmuş cümlələr də vardır.

doğru

yanlış




13. Şeirdə *xan* sözünün böyük hərflə yazılmasının səbəbini deyin.

14. Şeirin birinci misrasında hansı cümlə üzvü ixtisar olunub? Sizcə, niyə?

15. Şeirdə hansı misralarda şəkilçilər ixtisar edilmişdir? Həmin şəkilçiləri bərpa etsəniz, şeirdə nə dəyişiklik baş verəcək? Hər iki formanı müqayisə edin.

**Bəzən bədii nümunələrdə şəkilçilər, bəzən də cümlənin baş üzvü xəbər ixtisar oluna bilir.**

Məsələn:

- Axşamın xeyrindən sabahın şəri. (*Atalar sözü*)

  *Şəri* sözündən sonra *yaxşıdır* sözü ixtisar olunmuşdur. Həmin sözü cümləyə artırsaq,

  **Axşamın xeyrindən sabahın şəri yaxşıdır** şəklində olacaqdır.
- Hər şeyin təzəsi, dostun köhnəsi *(yaxşıdır)*. (*Atalar sözü*)
- Sən bilik ver, qoy götürən götürsün, götürməyən öz bəxtindən küssün! *Arifə bir işarə (kifayətdir), nadana min kötək (azdır)!*

  (*S.Rəhimov, "Mehman"*)

**Bədii əsərlərdə şəkilçilərin və cümlə üzvlərinin ixtisarı obrazlılıq və emosionallıq yaratmaq üçündür.**

Bədii ədəbiyyatdan bir neçə şeir seçib oxuyun. Orada ixtisar olunan şəkilçiləri və xəbərləri müəyyən edin.

16. Aşağıdakı cümlələrdə şəkilçiləri bərpa edib cümlələri tamamlayın. Hansı şəkilçiləri bərpa etdiniz?

1. Ana haqqı, tanrı haqqı. (*"Kitabi-Dədə Qorqud"*) 2. ...Çal qılıncın, ağam Qazan, yetdim. (*"Kitabi-Dədə Qorqud"*) 3. Mən bir uşaq, sən bir ana, Odur ki bağlıyam sana. (*S.Vurğun*) 4. Azərbaycan – qayalarda bitən bir çiçək, Azərbaycan – çiçəklərin içində qaya. (*M.Araz*)

17. Şeirdən istifadə etməklə publisistik üslubda mətn tərtib edin.

**Plan**

- İlk növbədə, publisistik üslubun xüsusiyyətlərini yadınıza salın.
- Şeirdən Azərbaycanla bağlı təqdim olunan məlumatları seçin.
- Ölkəmiz haqqında əlavə məlumat toplayın.
- Şairin tərənnüm, təsvir və düşüncələrinə münasibət bildirin.
- Materialları sistemləşdirin.
- Şəxsi düşüncələrinizi əlavə edin.

## 2

# AZƏRBAYCANIN İLK VİTSE-ADMİRALI




*Yerindən durmaq istəməyən müdir ağır-ağır başını qaldırıb rişxəndlə*

*Bunun üçün Bakıdan buraya gəlmisiniz dedi Axı Aslambəyov erməni admiralıdır Sizin axtarışınız məncə mənasızdır*

*Ola bilməz dedim əvvəla ona görə ki admiralın familiyası Aslambəyov deyil Aslanbəyov ola bilər İkincisi də əgər erməni olsaydı Aslanyan olardı*

– Siz bunları hansı mənbədən və nəyə əsaslanıb deyirsiniz?

– O illərdə heç bir erməni familiyasında “bəy” sözü ola bilməzdi. “Bəy”, “xan” və “ağa” titulları ancaq müsəlman xalqlarına məxsusdur. Ermənilərin isə bir titulu olub – “məlik”, o da sonradan.

Təxminən on-on beş dəqiqədən sonra əlində qədimi, boz bir qovluq geri qayıdan mühafizəçi yerində oturub, bizi heç görmürmüş kimi qovluğu özü vərəqləməyə başladı. Dərin, sükutlu bu yarım?zirzəmi otaqda arabir açılan vərəqin səsi mənim intizarımı daha da artırırdı.

**ORFOQRAFİYA**

Bitişik, yoxsa defislə?

- Mətndə göy rəngdə verilmiş sözlər necə yazılmalıdır?

**ORFOEPİYA**

Düzgün tələffüzü yazın.

- mühafizəçi – [ ........... ]
- xatirə – [ ........... ]
- əhvalat – [ ........... ]

Handan?hana:

– Baxaq görək, – dedi, – Sizin sözlərinizdə həqiqət varmı? Şəxsən mən şübhə edirəm ki, belə bir görkəmli admiral müsəlman ola.

Düzü, qorxurdum, özü baxıb, sonra da götürüb geri aparsın və desin ki, sizin dediklərinizdən əsər-əlamət yoxdur. Ayağa durdum. Əlimi cibimə salıb, pasportumu və vəsiqəmi çıxardıb stolun üstünə qoydum.

– Buyurun, – dedim, – mən bu iki sənədimi Sizə etibar edirəm. Siz də əvəzində qovluğu verin, özüm baxım.

Müdir dözə bilməyib bir az əsəbi:

– Nə deyirəm, buyurun, – deyib qovluğu mənə verdi.

Müdir sərt səslə bildirdi:

– Yoldaş, qeydlər götürmək olar, amma nadir fondda saxlanılan şəxsi işin fotosurətini çıxarmağa icazə verilmir.

İbrahim bəy Allahverdi bəy oğlu Aslanbəyov 1822-ci ildə sentyabrın 10-da Bakıda anadan olmuşdur. 3 il Peterburqdakı dənizçilik məktəbində təhsil alan İbrahim bəy 1837-ci ildə oranı adı “Qırmızı lövhə”yə yazılmaqla bitirmişdir.

Onun tərcümeyi?halı həm admiral, həm də hərbi dəniz tarixçisi kimi çox zəngindir. Əgər onun həyatını digər hərbçilərin ömür yolu ilə müqayisə etməli olsaq, ancaq general Əliağa Şıxlinskinin artilleriya tarixindəki xidmətləri ona bərabər ola bilər. Çünki həmin dövrdə azərbaycanlı generallardan hərb elmi ilə məşğul olan ancaq Əliağa Şıxlinski idi. Fərq bircə ondan ibarətdir ki, Əliağa Şıxlinskinin elmi və hərbi fəaliyyəti Azərbaycanla daha çox bağlı olmuşdur. Admiral Aslanbəyovun elmi tədqiqatları isə rus hərb elmində geniş istifadə olunsa da, bu günə qədər bizə gəlib çatmamışdır.

İ.Aslanbəyov 1869–72-ci illərdə dəfələrlə müxtəlif ümum?dövlət əhəmiyyətli məsələləri öyrənmək üçün toplanmış komitələrə sədr təyin edilmişdir. Estoniyaya ezam olunan İbrahim bəy gəmiçilik məktəblərinin yaradılması və ticarət gəmilərinin düzəldilməsi üçün yaranan komitənin üzvü seçilmişdir.

**1** Aslanbəyov 1860–1861-ci illərdə “Sokol” pərli korvet gəmisinin komandiri, 1865-ci ildə “Retvizan” gəmisinə komandir təyin edilmişdir. Bir müddət məşhur vitse?admiral Butakovun zirehli eskadrilyasında qərargah rəisi də olmuşdur.

1887-ci il sentyabrın 22-də hərbi dəniz donanmasındakı misilsiz xidmətlərinə görə ona vitse-admiral rütbəsi verilir. Bu ali rütbədən sonra Aslanbəyov Baltik donanması üzrə flaqman vəzifəsinə təyin olunur.

1872-ci ildə I Pyotrun anadan olmasının 200 illiyi Rusiyada böyük bayram şənliyi kimi qeyd olunurdu. Bu münasibətlə ümumrusiya texniki sərgisində iştirak etmək və imperatorun kiçik avarlı gəmi dəstəsinə Moskvaya kimi rəhbərlik işi həm?yerlimiz Aslanbəyova etibar olunmuşdu.

İ.Aslanbəyov okeanda sürətlə hərəkət edən kreyserlərin və “uçan eskadrilya”nın orduda tətbiq edilməsinin təşəbbüskarıdır. Onun şəxsi işində saxlanan rəy

və xatirələrdən, xüsusilə 1917-ci ildən əvvəlki dənizçiliyə aid ədəbiyyatdan məlum olur ki, Aslanbəyov öz heyəti və ümumiyyətlə, tabeliyində olanların arasında böyük hörmət qazanmışdır. İllərin soldurduğu sənəddə ad-soyadını oxuya bilmədiyimiz bir kontr?admiral yazır ki, Aslanbəyov xarici ölkələrdə də yaxşı tanınırdı. O, gəmi heyətində ruh yüksəkliyi yaratmağı məharətlə bacarırdı. Hətta kiçikrütbəlilərin də şəxsi təşəbbüsünü qiymətləndirirdi. Açıq?ürəkliliyi və qətiyyəti ilə çoxlarından fərqlənirdi. Aslanbəyovun gəmi səfərləri haqqında çoxlu lətifə, eləcə də özünün danışdığı məzəli Şərq əhvalatları hələ də məşhurdur. Bu onun məşhur şəxsiyyət kimi nə qədər sevildiyini bir daha göstərir.

İbrahim bəy böyük şərqşünas alim Mirzə Kazım bəylə dost olmuş, dahi rus yazıçısı Lev Tolstoy admiral Naximovun həlakolma səhnəsini ondan öyrənmişdir. Lev Tolstoy məşhur "Sevastopol hekayələri"ni yazarkən admiral Aslanbəyovun xatirələrindən bəhrələnmişdir.

Admiralın xidmətləri Serbiyanın "Takova", Rusiyanın "Müqəddəs Vladimir", I dərəcəli "Müqəddəs Stanislav", I dərəcəli "Müqəddəs Anna", "Ağ qartal", Yaponiyanın "Günəşin doğuşu", Havay dövlətinin II dərəcəli "Kalakiya" ordenlərinə layiq görülmüşdür.

2 Hələ sağlığında – 1882-ci ildə Saxalində bir yarımada, Oxot dənizində isə bir körfəz Aslanbəyovun adı ilə adlandırılmışdır.

Aslanbəyov 1901-ci il dekabrın 7-də Peterburqda vəfat edib.

**Şəmistan Nəzirli,**
**"General Şıxlinski və onun silahdaşları" kitabından**

**1. Bu parçanı mətnin hansı hissəsinə yerləşdirsəniz, ardıcıllıq pozulmaz və məzmun dolğunlaşar?**

Admiralın şəxsi işinə baxır və gözlərimə inanmıram. İlahi, bu qədər saxtakarlıq etmək olarmı? Nəfəsim təngiyir, həyəcandan şəxsi iş əlimdə əsirdi. Dözə bilmədim:

– İcazə verin, sizin üçün admiralın ad-familiyasını oxuyum: Aslanbəyov İbrahim bəy Allahverdi oğlu. Əsli belədir. Lakin qara tuşla bu ad-familiyanın üstündən xətt çəkilib, düzəliş edilib. Erməni olduğu göstərilib: Aslambeqov Avramiy Boqdanoviç, 1822-ci ildə Bakıda anadan olub. Əsl-nəcabəti isə ağalıqdır (zadəgan). Dini müsəlmandır. Sonuncu iki sözün üstündən də xətt çəkilib, əvəzində "pravoslavnıy" yazılıb. Əgər mümkünsə, icazənizlə, admiralın şəxsi işindən qeydlərimi götürüm.

## İKİ BAKILI ADMİRAL



Bakı liman şəhəri olduğu üçün burada gəmiçilik çox inkişaf etmişdi. Dərgahqulu xanın oğlu Mirzə Məhəmməd əyalətin bərbad hala düşmüş iqtisadiyyatını qaydaya salıb, inkişaf etdirmək üçün, birinci növbədə, Xəzərdə gəmiçiliyin inkişaf etdirilməsi qayğısına qaldı.

Bir gün Mirzə Məhəmməd oğlu Məlik Məhəmmədi yanına çağırıb dedi:

– Qulaq as, Məlik Məhəmməd, gör nə deyirəm. Biz dəniz sahilində oturmuşuq, ancaq öz gəmilərimiz yoxdur. Balıqçı gəmiləri ilə iş aşmaz. Bizə elə gəmi lazımdır ki, üstümüzə düşmən gələndə onun qabağına çıxa bilək. Bunun üçün mən Avropaya getməliyəm, – deyib Mirzə Məhəmmədxan dərindən nəfəs aldı. – Yaxşı gəmiləri ancaq oralarda düzəldirlər.

– Bəs burada kim qalacaq? – Məlik Məhəmməd təəccüblə soruşdu.

– Necə yəni kim qalacaq? Sən!

Məlik Məhəmməd bəzi işlərdə atasına kömək edirdisə də, özünə qarşı bu cür etibarı heç gözləmirdi.

Mirzə Məhəmməd Avropa dənizçilik ölkələrinə səyahətə gedir və orada gəmi inşası ilə yaxından tanış olur. Həmin illərdə Bakıda olmuş səyyah Lerx yazırdı ki, admiral Bakı xanı Mirzə Məhəmməd tez-tez Langertə gedərək orada sifariş verdiyi gəmilərin inşasına rəhbərlik edirdi. Beləliklə, o, Bakıda admiral kimi tanınmağa başlamışdı.

İkinci bakılı admiral İbrahim bəy Allahverdi bəy oğlu Aslanbəyovdur. O, sözün həqiqi mənasında, ali dənizçilik təhsili almış admiral idi. Aslanbəyov 1822-ci il sentyabrın 10-da Bakıda anadan olmuşdur. 1837-ci ildə Peterburqda dənizçilik məktəbini bitirmişdir.

...Admiral bacarığı və əzmkarlığı sayəsində vəzifəsində getdikcə yüksəlir və 1854-cü ildə "Elbrus" hərb gəmisinə komandirlik etməyə başlayır. *1878-ci ildə Aslanbəyova kontr-admiral rütbəsi verilərkən o, 8-ci donanma ekipajının rəisi idi.*

Aslanbəyov eyni zamanda dənizçiliyə aid bir sıra əsərlərin müəllifi idi. 1887-ci ildə ona misilsiz xidmətlərinə görə vitse-admiral rütbəsi verilmişdir.

Ölümündən sonra Saxalində bir yarımada onun adı ilə adlandırılmışdır. Oxot dənizində də bir boğaz onun adınadır.

*Qılman İlkin, "Bakı və bakılılar" kitabından*

- ✓ ***İnşa** sözünün kontekstə uyğun mənasını izah edin.*
- ✓ ***Xan** və **mirzə** sözlərinin böyük və kiçik hərflə yazılmasının səbəbini izah edin.*
- ✓ *Çərçivəyə alınmış ifadə bədii xitab hesab edilirmi? Niyə?*
- ✓ *Fərqləndirilmiş cümlədə **o** əvəzliyindən sonra **artıq** sözü əlavə edilərsə, vergül işarəsi qoyula bilərmi? Fikrinizi əsaslandırın.*

"**Aslanbəyov yarımadası.** Oxot dənizi, Saxalin adası 1882-ci ildə ekipaj tərəfindən kəşf edilib. Sakit okean komandanı, eskadrilya kontr-admiralı İbrahim bəy Allahverdi bəy oğlu Aslanbəyov soyadı ilə adlandırılıb. Soyadı xəritə üzərində hərf səhvi ilə yazılıb.

**Aslanbəyov körfəzi.** Oxot dənizi, Saxalin adası 1882-ci ildə kəşf edilib və xəritəyə ekipaj, kliper "Plaston" kimi yazılıb. Elə həmin vaxtda da İ.A.Aslanbəyov soyadı ilə adlandırılıb.

**Aslanbəyov İbrahim bəy Allahverdi bəy oğlu.** Dəniz korpusu məktəbini bitirib. 1837–1842-ci illərdə Baltik dənizində üzüb. 1842–1861-ci illərdə Qara dəniz donanmasında "Selafail", "Varşava" gəmilərində, "Femistokol" briqində və başqalarında qulluq edib. 1865–1868-ci illərdə "Retvizan" gəmisinin komandiri, 1879–1882-ci illərdə Sakit okean eskadrilyasının komandiri olub. 1887-ci ildə vitse-admiral rütbəsi alıb. Aslanbəyov 1901-ci il dekabrın 7-də Peterburqda vəfat edib".

*Boris Maslennikov, "Dəniz xəritəsi nəql edir" kitabından*

2. Xronologiyanı nəzərə almaqla mətndəki (səh. 105–106) abzasların ardıcıllığını müəyyən edin.

3. Mətn (səh. 104–106) haqqında demək olar:
   1. Mətndə terminlərdən geniş istifadə olunmuşdur.
   2. Elmi mətn olduğu üçün dili çətindir.
   3. Mətnin dili anlaşıqlıdır.
   4. Mətndə hadisələrin şərhi verilməklə yanaşı, təhlili də verilmişdir.

   ✓ *Seçdiyiniz cavabı əsaslandırın.*

4. Mətn əsasında İ.Aslanbəyovun şəxsi keyfiyyətləri haqqında danışın.

5. Sizcə, mətnin müəllifi Ş.Nəzirli sənədlərdəki yazıları görəndə hansı hisləri keçirir? Mətndən istifadə etməklə cavabınızı əsaslandırın.

6. Arxiv müdirinin *Şəxsən mən sübhə edirəm ki, belə bir görkəmli admiral müsəlman ola* fikrinə münasibət bildirin. Müdir şübhələrində haqlı idimi? Siz onun şübhələrinə son qoymaq üçün hansı faktı və ya faktları səsləndirə bilərsiniz? "İşığı oğurlanmış ulduz" mətnində təsvir olunan hadisələri yadınıza salıb müqayisələr aparın.

7. Q.İlkin, Ş.Nəzirli və B.Maslennikovun İbrahim Aslanbəyovla bağlı verdiyi hansı məlumatlar üst-üstə düşür?

8. Hansı bənd Q.İlkindən verilmiş hissənin (səh. 107) məzmununu ümumiləşdirilmiş şəkildə ifadə edir?

A) İqtisadiyyatı inkişaf etdirmək istəyən Mirzə Məhəmməd gəmiçiliyi inkişaf etdirmək üçün Avropaya gedir.
B) Admiral İ.Aslanbəyov öz savadı nəticəsində yüksək vəzifəyə nail olmuş ilk azərbaycanlıdır.
C) Artıq XIX əsrdə Azərbaycanda gəmiçiliyə olan maraq özünün yüksək inkişaf mərhələsinə çatmışdı.
D) Artıq XIX əsrdə Azərbaycanda mükəmməl gəmiçilik inkişaf etmişdi.
E) Liman şəhəri olan Bakıda gəmiçiliyin inkişafı ilə yanaşı, mükəmməl dənizçilik təhsili almış şəxslər də olmuşdur.

9. *Freqat*, *eskadrilya*, *kreyser* sözlərinin leksik mənasını müəyyənləşdirin və termin olub-olmadığını əsaslandırın.

10. Mətnin (səh. 106) son cümləsində altından xətt çəkilmiş söz *ölmüşdür*, *həlak olmuşdur* sözlərindən biri ilə əvəz edilərsə, cümlənin məzmununa xələl gələrmi? Leksik norma pozularmı? Niyə?

11. *Misilsiz* sözünün sinonimlər cərgəsini müəyyənləşdirin.

12. Uyğunluğu müəyyənləşdirin.

| | | | |
|---|---|---|---|
| yüksək | uca | ali | hündür |
| orqan | səviyyə | vəzifə | əqidə |

✓ *Hansı sözü uyğunlaşdıra bilmədiniz? Niyə?*

13. Verilmiş leksik mənalara əsasən *boğaz* sözünün omonim və çoxmənalı söz olduğunu sübut edin. *Boğaz* sözünün hansı mənası termindir?

1 boyunun, qida borusunun başı və nəfəs yollarının yerləşdiyi ön hissəsi

2 ayaqqabı və corabın yuxarı hissəsi

3 iki dağ arasındakı dar keçid

4 çayların baş hissəsi

5 dənizin iki quru arasındakı dar hissəsi

6 müxtəlif qabların ağzı ilə gövdəsi arasındakı dar hissə

14. Mətndə (səh. 104) fərqləndirilmiş hissədə durğu işarələrini bərpa edin. Fikirlərinizi əsaslandırın.

15. Mətndə (səh. 104) altından xətt çəkilmiş cümlədə elə dəyişiklik edin ki, *qovluq* sözü bir dəfə işlənmiş olsun.

16. Mətndə (səh. 107–108) altından xətt çəkilmiş sözlərin böyük və kiçik hərflə yazılmasının səbəbini izah edin.

17. Mətndə (səh. 106) çərçivəyə alınmış hissədə işlənən "–" işarəsinin aşağıdakı hökmlərdən birini seçməklə tire və ya defis olması barədə fikir yürüdün.
   1. Hər ikisi tiredir.
   2. Hər ikisi defisdir.
   3. 1-ci nümunədə defis, 2-ci nümunədə tire işarəsindən istifadə olunmuşdur.
   4. 1-ci nümunədə tire, 2-ci nümunədə defis işarəsindən istifadə olunmuşdur.

18. Aşağıdakı fikirlərdən hansının düzgün olduğunu deyin. Fikrinizi arqument gətirməklə sübuta yetirin.

Defis → işarəsinin səhv qoyulması orfoqrafik səhvdir.
Tire → işarəsinin səhv qoyulması orfoqrafik səhvdir.

19. Mətndən defis və tire işarələrinin işləndiyi cümlələri seçin. Seçiminiz əsasında aşağıdakı cədvəli tamamlayın.

| | |
|---|---|
| **Defis** → | 1.<br>2.<br>3. |
| **Tire** → | 1.<br>2.<br>3. |

20. *Qətiyyəti ilə* və *qətiyyətlə* sözlərini cümlədə işlətməklə qrammatik baxımdan fərqləndirin.

21. Mətndə (səh. 104–106) hansı cümlələri üslub baxımından düzgün hesab etmirsiniz? Həmin cümlələrin necə olmasını təklif edirsiniz?

22.

## SORĞU

Məktəbinizdə 1–11-ci sinif şagirdləri arasında sorğu keçirin.

- Mövzu:

  Milli Qəhrəmanlarımızı tanıyırıqmı?

- İstiqamət:

  – İki qəhrəman adı (*hal-hazırda yaşayan və dünyasını dəyişmiş*) seçin.

  – Sorğunu həm şifahi, həm da yazılı keçirə bilərsiniz. (*Seçim sizin ixtiyarınıza buraxılır.*)

- Nümunə üçün suallar təqdim edirik:

  – Murad Mirzəyev kimdir?

  – Onun döyüş yolu haqqında nə bilirsiniz?




✓ *Alınan cavabları ümumiləşdirin, nəticələri qruplaşdırın.*

✓ *Nəticələr əsasında məlumat hazırlayın.*

3

# DÖYÜŞÇÜ YOLDAŞLARINA "QAYIDACAĞAM" DEMİŞDİ...

(*ixtisarla*)

"– Bağışlayın, bağışlayın məni! Bağışlayın, cəbhə dostlarım. Söz vermişdim ki, hospitaldan yanınıza qayıdacağam. Sözümə xilaf çıxdım. Qayıda bilmədim. Vallah, əcəl imkan vermədi... Yoxsa... Bağışlayın məni, bağışlayın, cəbhə dostlarım!"

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıda adları göstərilən hərbi qulluqçuları təltif edilsinlər:

"Azərbaycan Bayrağı" ordeni ilə:

14. Məmmədov Maşallah Abbasəli oğlu – əsgər (ölümündən sonra)

**İlham ƏLİYEV**,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2005-ci il.
№ 859

**Qeyd:** Sərəncamda siyahı üzrə 15 nəfər təltif edilmişdir.

1. Mətni ifadəli oxuyun.



Maşallah Abbasəli oğlu Məmmədov 1974-cü il dekabrın 5-də Gəncə şəhərində anadan olmuşdur. Yaşadığı, boya-başa çatdığı küçə Azərbaycanın ilk Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun adını daşıyırdı. Ağlı kəsəndən bu igid Azərbaycan oğlunun keçdiyi qısa və şərəfli ömür yolu ilə maraqlanmışdı.

Vətən uğrunda ölüm həyatın davamıdır.

**Cambul Cabayev**

Otağa daxil olan ağsaçlı, nurani bir qadın dərhal özünü təqdim etdi: "Mən Elmira Məmmədovayam... Şəhid anasıyam... Gəncədən gəlmişəm. Oğlum 1994-cü il yanvarın 28-də Füzuli rayonunun Qaraxanbəyli kəndi uğrunda gedən döyüşlərdə şəhid olub. "Azərbaycan Bayrağı" ordeninə layiq görülüb..."

Maşallah Abbasəli oğlu Məmmədov 1974-cü il dekabrın 5-də Gəncə şəhərində anadan olmuşdu. **Sovet ittifaqı qəhrəmanı** İsrafil Məmmədov adına 27 saylı orta məktəbi bitirmişdi. Olduqca səbirli, təmkinli və savadlı gənc olan Maşallah həm də idmanla müntəzəm məşğul idi. 1993-cü il yanvarın 20-də Gəncə şəhər **Nizami rayon Hərbi Komissarlığı** tərəfindən həqiqi hərbi xidmətə çağırılır. Atası Abbasəli kişi ilə birlikdə Biləcəri çağırış məntəqəsinə gedərkən Hacıqabul yolunda avtomobil qəzasına düşür. Bu qəzada atasını itirən Maşallah özü də ağır bədən xəsarətləri ilə xəstəxanada aylarla müalicə olunur. Bir müddət sonra 1993-cü il iyunun 13-də yenidən Azərbaycan ordusuna həqiqi hərbi xidmətə yollanır. Maşallahın xidmət yolu "N" hərbi hissəsindən başlayır.

Onun xidməti xasiyyətnaməsindən bu sətirləri oxuyuruq:

*"Sıravi M.A.Məmmədov 1993-cü ilin iyulundan bizim taborun əsgəri idi. Xüsusi təyinatlı hissədə xidmət etmək istəyi ilə bizim tabora gəlmişdi.* ***Elə ilk günlərdən fədakarlığı, hərbi bacarığı əsgər yoldaşlarına örnək idi.*** *Döyüş bölgəsinə gəldiyi vaxtdan sıravi Məmmədov cəsur hücumçu, sərvaxt döyüşçü idi".*

30-a yaxın döyüşdə iştirak edən Maşallah hər dəfə cəsarəti ilə hamını təəccübləndirirdi. Əsgər yoldaşları onun cəsurluğundan, qorxmazlığından, igidliyindən

fəxrlə danışardılar. Döyüş vəzifəsi qumbaraatan olsa da, hücumda rabitəni də özü idarə edir, vacib məqamlarda digər silahlardan da məharətlə istifadə etməyi bacarırdı. Döyüşə hamıdan öndə özü gedərdi.

Komandanlığın rəğbətini qazanan döyüşçü M.Məmmədov nümunəvi xidmətlərinə görə dəfələrlə təşəkkürnamə və fəxri fərmanlara layiq görülür.

Onun son döyüşü 1994-cü il yanvarın 28-də Füzuli rayonunun Qaraxanbəyli kəndi uğrunda olur. Aldığı ağır yaralarla Bakı şəhərinə hospitala göndərilən döyüşçü dostlarına qayıdacağını vəd etsə də, geriyə – əsgər yoldaşlarının yanına dönə bilmir. Həkimlərin səylərinə baxmayaraq, Maşallahın həyatını xilas etmək mümkün olmur. M.Məmmədov 1994-cü il yanvarın 29-dan 30-na keçən gecə hospitalda əbədi olaraq gözlərini yumur. Cəsur döyüşçü Gəncə şəhərindəki **Şəhidlər Xiyabanında** torpağa tapşırılır.

M.Məmmədovun ruhuna hörmət və ehtiram əlaməti olaraq, xidmət etdiyi “N” hərbi hissəsinin komandanlığı tərəfindən **Gəncə şəhər İcra Hakimiyyətinə** göndərilən 17 aprel 1994-cü il tarixli məktubda Vətənin azadlığı uğrunda qəhrəmancasına həlak olmuş şəhidin adının əbədiləşdirilməsi xahiş olunur.

Ölkə Prezidenti İlham Əliyevin imzaladığı 24 iyun 2005-ci il tarixli sərəncamla Məmmədov Maşallah Abbasəli oğlu ölümündən sonra Vətənin yüksək mükafatı – “Azərbaycan Bayrağı” ordeni ilə təltif edilir.

Gəncə şəhərinin Avtozavod qəsəbəsindəki 27-ci küçəyə igid əsgərin adı verilir, vaxtilə oxuduğu 27 saylı orta məktəbdə adına xatirə guşəsi yaradılır və yaşadığı evin önünə şəhidin adını daşıyan xatirə lövhəsi vurulur.

**Lalə Hüseynova, “Azərbaycan ordusu” qəzetindən**




Bölgə inzibati ərazi vahidi kimi 1827-ci ildə yaradılmış və ilkin adı Qarabulaq olmuşdur. Rayon kimi 8 avqust 1930-cu ildə təşkil olunmuş və Karyagin adlandırılmışdır. 1959-cu ilin aprelində Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə rayonun adı dəyişdirilmiş, Füzuli adlandırılmışdır. 23 avqust 1993-cü ildə Füzuli ermənilər tərəfindən işğal olunmuşdur. Lakin Azərbaycan ordusunun həmin ilin dekabr ayında apardığı əməliyyat nəticəsində işğal olunmuş 21 kənd və strateji cəhətdən əhəmiyyətli Horadiz qəsəbəsi azad edilmişdir.



*İsrafil Məmmədov*

Əslən Şəmkir rayonunun Qapanlı kəndindən olan İsrafil Məhərrəm oğlu Məmmədov ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanıdır. 1919-cu il martın 16-da anadan olmuşdur.

İyirmi yaşlı gənc İsrafil *əsgərliyə gedəndə* ölkədə əmin-amanlıq idi. Heç kəsin ağlına belə gəlməzdi ki, tezliklə bu asayiş pozulacaq, Vətənin mərd oğulları hünər meydanında əsl sınaqdan keçəcəklər.

Yüz minlərlə azərbaycanlı gənc kimi İsrafil Məmmədov da cəbhəyə yollanan gənclərin arasında idi.

*22 yaşlı döyüşçü dəfələrlə yaralanmasına baxmayaraq, düşmənin ordusuna sarsıdıcı zərbələr endirmiş, bir çox şəhər və kəndlərin geri alınmasında fədakarlıq göstərmişdir.*

1941-ci ilin dekabr ayında döyüşən ordudan Gəncəyə xoş bir xəbər gəlir:

"Şimal-Qərb cəbhəsinin Siyasi İdarəsi sizdən xahiş edir: İsrafil Məhərrəm oğlu Məmmədovun Üçüncü vağzal küçəsindəki 39 nömrəli evdə yaşayan ailəsinə xəbər verin ki, onların oğlu, bizim cəbhənin döyüşçüsü faşist işğalçılarına qarşı döyüşlərdə igidlik göstərdiyinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür".

O illərdə Gəncədə yaşayıb-yaradan Mir Cəlal Paşayev də İsrafil Məmmədovun hünərindən riqqətə gələrək "Qəhrəmanın yolu" adlı geniş bir oçerk qələmə almışdır. 1942-ci ildə isə Bakıda görkəmli ədibin "İsrafil" adlı kitabı çap olunmuşdur.

2. *İ.Məmmədov Gəncədə Xan bağında dəfn edilmişdir. M.Məmmədov Gəncədə doğulub böyümüş, orada da dəfn edilmişdir. Hər iki qəhrəman gənc yaşlarında fəxri ada layiq görülmüşdür. M.Məmmədov 20, İ.Məmmədov 27 yaşında dünyasını dəyişmişdir. Hər ikisinin adına Gəncə şəhərində küçə var.*

Sizcə, bu bir zərurət, yoxsa təsadüfdür?

3. *1941–1945-ci illər. 1991–1994-cü illər.* Zaman və məkan baxımından hadisələrə münasibət bildirin. Hansı oxşarlığı müşahidə etdiniz? Həm İsrafil Məmmədovların, həm də Maşallah Məmmədovların fədakarlığı nə ilə bağlı idi?

4. Mətni oxuyun, cümlələrin quruluşuna və üslubuna diqqət yetirin.

**Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu**

*22 aprel 2005-ci il*

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikasının aşağıdakı ordenləri təsis edilsin:
   - Azərbaycan Respublikasının ən yüksək təltifi – "Heydər Əliyev" ordeni;
   - "İstiqlal" ordeni;
   - "Azərbaycan Respublikasının" ali hərbi ordeni – "Şah İsmayıl" ordeni;
   - "Azərbaycan Bayrağı" ordeni;
   - "Şərəf" ordeni;
   - "Şöhrət" ordeni;
   - "Vətənə xidmətə görə" ordeni.

✓ *"Heydər Əliyev" ordeninin təsis edilməsini zəruri edən səbəblər haqqında danışın.*

## "AZƏRBAYCAN BAYRAĞI" ORDENİ

Azərbaycan Respublikasının "Azərbaycan Bayrağı" ordeninin statusunun və təsvirinin təsdiq edilməsi haqqında

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikasının "Azərbaycan Bayrağı" ordeninin statusu və təsviri təsdiq edilsin.

**Heydər ƏLİYEV,**
Azərbaycan Respublikasının Prezidenti

*Bakı şəhəri, 6 dekabr 1993-cü il.*
*№ 756.*

* * *

**Azərbaycan Respublikasının "Azərbaycan Bayrağı" ordeninin Statusu**

Azərbaycan Respublikasının 1993-cü il 6 dekabr tarixli 756 saylı Qanunu ilə təsdiq edilmişdir.

1. Azərbaycan Respublikasının "Azərbaycan Bayrağı" ordeni Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə aşağıdakılara görə verilir:

- Azərbaycan Respublikasında milli azadlıq hərəkatında və ictimai-siyasi fəaliyyətdə xüsusi xidmətlərinə görə;
- hərb elminin və hərbi texnikanın inkişafında xüsusi xidmətlərinə görə;
- Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanmasında xüsusi xidmətlərinə görə;
- respublikada əmin-amanlığın təmin edilməsində, asayişin qorunmasında və hərbi xidmətdə xüsusi xidmətlərinə görə;
- dövlət sərhədinin mühafizəsinin təmin edilməsində xüsusi xidmətlərinə görə.

2. "Azərbaycan Bayrağı" ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "Şah İsmayıl" ordenindən sonra taxılır.

* * *



"Azərbaycan Bayrağı" ordeninin təsviri Azərbaycan Respublikasının 1998-ci il 6 fevral tarixli 429-IQD saylı Qanunu ilə təsdiq edilmişdir.

"Azərbaycan Bayrağı" ordeni iki, bir-birinin üzərinə qoyulmuş, biri digərinə nisbətən ox ətrafında dönmüş, qabarit ölçüsü 35 mm səkkizguşəli ulduzdan ibarətdir, qızıl suyuna çəkilmiş gümüşdəndir, milli ornamentlə işlənmişdir, altdakı ulduz ağ, üstdəki ulduz isə göy mina ilə örtülmüşdür.

Üstdəki ulduzun mərkəzində naxışla haşiyələnmiş sağanağın daxilində Azərbaycan Respublikasının Dövlət bayrağı təsvir olunmuş və öz rənglərinə uyğun mina ilə örtülmüşdür. Arxa tərəfi hamar səthlidir, ortasında "Azərbaycan Bayrağı" sözləri yazılmışdır, ondan aşağıda ordenin nömrəsi həkk olunmuşdur.

Orden halqa və ilgək vasitəsilə paltara bərkidilmək üçün elementi olan, Azərbaycan Respublikasının Dövlət bayrağının rənglərinə uyğun zolaqlarla haşiyələnmiş 27×47,5 mm ölçülü beşguşəli ağ xara lentə birləşdirilir. Ordenə paltara bərkidilmək üçün elementi olan, üzərində alov simvolu təsvir edilən eyni xara lentdən hazırlanmış 27×9 mm ölçülü qəlib əlavə olunur.

5. Mətnin (səh. 113–114) publisistik üslubda olduğunu təsdiq edən dörd xüsusiyyət sadalayın.

6. Sizcə, nə üçün Maşallah Məmmədov məhz İsrafil Məmmədovun həyat yolunu özünə örnək seçmişdi?

7. Aşağıdakı fikirlərdən hansı düzgündür?
   1. M.Məmmədov hərbi xidmətə yollanandan bir ay sonra "N" saylı hərbi hissəyə gəlmişdi.
   2. Ölümündən dərhal sonra fəxri ada layiq görülür.
   3. Yanvarın 28-də Qaraxanbəyli uğrunda döyüşlərdə həlak olur.
   4. M.Məmmədov rabitə işlərini də idarə edə bilirdi.

8. Mətnə (səh. 113–114) əsasən səbəb-nəticə əlaqələrini müəyyənləşdirin.

9. Mətnə (səh. 113–114) əsasən fikirlərin düz və ya səhv olduğunu müəyyənləşdirin:
   A) M.Məmmədov orta təhsilini Gəncədə almışdır.
   B) O, avtomobil qəzasından sonra 5 ay xəstəxanada yatır.
   C) Dostlarına verdiyi "söz"ü yerinə yetirir.
   D) Vaxtilə oxuduğu 27 nömrəli məktəbə M.Məmmədovun adı verilmişdir.
   E) Yaşadığı evin önünə şəhidin adını daşıyan xatirə lövhəsi vurulmuşdur.

| | |
|---|---|
| **Düz** | |
| **Səhv** | |

10. Ölkəmizdə ən ali orden hansıdır? Həmin orden haqqında nə bilirsiniz? Fəxri ada layiq görülmək üçün nə etmək lazımdır?

11. Siz İsrafil və Maşallah kimilərin göstərdiyi fədakarlığa hazırsınızmı?

12. Mətndə altından xətt çəkilmiş cümlələrdə hansı sözlər bir-birinin sinonimidir?

13. Mətndə (səh. 113–114) tünd şriftlə verilmiş cümlədə *örnək* sözünü hansı sözlə əvəz etsəniz, məzmun dəyişməz?

14. Mətndə (səh. 115) altından xətt çəkilmiş cümlədə fərqləndirilmiş ifadəni hansı uyğun ifadə ilə əvəz etmək olar?

15. *Orden* və *medal* sözlərinin leksik mənalarını fərqləndirin.

**orden**

1 → xüsusi xidmətlərinə görə verilən, üzərində qabarıq təsvir və ya yazı olan fərqlənmə nişanı ← 3

2 → hərbi və ya mülki xidmətlərə görə dövlət tərəfindən verilən müxtəlif dərəcəli və adlı fərqlənmə nişanı ← 4

**medal**

16. Verilənlər içərisindən *oçerk* və *hekayə* sözlərinin mənasını seçin.
   - Müəllifin bilavasitə gördüyü, şahidi olduğu real faktlardan, hadisələrdən, adamlardan bəhs etdiyi kiçik ədəbi əsər.
   - Rəvayət şəklində kiçik ədəbi nəsr əsəri.

17. Mətndə tünd şriftlə verilmiş ifadələrdə hansı söz düzgün yazılmamışdır?
18. İ.Məmmədovla bağlı verilmiş mətndə (səh. 115) hansı cümlələr arasında rabitə yoxdur? Əlaqə yaratmaq üçün hansı cümlələri əlavə edərdiniz?
19. Mətndə (səh. 114) göy rəngdə verilmiş cümlədə hansı sözlərdə şəkilçilər ixtisar olunmuşdur?
20. Mətndə (səh.115) fərqləndirilmiş cümləni elə dəyişin ki, ○ + sa da, + □ sxeminə uyğun olsun. Sonra cümlələri müqayisə edin. Fərq yarandımı? Yaranan fərq məzmunda, yoxsa quruluşdadır? Hansı qənaətə gəldiniz?
21. Hər iki mətn əsasında rəsmi-işgüzar və publisistik üslubun xarakterik xüsusiyyətlərini müəyyənləşdirin və cədvəli tamamlayın.

| Rəsmi-işgüzar üslub | Publisistik üslub |
|---|---|
| 1. | 1. |
| 2. | 2. |

22. “Qəhrəmanlıq dünən və bu gün” mövzusunda esse yazın.
23. Vətən uğrunda döyüşən Azərbaycan əsgərləri haqqında görüntülü təqdimat hazırlayın. Şəxsin seçimi sizin öhdənizə buraxılır.

4

# BAHARIN MÜJDƏÇİSİ

1



Başına döndüyüm, ay qəşəng Pəri,
Adətdi dərərlər yaz bənövşəni.
Ağ nazik əlinlə dər, dəstə bağla,
Tər buxaq altında düz bənövşəni.

Qurbani der, könlüm bundan sayrıdı,
Nə etmişəm yarım məndən ayrıdı,
Ayrılıqmı çəkib, boynu əyridi,
Heç yerdə görmədim düz bənövşəni.

*Aşıq Qurbani*

✓ *Şeirdə hansı sözlər tələffüz şəklində verilmişdir? Bunun səbəbini nə ilə izah edərsiniz?*



2



**Ofeliya**. Baxın, bu, lalədir, bu, sırğagülüdür. Bu isə sədəfotudur. Buyurun, alın. Bir neçəsi də mənə qalsın. Buna şəfaotu da demək olar. Ah, siz onu sinənizə başqa cürə taxın, mənə baxmayın. Bu da qızçiçəyidir. Sizə bir neçə bənövşə də verərdim, ancaq atam öləndə hamısı solub.

*Uilyam Şekspir, "Hamlet" əsərindən*

3



Bu il Qarabağa bahar gəlmədi,
Çiçəklər açmadı, ot göyərmədi
Ağladı bənövşə, nərgiz, yasəmən,
Xarıbülbül tapdaq altda inlədi.
Ağlama, bənövşə, toxdaq ol bir az,
Ağlama, pis günün ömrü çox olmaz.

Bir gün bu torpağa əsl yaz gələr,
İgidlər hayqırıb düşməni əzər,
Bu yerlər yenə də cənnətə dönər
Üzeyirin, Pənahın ruhları da dincələr.
Ağlama, bənövşə, toxdaq ol bir az,
Ağlama, pis günün ömrü çox olmaz.

*Bəhruz Axundov*

1. Verilmiş mətnləri oxuyun, onlar üçün açar sözü müəyyənləşdirin.

2. Siz onun haqqında nə bilirsiniz?



4



Yazıçı G.Hüseynoğlu "Bənövşə əfsanəsi" hekayəsində iki gəncin nakam məhəbbətindən söhbət salır: Xan qızı öz sevgilisi naxırçı oğlu Baharı həmişə bulağın başında gözləyərmiş. Döyüşə gedən Bahar geri qayıtmır. Daha xan qızı da bulaq başına getmir, mahnı oxumur. Çünki o, Baharın ölümündən sonra yaşamaq istəməmişdi.

Bənövşənin yanıqlı mahnılarına adət etmiş adamlar indi onu nahaq yerə axtarırdılar. Lakin hər il bahar zamanı bulağın başında boynu çiynində bitmiş bir zərif çiçəyin baş qaldırdığını görürlər. Adamlar ona bənövşə adı verirlər.

*Cəlal Abdullayev*

5



Bənövşə sadəlik və təvazökarlıq rəmzi olub, xristian məbədlərinin divar rəsmlərində ornament kimi tez-tez istifadə edilir. Katoliklərdə yepiskoplara məxsus dayirəvi papaq sutana (cübbə), pravoslavlarda ruhanilərə məxsus taskulah – baş örtüyü (kamilavka) bənövşəyi rəngdədir. Taskulah mükafat və fərqlənmə nişanəsi kimi verilir.

*"Mədəniyyət tarixi və nəzəriyyəsi" kitabından*

6



✓ *1-ci misranın mənasını izah edin.*

Alışır baharın mavi gözləri
Otlar arasından dünyanı süzür.
Bu (*zərif, yoxsa zəif*), bu şehli bənövşələri
Xəyalım bir qızın telinə düzür.

*Henrix Heyne*



## ORFOQRAFİYA

Bitişik, ayrı, yoxsa defislə?

- Mətndə göy hərflə verilmiş sözlər necə yazılmalıdır?

## ORFOEPİYA

Düzgün tələffüzü yazın.

- bənövşə – [ ........... ]
- şair – [ ........... ]
- çələnglə – [ ........... ]

Yazın gözəl (*çağında, vaxtında*), gülün bülbülü, bülbülün gülü (*çağırdığı, səslədiyi*) ərəfədə boynu?bükük bənövşəmiz də dirildi qışa meydan oxudu, arzularımıza, diləklərimizə qol?qanad oldu... Gözoxşayan rəngi ilə ruhumuzu isidən, baharın müjdəçisi bənövşəni incə ətrinə, aşiqanə görünüşünə görə kim sevmir ki?

Zərif qoxulu, göz?oxşayan rəngli bu çiçək əsrlər, minilliklər boyunca insanların sevimlisi olub. Şəninə şeirlər qoşulub, gözəlliyi, boynubüküklüyünün arxasındakı məğrurluğu vəsf olunub, əfsanələr, rəvayətlər vasitəsilə dildən?dilə düşüb. Hətta bəzi əfsanələrə görə, bənövşə Tanrı qarşısında günahları bağışlanan Adəmin minnətdarlıq göz?yaşlarından yaranıb.

Yunan əsatirlərində isə deyilir ki, Günəş Allahı Apollon nəhəng Atlasın qızlarından birini yandırıcı şüaları ilə izləyirmiş. Atlas Zevsə müraciət edir ki, qızını şüalardan qorusun. Zevs onu çiçəyə döndərib kölgəlikdə gizlədir. *Zevsin qızları səmavi meşədə, kolluqda bənövşəni birinci dəfə görüb dərərkən onları oğurlamaq istəyən Plutondan qorxaraq, çiçəkləri əllərindən salırlar*. Bənövşələr yerə düşür və o vaxtdan yerdə bitməyə başlayır.

Qədim yunanlar evlərini və tanrıların heykəllərini bənövşə ilə bəzəməyi sevirmişlər. Həmçinin bənövşədən hazırlanan çələnglə üç yaşına çatmış uşaqların başına tac (**qoyurmuşlar, qoyurlarmuş**), bununla da körpə ölkənin kiçik vətəndaşı hesab edilirdi. Qədim romalılar isə bütün əlamətdar günlərdə, bayramlarda bənövşədən istifadə edirdilər. Homer bu gülü poemalarında sevə-sevə təsvir etmişdir.

Avropanın dahi şairləri də bənövşəyə (*biganə olmamışlar, laqeyd qalmamışlar*). Şekspir bənövşəni "əzizim" deyərək tərifləyirdi.

Höte doğma şəhəri Veymarı Afinaya bənzətmək üçün ətrafında bənövşə çəmənliyi salmağa çalışmışdı. İndi də bu şəhərdə yol kənarında, çöllüklərdə, ictimai parklarda bənövşəyə rast gəlinir. Yerli əhali bu güllərə "Hötenin bənövşələri" deyir. Böyük şair hər dəfə gəzintiyə çıxanda özü ilə bənövşə toxumları götürər, gəzdiyi hər yerə bu toxumları atardı. Artıq Höte həyatdan köçüb, ancaq, deyilənə görə, onun bənövşələri Veymarın ətrafında yenə də hər bahar (*çiçəkləyir, gül açır*).

**Şərq ölkələrində isə bənövşə gözəlin xalı ilə daha çox müqayisə edilib.**

Bəs, görəsən, tarix boyu sevilib?əzizlənən bu çiçəyin elmi təsnifatı necədir?

"Ərköyünlük" edib günəş işığı istəməsə də, həddən artıq soyuq və isti hava çiçəyin "boynunu bükür". Adətən, uzunömürlü olan bənövşənin bəzi növləri az yaşayır. Hətta mövsümlük olur. Yarpaqları ürək şəklində olan çiçəyin rəngi isə adından göründüyü kimi, adətən, bənövşəyi olur. Amma mavi, sarı, ağ, çəhrayı çalarlı bənövşə növləri də var. Çiçəklənməsi üçün bol işığa ehtiyacı olsa da, bu, birbaşa onun üzərinə düşən günəş şüası olmamalıdır. Təbiətdə ağac gövdələrində və kölgədə boy atır. Torpağı daim nəmli olmalıdır.

Bir?başa günəş işığı (*istəməyən, sevməyən*), çöllərdə də, ev şəraitində də (*boy atan, yetişən*), dünyanın dörd bir tərəfində yayılan bu nazlı çiçək baharın ilk müjdəçisidir.

Orta əsrlər Almaniyasında ilk bənövşənin tapılması ilə bahar bayramının keçirilməsi bir günə təsadüf edirdi. Bu gülü tapan şəxsi yaşıl çəməndə bir ağaca bağlar, böyük?kiçik – bütün adamlar (*onun başına fırlanıb, onun ətrafında dövrə vurub*) rəqs edər, mahnı oxuyardı. Can?sıxıcı qışdan çıxdıqları üçün deyib-gülüb əylənərdilər.

Fransızlar isə bənövşəni günahsızlıq və ciddilik simvolu hesab edirlər.

XVIII əsrdə yaşamış fransız aktrisası Kleron 30 il müddətində otağında bənövşə becərərmiş və hər gecə bir ləçəyini çay kimi (*qaynadıb, dəmləyib*) içərmiş.

Bənövşə ilə bağlı daha bir maraqlı tarixi faktda isə deyilir ki, gələcək imperator arvadı Jozefina dustağa salınarkən ona bir dəstə bənövşə ötürülür. Hər saniyə gilyotində ölüm cəzasını gözləməsinə baxmayaraq, bənövşələri görərkən xilas olmağa onda dəli bir inam baş qaldırır və həqiqətən, o xilas olur.

O gündən sonra Jozefina bütün paltarlarında bənövşə şəkli çəkdirib onlara bənövşə cövhərli ətir vurur, darda olanlara, köməyə möhtaclara bənövşə verib inamlarını artırır. 9 mart 1796-cı ildə Jozefinanın Napoleonla toyu olur. Həmin gün Jozefina paltarlarına bənövşə taxmış, sinəsini və əllərini bənövşə ilə örtmüşdü. Napoleon harada olmasından asılı olmayaraq, hər il toylarının ildönümündə Jozefinaya bir dəstə bənövşə göndərərmiş.

**Rəna Kərimova, "Naşir" jurnalı, 2014-cü il**

3. “Baharın müjdəçisi” mətninin (səh. 122–123) məzmunu və dili üzərində işləyərək aşağıdakı sxem əsasında təhlil işi aparın.

**Rəna Kərimovanın yazısına**

______________________________

R.Kərimovanın “Baharın müjdəçisi” məqaləsini oxuyub bu qənaətə gəldim ki, ________________________________________

Məqalədə ____________________________________________

____________________________________________________.

Mətndə abzaslar arasında rabitə ____________________________

____________________________________________________.

Mətndə müəllifin çatdırmaq istədiyi fikir _______________________

____________________________________________________.

Müəllifin fikirləri ilə razıyam (*razı deyiləm*), çünki ________________

____________________________________________________.

Ancaq mətnin dili ________________________________________

____________________________________________________.

Mətn üslubi cəhətdən (*qüsurludur, qüsurlu deyil*), çünki __________

____________________________________________________ .

Müəllifə tövsiyə edərdim ki, _________________________________

____________________________________________________ .

İmza: Tarix:

✓ *Sizcə, yazdığınız yazı əməli yazının hansı növü olacaqdır?*

✓ *Yazdığınız bu yazı hüquqi məzmuna malikdirmi? Nə üçün belə hesab edirsiniz?*

4. Mətnin (səh. 122–123) hansı üslubda yazıldığını müəyyənləşdirin. Elmi məlumatın bədii şəkildə təqdiminə diqqət yetirin.

5. Mətnə (səh. 122–123) əsasən demək olar:

   1. Bənövşə dünyanın müxtəlif sənətkarlarının əsərlərinin tərənnüm obyekti olmuşdur.
   2. Bənövşəyə bəzən xilaskarlıq simvolu kimi inam bəsləmişlər.
   3. Bənövşə işıqsevən bitki olmasa da, günəş şüalarını sevir.
   4. Almanlar bənövşəni günahsızlıq simvolu hesab etmişlər.

6. Mətnin (səh. 122–123) hər abzasını 1-2 cümlə ilə ifadə edib mətni yığcamlaşdırın.

7. Mətndən (səh. 122–123) istifadə etməklə bənövşəyə məxsus xüsusiyyətləri sadalayın.

8. Aşıq Qurbaninin misralarına münasibət bildirin. Nə üçün o heç zaman düz bənövşə görmədiyini deyir? Sizcə, nə üçün bənövşənin boynu həmişə "əyri" olur? G.Gülhüseynoğlunun hekayəsində təsvir olunanlar sizin sualınıza cavab ola bilərmi?

9. B.Axundovun "Ağlama, bənövşə" şeirindəki mövzu digərlərindən fərqlənir. Bu fərq nə ilə bağlıdır? Sizcə, müəllif bədbin, yoxsa nikbin əhvali-ruhiyyədədir? Müəllif nəyə təəssüf edir? "Bir gün bu torpağa əsl yaz gələr" misrasında *əsl yaz* ifadəsini işlədərkən nəyin arzusunda olduğuna işarə edir? Bu sizin də arzunuzdurmu? Şeirdə adları çəkilən Üzeyir, Pənah kimdir? Müəllif nə üçün şeirində məhz onların adını çəkir?

10. 3-cü mətndə işlənən atalar sözünü müəyyənləşdirin. Sizcə, müəllif nə üçün belə hesab edir? *Pis gün* dedikdə nəyə işarə edilir?

11. "Baharın müjdəçisi" mətnindəki hansı fakt sizə inandırıcı göründü və ya əksinə? Niyə belə hesab edirsiniz?

12. Aşağıdakı cədvəli tamamlayın.

| **Bənövşə mövzusu** | | | |
|---|---|---|---|
| Aşıq Qurbanidə | H.Heynedə | U.Şekspirdə | B.Axundovda |
| | | | |

✓ *Hansı qənaətə gəldiniz?*

13. Sizcə, bənövşəni dərman bitkisi hesab etmək olarmı? Hansı dərman bitkilərini tanıyırsınız? Azərbaycanın bitki örtüyü haqqında hansı məlumatlara maliksiniz?

# BİTKİ ÖRTÜYÜ STRUKTURUNUN MÜXTƏLİFLİYİ

✓ *Xəritəyə əsasən hansı ərazidə bitki örtüyünün az olduğunu müəyyənləşdirin. Səbəbini izah etməyə çalışın.*

✓ *Bitki örtüyü az olan ərazilərdə yaşıllıq salmaq üçün hansı təklifləri verərdiniz?*




14. Xəritə əsasında Azərbaycanın bitki örtüyünün strukturunun müxtəlifliyi haqqında danışın.

Xəritə "Azərbaycan Respublikası Milli Atlası"ndan götürülmüşdür.




- *Azərbaycanın dərman bitkiləri mövzusunda görüntülü təqdimat hazırlayın.*
- *Eyni mövzuda referat da hazırlaya bilərsiniz.*

Meşə

Kolluqlar

Çəmən və çöl-çəmən bitkiliyi

Bataqlıqlaşmış və otlu bataqlıq bitkiliyi

Kserofit seyrək meşələr

Dağlıq kserofit bitkiliyi

Çöl bitkiliyi

Səhra və yarımsəhra bitkiliyi

15. Mətndə (səh. 122–123) mötərizədə verilmiş sözlərdən uyğun olanını seçib işlədin.

16. 1-ci mətndəki *düz* sözünün kontekstə uyğun mənasını izah edin.

17. 6-cı mətnin hansı misralarında məcazi mənada işlənən söz var?

18. 6-cı mətnin üçüncü misrasında mötərizədə verilmiş sözlərdən hansı işlənməlidir? 5-ci mətndə sözlərin təkrar olunması şeirə ağırlıq gətirirmi? Sizcə, bədii nümunələrdə belə təkrarlardan niyə istifadə olunur?

19. Leksik mənaları verilmiş sözləri tapın. Xanalardakı nöqtələrin sayı sözdəki hərfin sayını bildirir.

| | |
|---|---|
| ......... | öz ləyaqət və yüksəkliyini hissetmə |
| ......... | iftixar, mənlik hissi, təmkin |
| ......... | qürur duyulacaq şəxs |

20. Nümunəyə uyğun olaraq məntiqi ardıcıllığı davam etdirin.

pis – yaxşı – xoş; işıq – ...... – ......
ciddilik – ...... – ...... bol – ...... – ......

21. *Yaxşı* sözünü aşağıdakı mənalarda cümlədə işlədin.



22. 1-ci mətndə altından xətt çəkilmiş cümlələrdə vergül işarəsi hansı sözdən sonra qoyulmalıdır? Həmin cümlələrin quruluşunu deyin, sxemini qurun.

23. 2-ci mətndə *bu* əvəzliyindən sonra vergül işarəsinin işlənmə səbəbini deyin.

24. 3-cü mətndə işlənən *bənövşə* sözünü bədii xitab hesab etmək olarmı?

25. 4-cü mətndə altından xətt çəkilmiş feillərin zamanlarına diqqət yetirin. Sizcə, onlar düzgünmü işlənmişdir? Siz necə yazılmasını təklif edirsiniz?

26. 5-ci mətndə hansı söz səhv yazılmışdır?

27. 6-cı mətndə mötərizədəki sözlərdən hansı işlənməlidir?

28. Mətndə (səh. 122–123) fərqləndirilmiş cümlədə durğu işarələrinin düzgün qoyulub-qoyulmadığını deyin.

29. Mətndə (səh. 122–123) 1-ci abzasın 1-ci cümləsində vergül işarəsi hansı sözdən sonra səhv qoyulmuşdur?

30. Mətndə (səh. 122–123) 2-ci abzasın son cümləsində *görə* sözündən sonra vergül işarəsinin düzgün işlənməsini nə ilə təsdiqləyərsiniz?

31. Mətndə (səh. 122–123) altından xətt çəkilmiş cümlənin sxemini qurun, hansı vasitə ilə bağlandığını deyin. Mətndən həmin sxemə uyğun cümlələri tapın.

32. Mətndə (səh. 122–123) işlənən sual cümlələrini fərqləndirin və aşağıdakı fikri tamamlayın.

    *1-ci abzasda işlənən sual cümləsi....*

33. Mətndə (səh. 122–123) yaşıl rəngdə verilmiş cümlədə şəkilçi ixtisar edilib. Sizcə, bu ixtisarların hansı əhəmiyyəti vardır?

34. Mətndə (səh. 122–123) tünd şriftlə verilmiş cümlədə hansı ifadələrin yerini dəyişsəniz, cümlədəki fikir daha aydın ifadə olunar?

35. Mətnin (səh. 122–123) son iki abzasında leksik və qrammatik normanın pozulduğu halları müəyyənləşdirin.

36. Mətnin (səh. 122–123) 4-cü abzasında mötərizədə verilmiş sözlərdən hansının işlənməsi daha düzgündür?

37. Çərçivə içərisindəki mətndə (səh. 123) altından xətt çəkilmiş cümləni məzmun baxımından düzgün yazın.

38. Mətndə çərçivəyə alınmış hissəni elmi üslubun tələblərinə uyğun yazın.

39. Bənövşə haqqında elmi mətn tərtib edib, mətnin uyğun hissəsinə əlavə edin. Öz yazdığınız mətnlə R.Kərimovanın mətnini tutuşdurun. Hansı fərqi gördünüz?

# XOCALIM, AY XOCALIM

(*ixtisarla*)

Bu dağların qoynunda yaşıl bir kənd varıydı,
Əlvan saray, güllü bağ, gen aynabənd varıydı.
Neçə dodağı şəkər, söhbəti qənd varıydı,
Neçə incəbel gözəl, zülfü kəmənd varıydı.
Yoxdu daha, nağıldı,
İtdi, batdı, dağıldı.

Mənim şirin qafiyəm, mənim üççə hecalım,
Xocalım, ay Xocalım!

Ağzından alov saçan silahlar yedi səni,
İştahalar, nəfslər, tamahlar yedi səni.
Bağışlanmaz, yuyulmaz günahlar yedi səni,
Göydə Allahı danan "allah"lar yedi səni,
Heç Allah götürərmi qisasımı gec alım?
Xocalım, ay Xocalım!

Neçə ki yer üzündə yamanlar, pislər yaşar,
İçi dolu qurd olan nankor xəbislər yaşar,
Dumanlı beyinlərdə dumanlı hislər yaşar,
Neçə ki bu şeytanlar, cinlər, iblislər yaşar,
Gərək hər gün, hər saat yağılardan öc alım,
Xocalım, ay Xocalım!



**Quruyub cadar olmuş dodaqlara nə deyim?**
**Kəsilmiş biləklərə, barmaqlara nə deyim?**
**Qar içində buz olmuş ayaqlara nə deyim?**
**Yaxınlar eşitmirsə, uzaqlara nə deyim?**
**Tanrı rəva bilməsin, mən bu dərdlə qocalım,**
**Xocalım, ay Xocalım!**

**Sənə yas verənlərə yas dalınca yas gərək,**
**İgidlərim öyməli, oğullarım xas gərək.**
**Dəmirdən geyim gərək, poladdan libas gərək,**
**Ölümə ölüm gərək, qisasa qisas gərək,**
**Gərək səndən ötəri qala yıxım, bürc alım,**
**Xocalım, ay Xocalım!**

**Töküldülər üstünə quduz kimi, ac kimi,**
**Şumladılar yer kimi, qırdılar ağac kimi,**
**Dağıtdılar çöllərə əsir, yalavac kimi.**
**Səni qaldırammasam başım üstə tac kimi,**
**Tarixin yaddaşında çətin qalxım, ucalım,**
**Xocalım, ay Xocalım!**

**Yerbəyer eləməmiş sevincimi, dərdimi,**
**Bir-birindən seçməmiş mərdimi, namərdimi,**
**Əjdahalar əlindən qurtarmamış yurdumu.**
**Tanrının qırmancına döndərməmiş ordumu.**
**Qoy gəlməsin ölümüm, qoy çatmasın əcəlim,**
**Xocalım, ay Xocalım!**

***Zəlimxan Yaqub***

- Elə hesab edin ki, xaricdə təhsil alırsınız və ya beynəlxalq olimpiadanın qalibisiniz. Digər ölkələrdən olan yaşıdlarınız sizdən Xocalı soyqırımı barədə danışmağı xahiş edirlər.
  - Əvvəlcə nədən başlayardınız?
  - Xocalı soyqırımını necə təqdim edərdiniz?
  - Hansı məqamları ön plana çəkərdiniz?

## Xocalı – qan yaddaşımız!





# 5 MƏN BİR QADINA AŞİQƏM...

(*ixtisarla*)

Mən bir qadına aşiqəm. Onun sədaqətinə, mətanətinə, mərhəmətinə heyranam, ona vurğunam.

O elə qadındır ki, öz vəfası ilə bütün dünyanı heyrətə gətirir.

O elə bir qadındır ki, Dəli Domrulun qadını kimi canını belə ərinə qurban verə bilər.

O elə bir qadındır ki, Qazan xanın arvadı, Uruzun anası Burla xatun kimi ərinin, oğlunun köməyinə çatmaq üçün at minər, silah qurşanar.

O elə bir qadındır ki, Əhməd Cavadın Şükriyyəsi kimi nəinki can yoldaşının eşqinə bütün var-dövlətini, hətta Sovet imperiyasının "Cavad təxəllüsündən vaz keç, sən və övladların rahat yaşasın" fikrinə: "Mən Cavaddan ötrü atamı, anamı, var-dövlətimi atdım, deyirsiniz, indi bu şərəfsizlərə görə ondan vaz keçim? Bu mümkün deyil", – deməyi bacarar.

O elə bir qadındır ki, iki türk dövlətini Sara xatun kimi sülhə gətirər, barışı təmin edər.

O elə bir qadındır ki, Şah İsmayılın qadını kimi meydanda ona arxa durar!

O elə bir qadındır ki, namus və qeyrətini atası, qardaşı, əri üçün deyil, şəxsən özü üçün qoruyar!



Natəvan



Sara xatun



Tomris

Şəfiqə Əfəndizadə



Ağabacı Rzayeva



**Qadının həyatı sevgi, duyğu, dözüm və fədakarlıqdan yoğrulub.**

***Onore de Balzak***



Mehriban Əliyeva



Həmidə Məmmədquluzadə



Şükriyyə Cavad



Turan Cavid



Şəfiqə Axundova

O elə bir qadındır ki, heç vaxt əzilməyi, alçaldılmağı, qovulmağı qəbul etməz, istənilməyən yerdən öz arzusu ilə gedər, qisasını Tomris kimi alar.

O elə bir qadındır ki, özü böyük bir güc olmasına baxmayaraq, elinin adət-ənənəsinə Şirin kimi hörmət edər, baş əyər!

O elə bir qadındır ki, Turan xanım kimi atasının (Hüseyn Cavid) ruhuna daim sadiq qalar, öz xoşbəxtliyini haqqa qurban verə bilər!

O elə bir qadındır ki, öz oğlunu vətən yolunda qurban deyib başına xına yaxa bilər!

O elə bir qadındır ki, öz yaylığını ayaq altına atmaqla qardaş qırğınının qarşısını ala bilər!

O elə bir qadındır ki, onun haqqı Tanrı haqqına bərabər tutular!

O mənim qartal baxışlı xalqımın övladıdır! O, gözəldir, o, safdır, o, həyat dolu şən baxışlıdır, o, əsrarəngizdir, o, ətəklərini dalğalar yuyan qayalar kimi məğrur, ən zəif yad nəfəs üçün lalə kimi zərifdir.

Mən ona aşiqəm! Mən ona məftunam!

O bir türk qadınıdır! O, Azərbaycan qadınıdır!

**Şəmil Sadıq, "Füyuzat" jurnalından**

1. Verilmiş nümunələri oxuyun. Bu nümunələrdə qadına olan yüksək münasibət haqqında danışın.

Rəsul Rzanın Nigara 1957-ci ildə, toy günlərindən 20 il keçərkən səfərdən – Moskvadan yolladığı bir teleqram qalır:

"Nigar, əzizim!

İyirmi il əvvəl, boranlı bir fevral günü biz səninlə əl-ələ verib həyatın mürəkkəb, çətin yollarına çıxdıq. Bu iyirmi il boyunda bütün sınaqlardan keçib mətanəti sarsılmayan ruhun, şəfqəti azalmayan qəlbin, hərarəti soyumayan mərd əllərin üçün sağ ol! Əgər günlər geriyə vərəqlənsə, gəncliyim qayıtsa idi, inan ki, mən ömrümü səninlə bağlayar, həyatın daha çətin yollarında tərəddüdsüz səninlə əl-ələ verib gedərdim. Qoy üç sevimli balamızın sevinc və səadəti gələcək günlərimizi bəzəsin. Qoy məhəbbətimizin hərarəti onları hər cür fırtanalardan qorusun. Vəfa və sədaqətin qarşısında baş əyirəm".

✓ *R.Rzanın məktubunda Nigarın haqqında dediyi hansı fikirlər "Mən bir qadına aşiqəm" mətninin ilk cümlələri ilə səsləşir?*

Dörd ay vardı, ananın gözləri yol çəkirdi,
Başqa bir dərdi yoxdu, oğul dərdiydi dərdi.
Sorurdu: – "Balam hanı?" – Hər cəbhədən gələndən
Ondan xəbər gəlməyir, xəbər gəlir öləndən.
Yerəmi batdı oğlum, göyəmi çıxdı oğlum?
Bəlkə, mən yanılmışam, əzəldən yoxdu oğlum?!
El bilir, uşaqlıqdan o, naxələf olmayıb.
Ürəyimə damıb ki, oğlum tələf olmayıb…

*S.Rüstəm*

Necə rəhmlidir, necə amansız,
Necə mehribandır qadın ürəyi!
Sən onu sındırsan, bil ki, a qansız,
Ağlayan kamandır qadın ürəyi.

Daşı da əridər, daş da olar o,
Əriyib gözlərdə yaş da olar o.
Bahar da olar o, qış da olar o,
Damladır, ümmandır qadın ürəyi.

*T.Bayram*

> Erkək tinətliyəm, olsam da qadın,
> Hər işi bəllidir mənə dünyanın.
> Mən də bir aslanam, düşünsən bir az,
> Aslanın erkəyi, dişisi olmaz.
>
> *N.Gəncəvi*



✓ *Miniatürü şifahi şəkildə təsvir edin və Nizami Gəncəvinin misraları ilə əlaqələndirin.*

2. Nümunələrlə bağlı fikirlərdən hansıları düzgün hesab edirsiniz?
   1. Mətnlər fərqli üslubdadır.
   2. Mətnlərdən ikisi bədii, ikisi publisistik üslubdadır.
   3. Mətnlərdən ikisi bədii, biri publisistik, digəri işgüzar üslubdadır.
   4. Mətnlərin hər birində müəlliflərin fərdi üslubu özünü göstərir.
   5. Mətnlərdən üçü bədii, biri publisistik, digəri işgüzar üslubdadır.
3. S.Rüstəmin şeirində təkrarları müəyyənləşdirin, onların rolu haqqında danışın.
4. Hər bir nümunəyə əsasən Azərbaycan qadınlarını xarakterizə edin, fikirlərinizi 3-4 cümlə ilə ifadə edin.

5. Mətndə (səh. 132–133) hansı tarixi şəxsiyyətlərin adı çəkilir? Bu adları sadalamaqla müəllif nəyi diqqət mərkəzinə çatdırmaq istəyir?

6. Nə üçün müəllif  xalqını qartal baxışlı hesab edir?

7. H.Cavidin *Qadın gülərsə, bu issız mühitimiz güləcək, Sürüklənən bəşəriyyət qadınla yüksələcək* misralarını mətndən istifadə etməklə təsdiqləyin.

8. Mətnə (səh. 132–133) əsasən Azərbaycan qadınının mənəvi keyfiyyətlərini sadalayın.

9. Mətndə (səh. 132–133) qadın hansı obyektlərlə müqayisə olunur və bu müqayisə nəyə xidmət edir?

10. *Azərbaycan qadını öz xoşbəxtliyini haqqa qurban verər* dedikdə nə başa düşürsünüz? Turan xanım Cavid haqqında məlumat toplayıb həmin suala cavab verin.

11. Mətnin (səh. 132–133) əvvəlində verilmiş epiqrafla H.Cavidin sözlərini müqayisə edin. Hansı qənaətə gəldiniz?

12. “Mən bir qadına aşiqəm” mətnində hansı fikir daha qabarıq səslənir?
    A) Azərbaycan qadını sədaqətli və vəfalıdır.
    B) Azərbaycan qadını sülhsevər, qəhrəman və cəsurdur.
    C) Azərbaycan qadını elinin adət-ənənəsinə hörmətlə yanaşır və övladlarını da bu ruhda böyüdür.
    D) Ən yaxşı keyfiyyətlərə və zəngin mənəvi aləmə, bütün insani dəyərlərə malik ən ali varlıq Azərbaycan qadınıdır.
    E) Azərbaycan qadını bütün dövrlərdə aparıcı mövqeyə malik olmuş, xalqın taleyində əhəmiyyətli rol oynamışdır.

13. Mətndə (səh. 132–133) sadalanan fikirləri real həyatdan və tarixi faktlardan nümunə gətirməklə əsaslandırın.

14. Sizcə, mətnlərdə hansı dəyərlərin təbliği vardır?

15. Tarixdən məlumat toplamaqla Azərbaycan qadınının cəmiyyətdəki rolu və inkişaf yolları haqqında danışın.



16. Mətndə (səh. 132–133) 1-ci cümlədə altından xətt çəkilmiş sözləri elə sinonimləri ilə əvəz edin ki, məzmunda dəyişiklik olmasın.

17. Uyğunluğu müəyyənləşdirin.

| | |
|---|---|
| 1 Mən qadınlarda zahiri gözəlliyi deyil, | 1 hörümçəklər tor qurar. (*Azərbaycan atalar sözü*) |
| 2 Dünyanı yaşayış üçün | 2 gənc ikən xoşbəxtliyimiz üçün çalışır, qocalanda isə təsəlli verir. (*A.Avqustin*) |
| 3 Qadınsız evdə | 3 ruhun gözəlliyini axtarıram. (*U.Şekspir*) |
| 4 Qadın evin açarı kimidir, | 4 yararlı hala salan qadınlardır. (*F.Şiller*) |
| 5 Qadın elə bir mələkdir ki, bizi uşaq ikən qoruyur, | 5 gərək onu itirməyəsən. (*Yapon atalar sözü*) |

✓ *Hansı hikmətli sözü daha çox bəyəndiniz? Nə üçün?*

18. Mətndə (səh. 132–133) 2-ci cümləsində işlənmiş *sədaqət* sözünün 3-cü cümlədəki sinonimini tapın.

19. “Mən bir qadına aşiqəm” mətnində hansı cümlə təkrarlanır? Sizcə, bu ifadənin təkrarı nə ilə bağlıdır? Həmin ifadənin içərisində müəllifin hansı düşüncələri və hisləri öz əksini tapmışdır?

20. “Mən bir qadına aşiqəm” mətnində işlənmiş cümlələrin quruluşu haqqında danışın. Nə üçün mətndə həmin cümlələrin istifadəsi çoxluq təşkil edir?

**Bəzən bədii nümunələrdə eyni söz və ya ifadə misranın əvvəlində və ya sonunda təkrarlanır. Belə ifadələrə təkrirlər deyilir.**

- Könlümün sevgili məhbubu mənim,
  *Vətənimdir, vətənimdir, vətənim*. (*A.Səhhət*)

- *Şəhidlər* Vətən daşı, yurdun vətəndaşıdır,
  *Şəhidlər* azadlığın uca heykəl daşıdır. (*O.Zəngilanlı*)

**Bu ifadələr bədii nümunələrə canlılıq, emosionallıq gətirir, diqqəti daha çox mətnin əsas ideya və məzmununa yönəltmək üçün işlədilir.**

21. Aşağıdakı cümlələri cədvəl əsasında qruplaşdırın.

1. Qəlbindəki ilk yara tazaydı, builkiydi, Onu bu hala salan nobarıydı, ilkiydi. (*S.Rüstəm*) 2. Sahillərində yaşayan hər xalq, hər qəbilə səni öz dilində bir cür adlandırıb... Cabbarlının “Quzğunu” göy Xəzərim mənim! Sahillərindən kimlər keçib, sularında kimlər üzməyib? Neçə cahangirlər at oynadıb, nə qədər vətən oğlu-qızı azadlığını qanı bahasına müdafiə edib? (*Ə.Cəfərzadə*) 3. Tərlanım, tərlanım, bir qalx havaya, Bir yazığın gəlsin mən binəvaya. (*S.Vurğun*) 4. Bir tərəf sıldırım qayalıq, təpəlik, bir tərəf dəniz. (*Ə.Cəfərzadə*) 5. Havada bahar iyi duyulurdu. Soyuq idisə də, bu mart soyuğu idi, baharın ərəfəsi. (*Anar*) 6. Haradan? Sinifdə otuz adam var. Adam çox, rübə az qalıb. Mənə növbə çatmaz. (*Anar*) 7. Ah, mən gündən-günə bu gözəlləşən İşıqlı dünyadan necə əl çəkim? (*M.Müşfiq*)

| Təkrir | Bədii sual | Bədii təzad | Bədii xitab |
|---|---|---|---|
| | | | |
| | | | |

22. Aşağıdakı məlumatlardan istifadə etməklə Azərbaycanın ilk qadın yazıçılarından maarifçi Şəfiqə Əfəndizadə haqqında mətn tərtib edin.

**Şəfiqə Əfəndizadə**

- 1882-ci ildə tanınmış pedaqoq Məmmədəmin Şeyxzadənin ailəsində anadan olması
- 1896-cı il. 14 yaşında Nuxa şəhərində xüsusi qadın məktəbində müəllim kimi
- 1901-ci il. Tiflisdə Zaqafqaziya ruhani idarəsində müəllimlik attestatı alması
- 1910–1920-ci illərdə rus-tatar (Azərbaycan) qadın məktəbinin müəllimi kimi
- ilk Azərbaycan qadın jurnalist
- H.Z.Tağıyevin təşəbbüsü ilə Bakı şəhərində yenicə yaradılmış rus-müsəlman qadın məktəbində ana dili müəllimi
- 1903-cü il. “Şərqi-rus” qəzetində publisist kimi ilk fəaliyyəti
- 1959-cu il. Bakı şəhərində vəfat etməsi
- ilk Azərbaycan dili müəllimi
- pedaqoq, publisist və yazıçı
- ilk Azərbaycan qadın yazıçısı

**Qeyd.** Bakı şəhəri Yasamal rayonundakı 13 nömrəli tam orta məktəb hazırda Şəfiqə Əfəndizadənin adını daşıyır.

6

. . .

Yumurtanı göyçək, güllü boyardıq,
Çaqqışdırıb sınanların soyardıq,
Oynamaqdan bircə məgər doyardıq,
Əli mənə yaşıl aşıq verərdi,
İrza mənə novruzgülü dərərdi.

*M.Şəhriyar*



Bəlli olduğu üzrə, hər bir xalqın həyatında, məişətində çoxlu bayramlar vardır. Bununla belə, bu bayramların arasında hər biri öz mərasimlərinin, ayinlərinin, oyun-əyləncə, tamaşalarının zənginliyi ilə seçilən, sevilən, məşhur olanları da var. Sözsüz ki, Azərbaycan xalqının da elliklə keçirdiyi ən gözəl bayram Novruz bayramıdır.

Baharın, yazın, bununla bərabər, həm də yeni təsərrüfat ilinin başlanması şərəfinə böyük təntənə ilə hər il keçirilən Novruz bayramı, sözsüz ki, birdən-birə başlanmır. Belə ki, qədim ulu əcdadlarımız (*çevrəsindəki, əhatəsindəki*) digər hadisə və proseslər kimi ilin fəsil, ay, günlərinin məzmunundakı mahiyyəti ayrıca dəyərləndirmiş, əlamətlərinə, kəsb etdikləri xüsusiyyətlərə görə onlara adlar da vermişdir. Misal üçün, fevralın son və martın ilk ongünlüyü Boz ay, aprel – leysan, may –

**ORFOQRAFİYA**

Necə yazılmalıdır?

- əski – əsgi
- hisslər – hislər
- mahiyyəti – mahiyəti
- ilaxır – ilaxir

**ORFOEPİYA**

Hansı düzdür?

- [məişət] – [məyişət]
- [elliklə] – [ellix́nən]
- [zənginliyi] – [zənginniyi]
- [təsərrüfat] – [təsə:rrüfat]

ağlar günlər, iyun – vaynənə, iyul – qorabişirən, avqust – quyruqqovan, elqovan, sentyabr – solyan, oktyabr – elköçdü, noyabr – qırovdüşən və s. adlanır. Xalq arasında avqust ayına həm "quyruqdonan", həm də "quyruqdoğan" ay deyirlər. Avqust ayının 5-i ilə 10-u arasında yaylaq otuna gözlə görünməyəcək dərəcədə şeh düşür. Bu otları otlayan quzuların dodağına həmin şehdən yara düşür.

Qədimdə qoyunçunun ixtiyarında indiki təqvim yox idi və onlar lazım olan vaxtı bilmək üçün zaman-zaman sınaqdan keçirdiyi təcrübələrinə arxalanırdı. *O, kəsilmiş qoyunun quyruğundan bir parça alıb sininin içində axşamdan ayaza qoyur.* Səhər durub baxırmış. Əgər sinidəki quyruqda donma əlaməti varsa, deməli, yerə quzuların ağzına yara salan şeh gəlib. Quzuları yaylaqdan arana endirmək vaxtıdır. Bu səbəbdən də avqusta "quyruqdonan ay" deyilir. Ayın "quyruqdoğan" adlanması isə ulduzlarla bağlıdır. Belə ki avqust ayında göy, səma gecələr çox aydın, açıq olduğundan quyruqlu ulduzlar da görünür. Buna görə avqust ayı həm də "quyruqdoğan ay" adlanır.

Çox əski çağların məhsulu olan xeyir-şər dünyagörüşü adamlarda qışa şər, demenoloji qüvvələrin əməli kimi baxmaq hissləri aşılayıbmış. Odur ki, bu "yağı"nı – qışı saymamaq, ona qarşı mübarizə aparmaq cəhdi hələ qış fəslinin başlanmasına bir ay qalmış icra olunan xüsusi bir mərasimdə də açıq-aydın görünməkdədir. "Kövsəc" adı ilə tanınan bu mərasim çox-çox qədimlərdə "Azər" adlanan bayramın mərasimlərindən biridir. "Azər" bayramı və onun digər mərasimləri, ayinləri unudulsa da, "Kövsəc" mənbələrdə qoruna-qoruna yaşamışdır.

"Kövsəc" mərasimi, adətən, noyabrda – qırovdüşən ayda icra edilərmiş. Mərasim iştirakçıları, əsasən, bədənə istilik verən yeməklər, misal üçün, yağlı ət, istiot qatılmış xörəklər yeyərmişlər. Özünü gülməli vəziyyətə salmış, paltarının cır-cındırı tökülən bir nəfər qatıra minib meydana çıxır və əlində də tükü tökülmüş qarğa müqəvvası tutarmış. Yan-yörədəkilərin onun üstünə soyuq su (*səpmələrinə, çiləmələrinə*) baxmayaraq, o, çox vaxt saymazyana "İstidir! İstidir!" – deyə bağırarmış (*Y.V.Çəmənzəminli*).

Çox qədim zamanlarda keçirilmiş "Səddə" bayramı da insanların qışa qarşı münasibətlərini, qışdan qorxmadıqlarını nümayiş etdirən bir bayramdır. **Novruza nə az, nə çox, düz əlli gün qaldığını bildirmək üçün icra olunan "Səddə" bayramında insanlar axın-axın gəlib əvvəlcədən təyin olunmuş meydana (toplaşmaq).** Meydanda böyük bir tonqal (**yandırmaq**). Toplaşanlar əl-ələ tutub tonqalın çevrəsinə (**dolanmaq**), şənlik (**keçirmək**), rəqs edib əyləncəli tamaşalar (**göstərmək**).

N.Gəncəvi "İsgəndərnamə" poemasında "Səddə" bayramını belə təsvir etmişdir:

Novruz ilə Səddə bayramlarında
Ayinlər yenidən olurdu bərpa.
Əllər al xınalı, üzlər bəzəkli
Hər yandan gəlirdi coşqun ürəkli.

Novruzqabağı qeyd olunan dörd ilaxır çərşənbə həmin gün qeyd edilən mərasimlərin, ayinlərin zənginliyi ilə daha məşhurdur. Eldə-obada, kənddə-kəsəkdə hamının, hər evin təntənə ilə qeyd etdiyi bu çərşənbələrin hər birinin ayrı-ayrılıqda müxtəlif adları da vardır. Misal üçün, dörd ilaxır çərşənbənin birincisi müxtəlif bölgələrdə müxtəlif adlarda tanınır: "Əzəl çərşənbə", "Müjdəçi çərşənbə", "Muştuluqçu çərşənbə", "Toz çərşənbə", "Yel çərşənbə" və s.

7 İlaxır çərşənbənin maraqlı ayinlərindən biri "ağac-qorxutma"dır. 1 Bar verən ağac bardan qaldıqda deyirlər ki, çilləyə düşüb qısırlaşıb. 4 Çərşənbə günü ağac sahibi əlinə balta alıb Ey barsız bəhrəsiz ağac sən mənim nəyimə lazımsan Kəsəcəyəm səni deyib ağacın üstünə hücum çəkir. 3 Baltanın kötüyü ilə, ağzı ilə astaca ağacın gövdəsinə vurub onu səksəndirir. 6 Bu zaman başqa bir nəfər, daha çox el ağsaqqalı balta vuranı tutub saxlayır və deyir: "A kişi, kəsmə ağacı. Mən onu zaminə götürürəm. 8 İnanıram ki, qarşıdakı ildə o, bar verəcək". 2 Bu vaxt evdəkilərdən ayağı sayalı, əli bərəkətli sayılan ağacın dibinə şərbət səpir, buraya noğul, nabat, qovurğa, səməni qoyur. 5 Həmçinin bağın bir küncündə çır-çırpıntı yandırıb tüstüsünü ağaclara verirlər ki, ağaclar xəstələnməsin, meyvələrinə qurd düşməsin.

**Bəhlul Abdulla, Tofiq Babayev, "Novruz ensiklopediyası"ndan**



Xalq deyimlərinə inanırsınızmı? Onları sınaqdan keçirmisinizmi? Aşağıdakı inancları oxuyun, onlara münasibət bildirin.

- Gecə evdən duz, od verən adam evinin bərəkətini verər.
- Gecə ev süpürmək ev-eşiyin bərəkətini, xeyrini süpürməkdir.
- Çörəyi ayaq üstə yesən, bərəkəti qaçar.
- Əncir ağacı altında yatan ağırlaşar.
- İldırım çaxanda dəmirə əl vurmazlar.
- İlin axır çərşənbəsində qulaq falı düz deyər.
- İlin axır çərşənbəsində səhər tezdən sudan atlananın bəxti açılar.
- İlin axır çərşənbəsində səhər tezdən özünü axar su ilə yuyan gözəlləşər.
- Soğan çox soyulan evə naxoşluq gəlməz.
- Səfərə çıxan adamın arxasınca su səpsən, səfərdən tez qayıdar.

*"Azərbaycan klassik ədəbiyyatı kitabxanası" kitabından*

(*ixtisarla*)

Novruzun əsasında əski xalq mərasimləri dayanır. Novruzun rəsmi bayram kimi keçirildiyi qədim və orta əsrlərdə o, dini əfsanələrlə əlaqələndirilmiş və ona dini bir mahiyyət qazandırmağa cəhd göstərmişlər.

"Novruz" hərfi mənada yeni gün deməkdir. İfadə etdiyi mərasim semantikasına görə keçidin bitməsi və yeni nizamın başlanğıcıdır. Novruza Bozqurd, Çağan, Ergenekon, Nevruz, Sultan Nevruz, Mart Doqquzu, Novruz və s. də deyilmişdir.



Novruz haqqında məlumatlara Əbu Reyhan Biruninin "Asarul Baqiye" ("Pamyatniki minuvşix pokoleniy"), Mahmud Kaşğarlının "Divanü Lügət-it Türk", Yusif Balasaqunlunun "Kutadqu biliq", Ömər Xəyyamın "Novruznamə", Nizamülmülkün "Siyasətnamə", Nizami Gəncəvinin "İsgəndərnamə" əsərlərində rast gəlirik.

Biruninin əsərindən, Ömər Xəyyamın "Novruznamə"sindən aldığımız məlumatlara görə, Novruzda yerə su səpər, yaxınlara hədiyyə verər, şirniyyat paylayar, yeddi illik məhsulu müəyyənləşdirər, digər mərasimləri icra edərmişlər. Novruz günündə süfrəyə buğda, arpa, darı, qarğıdalı, noxud, mərcimək, düyü, küncüt və ya lobya unundan hazırlanmış çeşidli çörəklər düzərmişlər. Süfrənin ortasına yeddi cür ağacın (söyüd, zeytun, heyva, nar və s.) zoğunu, yeddi ağ piyalə, ağ dirhəm və ya yeni dinar

qoyarmışlar. Müxtəlif kağızlara isə “artıb”, “artacaq”, “artan” sözləri yazılarmış.

Novruz bayramı şənliklərində kütləvi gəzintilər, xalq oyunları, yarışlar, rəqs və nəğmələr oxunması, məzhəkəçilərin və kəndirbazların çıxışları olurdu. Novruz bayramında müharibələr və qarşılıqlı çəkişmələr dayandırılır, sülh müqavilələri bağlanır, hətta dəfn belə növbəti günlərə təxirə salınırdı. Bu bayram o qədər şad və şən bir bayram olmuşdur ki, o günlərdə təkcə təmtəraqlı təntənələr deyil, eyni zamanda, xəstələrə müstəsna diqqət və qayğı göstərilmiş, qohum və dostlara baş çəkilmiş, qohum və yaxınların məzarları ziyarət edilmiş, bir-birinə qarşılıqlı inam, xoş münasibət kimi ümumbəşəri dəyərlər üstün tutulmuşdur.

Novruzun əkinçilik təqvimi ilə bağlı olması tarixdən məlumdur. Belə ki bu bayram şimal yarımkürəsində 20–21 martda baş verən yaz bərabərləşməsi ilə əlaqələndirilir. Təbiətin oyanması, canlanması, bitkilərin yenidən öz yaşıl rənginə bürünməsi min illər boyu müşahidə olunmuş və təcrübədə təsdiqlənmiş bir gerçəklikdir. Belə bir yeniləşmə gününün başlanğıcı şəmsi-günəş təqviminin ilk ayının ilk gününə (21 mart) təsadüf edir. Buna görə də həmin günü Novruz adlandırıblar.

Novruz bayramının mənşəyi, onunla bağlı əsatirlər, miflər qədimdir. Orta əsrlər İran əfsanələrinə əsasən, Novruz bayramı ilk dəfə mifik İran şahları Kəyümərs və ya Cəmşid tərəfindən tətbiq olunmuşdur.

Əl Biruninin yazdığı rəvayət isə Novruzun yaranmasını Azərbaycanla bağlayır. Bu rəvayətə görə, Cəmşid Azərbaycana gələndə qızıl taxta oturur və insanlar onu öz çiyinlərində aparırlar. Günəşin şüası Cəmşidin üzərinə düşdükcə insanlar onu görürlər və sevincdən həmin günü bayram edirlər.

*Ağaverdi Xəlil, “Xalq qəzeti”, 2010-cu il*



“Azərbaycanfilm” kinostudiyasının istehsal etdiyi “Bəyin oğurlanması” filmində yağışın yağması ilə bağlı bir səhnə var. Kəndin ağsaqqalının verdiyi proqnoza hava haqqında məlumatı verən qız əvvəlcə inanmır. Ancaq hava dəyişkənliyi qızı ağsaqqalın dediyi sözə inanmağa məcbur edir. Filmdə həmin səhnəyə baxıb *deyimlər və inanclar xalqın təcrübəsinin ümumiləşməsidir* fikrini təsdiq edin.

1. Mətni (səh. 140) adlandırın.
2. Mətn (səh. 140) əsasında dialoq qurun. Bunun üçün nə edəcəyinizi əvvəlcədən planlaşdırın.
3. Mətnin (səh. 140–142) abzasları arasındakı əlaqəni bərpa etmək üçün hansı cümlələr yazardınız?
4. Mətnə (səh. 140–142) əsasən nə üçün Novruzun müqəddəs bayram hesab edildiyini deyin.
5. Bu hissəni mətnin hansı abzasına yerləşdirsəniz, ardıcıllıq pozulmaz?

   Novruz bayramında, çərşənbə günlərində keçirilən oyun-əyləncələrdən ən maraqlısı yumurta döyüşdürməkdir. Yumurta Novruz bayramının əsas atributlarından biridir. Novruzun dörd çərşənbəsinin əlamətləri öz ifadəsini yumurtada tapıb. Belə ki yumurta qabığının dairəviliyi dünyanı, pərdəsi, bir növ, havanı, ağı suyu, sarısı isə odu simvollaşdırır. Yumurtanın daha çox sarı, qırmızı, yaşıl rənglərlə boyadılması da, sözsüz ki, Günəşlə, baharla, təbiətin yaşıllaşması istəyi ilə bağlıdır.

6. Mətndə (səh.142) sonuncu abzasdan hansı cümləni çıxarsanız, məzmuna xələl gəlməz?
7. M.Şəhriyardan epiqraf kimi verilmiş nümunəni mətnlə əlaqələndirin.
8. Mətnin (səh.142) son abzasında cümlələrin ardıcıllığını müəyyənləşdirin.
9. Mətnə (səh. 140–142) əsasən müəyyənləşdirmək olar:
   1. Novruz ümumxalq şənliyidir.
   2. “Kövsəc” mərasimi tədricən unudulub getmişdir.
   3. “Kövsəc” vaxtilə mövcud olmuş “Azər” bayramının mərasimlərindən biridir.
   4. Qədimdə təqvim olmadığı üçün insanlar daha çox sınaqdan çıxardıqları təcrübələrə əsaslanırdılar.
   5. Novruz bayramı yalnız Azərbaycanda keçirilir.
   6. “Kövsəc” mərasimi payızın üçüncü ayında qeyd edilirmiş.
10. Hər iki mətndən Novruz bayramı ilə bağlı faktları seçib qruplaşdırın. Sizin üçün nə yeni oldu? Siz bu məlumatlara nəyi əlavə etmək istərdiniz?
11. Novruz bayramı ilə bağlı hər iki mətnin üslubunu müəyyənləşdirin. Əgər üslubları fərqləndirə bildinizsə, onların oxşar və fərqli cəhətlərini deyin.

12. Mətndə (səh.143) bunlardan biri haqqında danışılmır:

A) Novruz sözünün etimologiyasından
B) Novruz sözünün mənşəyindən
C) Novruz bayramının müxtəlif adlarla adlandırılmasından
D) Novruzda keçirilən adət-ənənələrdən, tədbirlərdən
E) Novruzun elmi izahından

✓ *Novruz bayramının daha hansı atributlarını tanıyırsınız?*

13. Mətndə (səh. 141) fərqləndirilmiş cümlədə hansı sözü çıxarsaq, məzmunda dəyişiklik baş verməz?

14. Mətndə (səh. 141–142) mötərizədə verilmiş sözlərdən uyğun olanını seçin.

15. *Soyuq* sözünün mətndə (səh. 141) həqiqi, yoxsa məcazi mənada işləndiyini deyin. *Soyuq hava, soyuq münasibət, soyuq divar, soyuq baxış, soyuq rəftar* birləşmələrinin hansının həqiqi, hansının məcazi mənada olduğunu əsaslandırın.

16. Bunlardan biri *məzhəkəçi* sözünün izahıdır.

- dram teatrının aktyoru
- oyun və yaxud gülməli sözlərlə insanları güldürən adam

17. Mətnin birinci abzasının son cümləsində işlənmiş (səh. 140) *gözəl* sözünü onun sinonimləri ilə əvəz etmək olarmı?

18. *Gözəl* və *göyçək* sözlərini uyğun misralarda yerləşdirin.

....... bir bağçada bir bülbül vardı,
Budaqdan-budağa uçub qonardı. (*S.Vurğun*)

Gülür təbiətin o ...... qızı
Üfüqlər qırmızı, göylər qırmızı. (*S.Vurğun*)

19. *Gözəl* sözünü *yaraşıqlı, məlahətli, mənzərəli, səfalı, əlverişli, yararlı* mənasında cümlələrdə işlədin.

20. M.Şəhriyarın *Yumurtanı göyçək boyardıq* cümləsində hansı norma pozulmuşdur? Niyə belə hesab edirsiniz?

21. Məntiqi ardıcıllığı tamamlayın.

| | |
|---|---|
| Yaz – qış | yaylaq – ...... |
| böyük – ..... | kütləvi – ..... |

22. Mətndə (səh. 140–141) altından xətt çəkilmiş hansı sözlərdən sonra vergül işarəsi səhv qoyulmuşdur?

23. Mətndə (səh. 141) tünd şriftlə verilmiş cümləni sadə şəkildə yazın.

24. Mətndə (səh. 141) 6-cı abzasda mötərizədə verilmiş feillər hansı zamanda işlənməlidir? Niyə belə hesab edirsiniz?

25. Mətndə (səh. 142) yaşıl rəngdə verilmiş cümlədə durğu işarələrini bərpa edin. Həmin cümlənin hansı sxemə uyğun olduğunu deyin.

26. Mətndə (səh. 140–142) hansı cümlələrdə fikir aydın deyil? Həmin cümlələri seçib dilimizin qrammatik quruluşuna uyğun şəkildə yenidən işləyin.

27. Mətndə (səh. 143) Novruz adətlərindən danışarkən müəllif daha çox nəqli keçmiş zaman feillərindən (*edərmişlər, görərmişlər* və s.) istifadə edir. Sizcə, bu nə ilə bağlıdır?

28. Novruz bayramı, onun tarixi və yaranması ilə bağlı təqdimat hazırlayın.

İnşa da yaza bilərsiniz.

Mart ayı bayramlar ayı olsa da, eyni zamanda həmin ayın son günü tariximizin daha qanlı və şanlı bir səhifəsinin anım günüdür.

Novruz tətili günlərində “Mart ayı: Sevinc və kədər” mövzusunda dəyirmi masa keçirin. (*Fərqli ad seçə bilərsiniz.*)

Dəyirmi masanı keçirmək üçün:

- İlk növbədə, məqsədinizi müəyyənləşdirin.
- Material toplayın.
- Dəyirmi masaya kimlərin dəvət olunacağı barədə düşünün.
- Müzakirə olunacaq məsələləri müəyyənləşdirin.
- Təkliflər hazırlayın.
- Nəticə.
- Dəyirmi masaya valideynlərinizi də dəvət edin.

*Həmin tarixlə bağlı sorğu da keçirə bilərsiniz. Sorğunun nəticələrini dəyirmi masada işıqlandıra bilərsiniz.*

# IV AZƏRBAYCAN

1. Bakı
2. Azərbaycan qoruqları
3. Azərbaycan xalça sənəti
4. Azərbaycanın milli geyimləri
5. Azərbaycan Silahlı Qüvvələri
6. Vətən

Azərbaycanın Prezidenti kimi mən çalışacağam ki, hər bir vətəndaş, hər bir şəxs bu böyük layihələrdən, Azərbaycanda gedən inkişafdan bəhrələnsin. Bu mənim vəzifəmdir, mənim borcumdur. Mən də bu vəzifəni ləyaqətlə yerinə yetirəcəyəm.

...Biz gələcəyə baxmalıyıq, müasir ölkəyə çevrilməliyik. Həm infrastruktur baxımından, həm dünyagörüşü baxımından, həm təhsil baxımından – bütün parametr baxımından biz müasir dövlət olmalıyıq ki, dünyada və bölgədə öz yerimizi daha da möhkəmləndirək.

**İlham Əliyev,**

*Azərbaycan Respublikasının Prezidenti*

1. Əziz yeniyetmələr! Gəlin biz də düşünək. Görək bizim hər birimizin ölkəmiz qarşısında vəzifəmiz və borcumuz nədir?
2. Daha da müasir və inkişaf etmiş dövlət olmaq üçün nə etməliyik?

1

# BAKI



Canımız, gözümüzün nuru, güvəncimiz Bakı... Şəhərlərin ən istəklisi, əzizi...

Bakı bir yaşayış məskəni olaraq tarixdən öncə?ki zamanların yadigarıdır. Şəhər Bakının isə, ən azı, 2 min ildən çox yaşı var...

Dəniz yaxasında qoca bir şəhər... **Köpüklü dalğalar altında bu şəhərin nə qədər sirri (*görsənir, gizlənir*) görəsən?**

Bakını görmək, bu qeyri-adi şəhərin gözəlliyinə heyrətlənməmək mümkünmü! Çox insanlar gördü Bakını. Bakı?da çox insanlar gördü. Hamısı heyranlıqla söz açdı, hamı sevdi Bakını...

Bakını sevməmək mümkünmü?

1. Doğma şəhərimiz haqqında verilən hökmü bir cümlə ilə təsdiqləyin (*təsdiq və inkar ədatlarından istifadə etməyin*).

Qara kölgəsi Xəzərin ayna sularında (*bitən, əks olunan*) Qız qalası xalqımızın ləyaqətli adına ucaldılmış abidədir, saflıq və təmizlik heykəlidir!

**ORFOQRAFİYA**

Bitişik, yoxsa ayrı?

- həmdə – həm də
- Bakıda – Bakı da
- gəl ki – gəlki
- öncəki – öncə ki

**ORFOEPİYA**

Düzgün tələffüzü yazın.

- şəhərlər – [ .......... ]
- damarlar – [ .......... ]
- çalarlar – [ .......... ]
- insanlar – [ .......... ]

Bir dön bizım Bakıya bax,
Sahilləri çıraq-çıraq,
Buruqları hayqıraraq
Nərə salır boz çöllərə,
İşıqlanır hər dağ, dərə.

**S.Vurğun**



Qız qalası!

Namus qalası!

Diş-diş qala divarları... Bu keçilməz (*sədd, sərhəd*) Bakıya xoş niyyətlə gələn hər kəsə yüz yerindən yol verib, qapı açıb. Möhtəşəm qala qapıları qonağa ehtiram və məhəbbət nişanəsidir. Ancaq bədxahlar önündə bu qalanın hər daşı bir ox olub, yaman gözlərə bıçaq kimi sancılıb. Küçələri yüz yaşlı bir nənənin mehriban üzü kimi qırış-qırış İçərişəhər... Hər daşında, hər tinində, döngəsində tarixin acı və şirin xatirələri var.

Bakı Şərqin şəhəridir! Məscidlərin qübbələrini, minarə ucalıqlarını günəş nuru yuyur, ay işığı aydınladır. Di gəl?ki Şərqin şəhəri Bakı dünyaya bənzəyir. Şərq, Qərb, Şimal, Cənub – yer üzünün bütün cəhətləri və bu cəhətlərdə binə tutan şəhərin cizgiləri Bakıda qaynayıb qovuşur. Bakı dünyanın şəhəridir!

Bakı həm?də tarixin şəhəridir. Amma onun damarlarından axan qan bu günün, gələcəyin eşqi ilə vurur.

Azərbaycanın (*baş, əsas*) şəhəri, müstəqillik yoluna qədəm qoyan bir məmləkətin paytaxtı Bakı yer üzünün dörd bir guşəsinə səpələnmiş 34 milyonluq soydaşımızın ümid çırağıdır. Bakı övladlarının məhəbbətinə, qüruruna layiqdir!

Zaman-zaman küçələrində isti, tozlu küləkləri at çapan, havası neft qoxuyan, yaşıllığı (*kasad, az*) olan Bakı bu gün yaşıl meydanlar, geniş və nurlu küçələr, parklar, bağlar şəhəridir. Azərbaycanın ən iri yaşayış, sənaye, ticarət, mədəniyyət, elm və təhsil mərkəzidir Bakı...

Mədəni ənənələrin davam etdirilməsi Bakının (*çağdaş, müasir*) görkəminə məzmunlu çalarlar gətirir. Bakı millət və xalq yolunda öz ömrünü şam kimi əridən

görkəmli oğullarını unutmur. Şəhərin ən gözəl guşələrində dahi insanların: Nizaminin, Füzulinin, Nəsiminin, Vurğunun, Cabbarlının, Cavidin neçə-neçə qəhrəmanlarının əyilməz, əzəmətli heykəlləri ucalır.

Bakı Vətən yolunda şəhid olmuş igidləri üçün öz qoynunda ən uca yer ayırmışdır. Şəhidlər xiyabanı ziyarətgahıdır Bakının...

**"Azərbaycan" kitabından**

2. Mətni oxuyun. Onun "Bakı" mətni ilə məzmun bağlılığı olduğunu əsaslandırın.



Bu əziz şəhər tarix boyu ağır, acı günlər də görüb, işğalçı qoşunlarla cəngə də girib. Həmişə də azadlıq savaşlarından ləyaqətlə çıxıb, sınmayıb. Varlığını qoruyub...

Şirvanşah I Xəlilullah zamanında Bakıdakı Şirvanlar sarayının bəzi binaları tikildi. Bu saray tikililəri ansamblı orta əsrlər Azərbaycan memarlığının ən gözəl abidələrindən biri olub, XV–XVI əsrlər ərzində müxtəlif vaxtlarda tikilmiş bir sıra binalardan ibarətdir.

Həmin vaxta qədər Şirvanşahların iqamətgahı Şamaxı şəhəri idi. Lakin XV əsrdən çox möhkəmləndirilmiş qalalardan biri və Xəzər dənizində əsas liman olan Bakının iqtisadi və siyasi yüksəlişi ilə əlaqədar Şirvanşah I Xəlilullah Bakını özünün yeni iqamətgahı seçdi.

*"Azərbaycan" kitabından*

- *Sizcə, hansı hadisələr Şirvanşah Xəlilullahı iqamətgahı dəyişməyə vadar etdi?*
- *Altından xətt çəkilmiş cümləni sadə şəkildə ifadə etməyə çalışın.*

**Professor Sara Aşurbəyli Bakının ən qədim adının "Xunsar" olduğunu yazır. Bu yazılışda olan toponimin tərtibi onun 3 min ildən artıq bir dövr ərzində mövcud olduğunu göstərir. Xunsarın mənası "Günəşə doğru çevrilmiş" deməkdir.**

- *Siz "Bakı" sözünün etimologiyası ilə bağlı hansı məlumata maliksiniz?*

3. Mətni oxuyub məzmununa münasibət bildirin. Mötərizədə verilmiş sözlərdən ən uyğun olanını seçin.

## BAKI VƏ BAKILILAR



Bakı qədim şəhərdir. **Doğrudur, onun məhz hansı əsrdə salındığı hələ dəqiq müəyyən edilməmişdir.** *Lakin Bakının özündə və ətraf kəndlərində arxeoloqların apardığı qazıntılar nəticəsində tapılan tarixi abidələr, saxsı qablar, daş sandıqçalarda dəfn edilmiş adamların sümükləri və sairədən məlum olur ki, onun yaranma tarixi eramızdan əvvəlki əsrlərə gedib çıxır.* 1826-cı ildə Bakıda olmuş görkəmli səyyah Zeynalabdin Şirvani yazırdı: "Bakını Badkubə də adlandırırlar. Çünki bu yerdə daim küləklər əsir. Bəzən elə güclü əsir ki, şəhərin böyük tikililərini də (*xəsarətə, dağıntıya*) uğradır. Buna görə burada evlərin özülünü yonulmuş daşlardan qoyur, həyətləri və damları qırla örtürlər".

"Badkubə" sözünün yaradılması daha sonrakı əsrlərə aiddir. XVIII əsrdən başlayaraq, bir çox mənbələrdə Bakı sözünün bu formasına tez-tez təsadüf olunur. Bu, iki fars sözündən (*düzəldilmədir, əmələ gəlmişdir, yaranmışdır*): "Bad" – *külək*, "kubə" – *döyən* deməkdir. Yəni küləkdöyən. Görünür ki, bu şəhərdə tez-tez şiddətli küləklər əsdiyindən bəziləri onu belə (*adlandırmışlar, çağırmışlar*). Hətta bəzi mənbələrdə Azərbaycan dilində "Yeldöyən" sözünə də rast gəlmək mümkündür. Alimlərin dediyinə görə, şəhərin adı lak sözü "baki"dən (*təpə deməkdir*) əmələ gəlmişdir. O dövrlərdə Bakı təpələr üstündə salındığından bu fikirdə müəyyən dərəcədə bir həqiqət vardır. Türklərin məşhur "İslam ensiklopediyası"nda isə bu sözün Bəy-köy türk sözlərindən düzəldiyi (*iddia olunur, yazılmışdır*). Bəy-köy "baş şəhər" deməkdir.

*Q.İlkin. "Bakı və bakılılar" kitabından*

4. Mətndə (səh. 150–152) hansı üslubların xüsusiyyəti özünü göstərir? Mətnə əsasən həmin xüsusiyyətləri müəyyənləşdirin.

5. Hər üç mətnin üslubunu fərqləndirin.

6. Mətndə (səh. 150–152) hansı cümlələr Bakının qədim tarixə malik şəhər olduğunu təsdiqləyir? *Bakı həm də tarixin şəhəridir* dedikdə nə nəzərdə tutulur?

7. Sizcə, Qız qalasının hər daşında tarixin acı və şirin xatirələri "yaşaya bilərmi"? Cavabınızı əsaslandırın.

8. Mətndə (səh. 150–152) Qız qalasının daha çox bədii təsviri verilmişdir. Siz onun elmi təsvirini verməyə çalışın.

9. Fikirlərdən biri mətnin ideyası ilə səsləşir:

   A) Bakı əbədi və əzəli şəhərimizdir.
   B) Bakı qədim tarixə malikdir.
   C) Bakı gözəl və qədim şəhərdir.
   D) Zəngin tarixə malik Bakı qədim şəhərdir.
   E) Qız qalası Bakının simvoludur.

10. "Bakı" mətni deməyə əsas verir: (*Fikirləri tamamlayın.*)

    1. Bakı qədim tarixə malikdir.
    2. ______________________________
    3. ______________________________
    4. ______________________________

11. "Bakı" mətnindəki hansı məqamlar Q.İlkinin fikirləri ilə üst-üstə düşür?

12. Mətndə (səh. 150–152) hansı suala cavab vardır?

    A) Bakı nə üçün daim inkişaf edir?
    B) Mətndə nə üçün Bakının poetik təsviri vardır?
    C) Bakı nə üçün dünyanın şəhəri hesab edilir?
    D) Bakıda hansı qəhrəmanların heykəlləri ucalır?
    E) Qız qalası nə üçün namus qalası hesab edilir?

13. Mətn (səh. 150–152) əsasında dialoq tərtib edin.

    *Əgər rəssam olsa idiniz, Bakını necə təsvir edərdiniz?*

    *Əgər yazıçı olsa idiniz, Bakı ilə bağlı nə yazardınız? Yazınız təxəyyülünüzün məhsulu olardı, yoxsa tarixin?*

    *Əgər sizdən bir cümlə ilə doğma Bakını tərif etməyi istəsə idilər, nə deyərdiniz?*

14. Cümləni tamamlayın.

"Bakı və bakılılar" mətninə əsasən demək olar ki, .......................

..........................................................................................................

✓ *Sizcə, həmin mətndəki hansı vacib faktlar bu cümləni tamamlaya bilər?*

15. Mətni (səh.150–152) davam etdirmək və tamamlamaq üçün hansı məlumatlardan istifadə edərdiniz?

16. İki qrupa bölünün. Aşağıdakı mövzular əsasında müzakirə keçirin.

I qrup – Bakının keçmişi
II qrup – Bakının bu günü
Hər qrup mövzunun içində müxtəlif sahələrə toxunmalıdır. (Məsələn, *Keçmişdə və bu gün sənaye, ədəbiyyat, iqtisadiyyat* və s.)
Müzakirəni təşkil etmək üçün əlavə məlumat toplayın.

17. Mətndə (səh. 150) altından xətt çəkilmiş cümlədə *Bakının* və *şəhər* sözlərinin yerini dəyişin. Sonra hər iki cümləni müqayisə edin. Məzmunda fərq yarandımı? Fikirlərinizi əsaslandırın.

18. Mətnin (səh. 150–152) üslubunu nəzərə almaqla mötərizədə verilmiş sözlərdən daha uyğun olanını seçib işlədin.

19. *Ansambl* sözünün kontekstə uyğun mənasını izah edin və cümlədə fərqli mənada işlədin.

20. Mətndə (səh. 150–152) hansı bənzətmələrdən istifadə olunmuşdur? Bənzədilən və bənzəyənləri seçib yazın.

| **Bənzədilən** | **Bənzəyən** |
|---|---|
| | |

✓ *Mətndə belə ifadələrdən istifadə mətnin bədii üslubda olduğunu deməyə əsas verirmi? Əksini düşünürsünüzmü? Niyə?*

21. Mətndə göy rəngdə verilmiş cümlədə *dəniz yaxasında* birləşməsindəki *yaxasında* sözünü *ətəyindəki* sözü ilə əvəz etmək olarmı? *Yaxa* və *ətək* sözləri məzmunca əkslik yaradırmı? Bir anlıq Bakının dənizkənarı ərazisini göz önünə gətirin. Sonra suala cavab verin. Sizcə, *yaxasında* ifadəsi düzgünmü işlədilmişdir?

22. Mətndə (səh. 151) yaşıl rəngdə verilmiş cümlədə hansı sözlər sinonimdir? Eyni anlayışın müxtəlif formalarından istifadə etməyin hansı praktik əhəmiyyəti vardır?

23. Sxemi tamamlayın.




24. *Külək, meh, yel* sözlərini cümlədə işlətməklə eyni və ya yaxın mənalı söz olub-olmadıqlarını əsaslandırın.

25. Mətndə (səh. 150–152) məqsəd və intonasiyaya görə cümlənin hansı növlərindən istifadə olunmuşdur?

26. Mətndə (səh. 150–152) işlənən, obrazlılıq yaradan söz və ifadələri aşağıdakı cədvəl əsasında qruplaşdırın.

| Bədii təzad | Bədii xitab | Bədii sual | Təkrir |
|---|---|---|---|
| | | | |

✓ *Sizcə, bu ifadələrin mətnlərdə hansı praktik əhəmiyyəti vardır?*

27. "Bakı" mətnində tünd şriftlə verilmiş cümlə ilə bağlı hökmlərdən hansı düzgündür?

1. Cümlə sadə cümlədir.
2. *Görəsən* sözü modal sözdür.
3. *Görəsən* sözü cümlənin xəbəridir.
4. *Görəsən* sözündən əvvəl vergül qoyulmamalıdır.
5. *Görəsən* sözündən əvvəl vergül qoyulmalıdır.

28. “Bakı və bakılılar” mətnində altından xətt çəkilmiş cümlədə hansı söz dırnaq işarəsi içərisində yazılmalıdır?

29. Mətndə (səh. 153) tünd şriftlə verilmiş cümlə haqqında deyilənlərdən hansı düzdür?

1. Cümlə tabeli mürəkkəb cümlədir.
2. Cümlə tabesiz mürəkkəb cümlədir.
3. Cümlə sadə cümlədir.

30. Mətndə (səh. 153) fərqləndirilmiş cümlənin hansı vasitələrlə bağlandığını deyin.

31. Verilmiş cədvəl əsasında suallar tərtib edin və onları cavablandırın. “Bakının aylıq orta temperaturu” mövzusunda mətn tərtib edin.

**Bakı üçün aylıq orta temperatur**

| | Yanvar | Fevral | Mart | Aprel | May | İyun | İyul | Avqust | Sentyabr | Oktyabr | Noyabr | Dekabr | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Max. temperatur (°C) | 6,6 | 6,3 | 9,8 | 16,4 | 22,1 | 27,3 | 30,6 | 29,7 | 25,6 | 19,6 | 13,5 | 9,7 | ∅ | 18,1 |
| Min. temperatur (°C) | 2,1 | 2,0 | 4,2 | 9,4 | 14,9 | 19,7 | 22,2 | 22,9 | 19,4 | 13,6 | 8,8 | 4,8 | ∅ | 12 |
| Temperatur (°C) | 6,3 | 6,1 | 8,2 | 13,4 | 18,7 | 23,4 | 26,1 | 26,3 | 23,7 | 18,4 | 13,0 | 8,6 | ∅ | 16 |
| Yağıntı (mm) | 21 | 20 | 21 | 18 | 18 | 8 | 2 | 6 | 15 | 25 | 30 | 26 | Σ | 210 |
| Günəşli saatlar (s/g) | 2,9 | 3,1 | 4,0 | 6,5 | 8,3 | 9,8 | 10,1 | 9,1 | 7,4 | 4,6 | 3,1 | 3,3 | ∅ | 6 |
| Yağışlı günlər (g) | 6 | 6 | 5 | 4 | 3 | 2 | 1 | 2 | 2 | 6 | 6 | 6 | Σ | 49 |
| Nisbi rütubət (%) | 78 | 78 | 77 | 69 | 64 | 57 | 58 | 63 | 68 | 74 | 77 | 76 | ∅ | 69,9 |

✓ *Nə üçün aprel ayında temperatur və yağıntı yanvar-mart aylarından fərqlidir? Bu fərqlilik nə ilə bağlıdır?*

✓ *Bu cədvəl sizə niyə təqdim olunmuşdur?*

✓ *Bakının iqliminin onun təbiətinə nə kimi təsiri vardır?*

✓ *Cədvəl əsasında tərtib edəcəyiniz mətn hansı üslubda olacaqdır?*

**2** 1. Mətni oxuyun, üslub xüsusiyyətlərini deyin.

## “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasının ərazisində xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkilinin və mühafizəsinin, xüsusi mühafizə olunan təbiət obyektlərinin qorunmasının hüquqi əsaslarını müəyyən edir.

### I fəsil
### ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında anlayış

– **Xüsusi mühafizə olunan təbiət əraziləri – xüsusi ekoloji, elmi, mədəni, estetik və sağlamlaşdırma əhəmiyyəti daşıyan təbiət komplekslərindən və obyektlərindən, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan bitki və heyvan növlərinin yayıldığı yerlərdən ibarət olan, təsərrüfat dövriyyəsindən tamamilə və ya qismən, daimi və ya müvəqqəti çıxarılan torpaq, su (akvatoriya) sahələri və onların üzərindəki atmosfer məkanıdır.**

– **Xüsusi mühafizə olunan təbiət obyektləri – elmi, mədəni, estetik və sağlamlaşdırma dəyəri olan nadir, nəsli kəsilmək təhlükəsi qarşısında olan, səciyyəvi, xüsusi mühafizə rejimi zooloji, botanik, dendroloji, hidroloji, geoloji, geomorfoloji, hidrogeoloji, meşə, landşaft və torpaq obyektləridir.**

### V fəsil
### DÖVLƏT TƏBİƏT QORUQLARI

Maddə 17. Dövlət təbiət qoruqları və onların təşkili

– Dövlət təbiət qoruqları – səciyyəvi və nadir təbiət komplekslərini və obyektlərini təbii vəziyyətdə qoruyub saxlamaq, təbiət proseslərinin və hadisələrinin gedişini öyrənmək məqsədilə yaradılan təbiəti mühafizə və elmi tədqiqat idarələri statusuna malik olan ərazilərdir.

– Dövlət təbiət qoruqları xüsusi ekoloji, elmi və mədəni dəyərə malik olan təbiət obyektlərinin (səciyyəvi və nadir landşaftlar, nadir geoloji törəmələr,

bitki və heyvan növləri və sair) yerləşdiyi ərazilərdə (torpaq və su məkanı (akvatoriya) sahələrində) yaradılır.

– Dövlət təbiət qoruqlarının əraziləri respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və bu ərazilərə xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilir.

– Dövlət təbiət qoruqları elmi təşkilatların və əlaqədar təşkilatların rəyi nəzərə alınmaqla, müvafiq dövlət orqanının təqdimatı əsasında müvafiq icra hakimiyyəti orqanının qərarı ilə təşkil edilir.

– Dövlət təbiət qoruqlarının təşkili üçün ayrılmış torpaq sahələri onların daimi istifadəsinə verilir.

– Dövlət təbiət qoruqlarının torpaqlarından, habelə onun hüdudlarında olan sudan, bitki və heyvanlar aləmindən təsərrüfat məqsədləri üçün istifadə edilməsi qadağan edilir.

– Hər bir dövlət təbiət qoruğunun əsasnaməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Maddə 18. Dövlət təbiət qoruqlarının vəzifələri

– Dövlət təbiət qoruqlarının vəzifələri aşağıdakılardır:

- genetik fondun, bioloji müxtəlifliyin, ekoloji sistemlərin və təbiət komplekslərinin və obyektlərinin təbii vəziyyətini qoruyub saxlamaq məqsədilə təbiət ərazilərinin mühafizəsini həyata keçirmək;
- elmi tədqiqatları təşkil etmək və aparmaq, "təbiət salnaməsi" tərtib etmək;
- ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqi çərçivəsində ekoloji monitorinqi həyata keçirmək;
- təsərrüfat obyektlərinin və digər obyektlərin yerləşdirilməsi layihələrinin və sxemlərinin dövlət ekoloji ekspertizasında iştirak etmək;
- ətraf təbii mühitin mühafizəsi sahəsində elmi kadrların və mütəxəssislərin hazırlanmasına kömək etmək.

✓ *Nə zamansa qoruqda olmusunuzmu?*

✓ *Qoruq yaratmaq haqqında düşünmüsünüzmü? Niyə?*

# AZƏRBAYCAN QORUQLARI

İnsan təbiətdən öyrənir, onun havası ilə pərvəriş tapır, ağıla dolur, zənginləşir, təzələnir, təmizlənir.

*Heydər Əliyev, Ümummilli lider*

2. Mətnləri oxuyun, vahid bir mətn şəklində sistemləşdirin. Yeri gəldikcə "Qanun"un maddələrindən istifadə edin.

**1. Bəsitçay Dövlət Təbiət Qoruğu** Zəngilandadır. O, 0,1 min hektar ərazidə nadir çinarlığı qorumaq məqsədilə yaradılmışdır. Kiçik Qafqazın cənub-şərq hissəsinin Bəsitçay ətrafı boyunca yerləşmişdir. Qoruğun ərazisi, əsas etibarilə, Bəsitçayın çay yatağı boyunca 15 km uzunluğunda olan ərazini əhatə edir.



Qoruq ərazisi adi arid meşələri ilə həmsərhəddir. Bəsitçayın sağ sahil yamacları üçün Gürcüstan palıdı və Qafqaz vələsi, çoxmeyvəli ardıc kolları, kütyarpaqlı iydə və s. ağaclar səciyyəvidir. Orta yaşı 170 ildən artıq olan çinar ağacları qoruq ərazisinin 93%-ni təşkil edir.

**Bu çinarlıq dünyanın ən böyük çinarlıq massividir.** Hal-hazırda qoruğun ərazisi Ermənistan təcavüzkarları tərəfindən işğal olunmuşdur. Təbiətin nadir nümunələri olan çinar meşələri məhv olmaq təhlükəsi qarşısındadır.

**2. Qızılağac Dövlət Təbiət Qoruğu** 1929-cu ildə Lənkəran rayonu ərazisində yaradılmışdır. Sahəsi 88360 hektardır. Qızılağac və Kiçik Qızılağac körfəzləri və onların sahil zolaqlarını əhatə edir. Təqribən, 50%-i su akvatoriyasıdır. Su quşlarının qışladığı əsas yerlərdəndir. Sahil zonasında göl və bataqlıqlar var. 22 dəstədən və 248 növdən ibarət su, bataqlıq və çöl quşları mühafizə olunur. Qışda körfəzlərin dayaz hissələrində və şirin su hövzələrində qaz, ördək, qu quşu, qutan, qızılqaz, qarabatdaq, qaşqaldaq, Misir vağı, dovdaq, bəzgək, sultan toyuğu, turac və s. quşlar yuvalayır. 30 balıq növü vardır.





Qızılağac Dövlət Təbiət Qoruğu 1976-cı ildə beynəlxalq əhəmiyyətli qoruqlar siyahısına daxil edilmişdir. Ərazisi və ətrafı su, bataqlıq və yarımsəhra bitkilər ilə zəngindir.

3. Mətnlərdə altından xətt çəkilmiş sözlərin böyük hərflə yazılmasının səbəbini deyin.
4. Mətnlərdə statistik göstəricilər nə üçün sözlə deyil, rəqəmlə verilmişdir?
5. 1-ci mətndə tünd şriftlə verilmiş cümlədə elə dəyişiklik edin ki, *çinarlıq* sözü bir dəfə işlənsin.

**3. Zaqatala Dövlət Təbiət Qoruğu**



1929-cu ildə Zaqatala və Balakən rayonlarının ərazisində yaradılmışdır. Sahəsi 23844 hektardır. Böyük Qafqazın cənub yamacının təbii dağ-meşə və dağ-çəmən landşaft kompleksini, xüsusilə Katex-Maxzıx meşələrini mühafizə etmək üçün yaradılmışdır. Əsasən, Katex və Balakən çaylarının hövzələrində yerləşir. Enli?yarpaqlı (fıstıq, palıd, vələs, çökə, göyrüş) və iynə?yarpaqlı (qaraçöhrə, qarmaqvarı şam) meşələr, subalp və alp çəmənləri üstünlük təşkil edir. 980 bitki növü, 104 quş növü, 58 onurğalı heyvan növü (nəcib maral, dağkeçisi, cüyür, köpgər, qonur ayı, çöldonuzu, meşə və daşlıq dələsi, vaşaq və s.) mühafizə edilir. Zəngin təbiət muzeyi vardır.

6. 3-cü mətndə göy rəngdə verilmiş sözlərin bitişik, yoxsa ayrı yazılmasını müəyyənləşdirin.

**4. Şirvan Dövlət Təbiət Qoruğu**



1969-cu ildə Kür-Araz ovalığının Cənub-Şərqi Şirvan düzənliyində Bəndovan Dövlət Təbiət Yasaqlığının (1961; sahəsi 4930 ha) əsasında yaradılmışdır. Sahəsi 25761 ha olmuş, 2003-cü ildə 6232 ha-dək azalmışdır. Azərbaycan Respublikasının "Qırmızı kitab"ına düşmüş ceyranlar və bu ərazi üçün səciyyəvi olan digər fauna növləri mühafizə və bərpa olunur.

**"Azərbaycan Milli Ensiklopediyası"ndan**

7. 4-cü mətndə altından xətt çəkilmiş sözə şəkilçi düzgünmü artırılmışdır?
8. 4-cü mətndə hansı sözün işlənməsi leksik normanın tələbini pozur?
9. Nə üçün mətnlərdə sadalanan sözlərdən çox istifadə olunmuşdur?
10. Qoruqlarla bağlı mətnlərin qısa və konkret cümlələrlə təqdim olunmasının səbəbini izah edin.
11. Sizcə, 1–4-cü mətnləri elmi üslubda yazılmış mətn hesab etmək olarmı?
12. *Dövlət, təbiət* və *qoruq* sözləri ümumi isim olduğu halda, nə üçün böyük hərflə yazılmışdır?

## VII fəsil
## DÖVLƏT TƏBİƏT YASAQLIQLARI

– Dövlət təbiət yasaqlıqları – təbiət komplekslərinin və ya onların komponentlərinin qorunması və ya bərpası, habelə ekoloji tarazlığın saxlanması üçün xüsusi əhəmiyyət daşıyan ərazilərdir.

– Dövlət təbiət yasaqlıqları torpaq mülkiyyətçilərindən, istifadəçilərindən və icarəçilərindən torpaq sahələri alınmadan qanunvericiliklə müəyyən edilmiş qaydada onların torpaq sahələrində təşkil edilə bilər.

– Dövlət təbiət yasaqlıqları respublika və ya bölgə əhəmiyyətli ola bilər.

– Dövlət təbiət yasaqlıqları müxtəlif profilli, o cümlədən kompleks, bioloji, paleontoloji, hidroloji və geoloji profilli ola bilər.

– Dövlət təbiət yasaqlıqları müvafiq dövlət orqanının təqdimatı əsasında müvafiq icra hakimiyyəti orqanının qərarı ilə təşkil edilir.

Maddə 28. Dövlət təbiət yasaqlıqlarının xüsusi mühafizə rejimi və onlardan istifadə

– Dövlət təbiət yasaqlıqlarında təbiət komplekslərinə və onların komponentlərinə zərər vura bilən hər hansı fəaliyyət qadağan edilir.

– Dövlət təbiət yasaqlıqlarının vəzifələri və xüsusi mühafizə rejiminin xüsusiyyətləri onların hər biri haqqında müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş əsasnamə ilə müəyyən edilir.

– Dövlət təbiət yasaqlıqları müəyyən edilmiş qaydada elmi, mədəni, tədris və məhdud təsərrüfat məqsədləri üçün istifadə edilə bilər.

– Torpaq mülkiyyətçiləri və istifadəçiləri dövlət təbiət yasaqlıqlarında təsərrüfat fəaliyyətini müəyyən edilmiş məhdudiyyətlərə əməl etməklə həyata keçirə bilərlər.

**Heydər Əliyev**

*Bakı şəhəri, 24 mart 2000-ci il*

13. Qanunun dil xüsusiyyətləri ilə ensiklopediyadan götürülmüş mətnlərin dil xüsusiyyətlərini müqayisə edin.
14. Qoruq və yasaqlığın fərqi nədir?

## 1

### Laçın Dövlət Yasaqlığı

Laçın Dövlət Yasaqlığı 21,3 min hektar sahədə yaradılmışdır.

Yasaqlığın yaradılmasında məqsəd buradakı heyvan (cüyür, qaya keçisi, çöl donuzu və s.) və quşları (turac, kəklik və s.) qoruyub artırmaqdan ibarətdir. **Meşələri, əsasən, palıd, vələs, cökə, ağcaqayın və s. ağacların qarışığından ibarətdirlər.**

Hal-hazırda Ermənistan tərəfindən edilən təcavüz nəticəsində yasaqlığın ərazisi zəbt olunmuş, təbiəti məhv edilmişdir.

*"Azərbaycan" kitabından*

## 2

### Qəbələ Dövlət Yasaqlığı

Qəbələ Dövlət Yasaqlığı 39,6 min hektar sahədə yaradılmışdır.

*Yasaqlığın yaradılmasında məqsəd Qəbələ rayonunun ərazisində olan nadir meşə landşaftının və heyvanat aləminin qorunub saxlanmasından ibarətdir.*

Yasaqlıqda topal, üçyarpaq yonca, tonqalotu, əvəlik, yarpız, qaymaqçiçəyi, qoz, fındıq, vələs, palıd, yabanı şabalıd, dəmirağacı, fıstıq, saqqız, ağcaqayın, alma, armud ağacları və əzgil, zoğal, itburnu, böyürtkən, yemişan, çaytikanı kimi kol bitkiləri yayılmışdır.

Yasaqlıqda nəcib Qafqaz maralı, qarapaça, vaşaq, çöl pişiyi, çöl donuzu, daş dələsi, cüyür, yenot, canavar kimi heyvanlar, quşlardan isə kəklik, qırqovul və s. məskunlaşmışdır.

*"Azərbaycan" kitabından*

## 3

### Şəki Dövlət Yasaqlığı

Şəki Dövlət Yasaqlığı 10,4 min hektar sahədə yaradılmışdır.

Yasaqlığın yaradılmasında məqsəd buradakı heyvan və quşları, xüsusilə də qırqovul, turac kimi quşları, qonur ayı və çöl donuzu kimi heyvanları qorumaqdır.

Meşə massivlərində yemişan, əzgil, böyürtkən, qaratikan, alça, liana və s. kollar keçilməz cəngəlliklər əmələ gətirmişdir. Nisbətən quraqlıq olan sahələrdə palıd, tut, alma və s. bitkilər yayılmışdır.

Yasaqlıqda çöl donuzu, canavar, tülkü, dovşan, çaqqal, meşə pişiyi, yenot, porsuq, samur, meşə dələsi, sincab və s. heyvanlar, meşə göyərçini, alabaxta, meşə cüllütü, bekas, bildirçin, boz kəklik, yaşılbaş ördək, cürə, ağ və boz vağ və s. quşlar vardır.

*"Azərbaycan" kitabından*

**15.** **1-ci mətndə tünd şriftlə verilmiş cümlədə hansı norma pozulmuşdur?**

**16.** **2-ci mətndə fərqləndirilmiş cümlədə *ibarətdir* sözünü çıxarsaq, cümlə necə tamamlanar? Məzmunda dəyişiklik baş verərmi?**

**17.** **3-cü mətndə altından xətt çəkilmiş cümlədə heyvan və quş adları bildirən sözlərdən sonra vergül işarəsi nə üçün qoyulmuşdur?**

## 4 Ordubad Dövlət Yasaqlığı

Ordubad dövlət yasaqlığı 40 min hektar sahədə yaradılmışdır.

Yasaqlığın yaradılmasında məqsəd ərazidəki nadir və qiymətli heyvanları və quşları qoruyub artırmaqdır.

Yasaqlığın ərazisində bezoar keçisi, köpgər, daş dələsi, canavar, çaqqal, tülkü kimi heyvanlar, turac, qırqovul, kəklik, bildirçin, alabaxta və s. quşlar məskunlaşmışdır.

*"Azərbaycan" kitabından*

## 5 İsmayıllı Dövlət Yasaqlığı

İsmayıllı dövlət yasaqlığı 34,4 min hektar sahədə yaradılmışdır.

Yasaqlığın yaradılmasında məqsəd buradakı heyvan və quşların qorunması və sayının artırılmasından ibarətdir.

Ərazinin bitki örtüyü alp, subalp dağ-çəmən və meşə bitkilərindən ibarətdir. Meşə ilə örtülü sahə, əsasən, vələs, fıstıq və palıd ağaclarından ibarətdir.

Yasaqlıqda təkə, cüyür, nəcib Qafqaz maralı, köpgər, çöl donuzu, vaşaq, canavar, tülkü, dovşan, çaqqal, meşə pişiyi, yenot, dələ, porsuq və s. heyvanlar, kəklik, qırqovul, turac, alabaxta, bildirçin, boz kəklik, yaşılbaş ördək, cürə, ağ və boz vağ və s. quşlar məskunlamışlar.

*"Azərbaycan" kitabından*

18. 4-cü və 5-ci mətnlərdə hansı sözlərin yazılışında səhvə yol verilmişdir?

19. Mətnlərin üslubunu müəyyən edin.

20. Qoruqlar və yasaqlıqlar nə məqsədlə təşkil edilir?

21. Mətnlərdən istifadə etməklə düzgün fikirləri seçin.

1. Qızılağac Dövlət Təbiət Qoruğu köçəri bataqlıq və suda üzən quşların quşlaması, yuva salması məqsədilə təşkil edilmişdir.
2. Bəsitçay Dövlət Təbiət Qoruğu yalnız bataqlıq quşlarının yuva salması məqsədilə təşkil edilmişdir.
3. Zaqatala Dövlət Təbiət Qoruğu bulaq, çay və dağ göllərindən təşkil olunmuşdur.
4. Daşlıq dələsi Şirvan Dövlət Təbiət Qoruğunda yaşayır.
5. Yasaqlıqların yaradılmasında məqsəd flora və faunanı qoruyub artırmaqdır.

22. 1-ci mətndə birinci cümlənin əvvəlinə hansı ifadəni artırsanız, mürəkkəb cümlə alınar?

a) Məlumdur ki
b) Deyilənə görə
c) .... Qanununu rəhbər tutaraq

23. Qoruq və yasaqlıqlar haqqında olan mətnlərdə işlədilmiş cümlələri müqayisə edin.

24. Lüğət üzərində iş aparmaq üçün suallar tərtib edin.

25. Qanundan istifadə etməklə *qoruq* və *yasaqlıq* sözünün leksik mənalarını fərqləndirin.

26. Mətnin dili üzərində iş aparmaq üçün suallar tərtib edin.

27. Referat yazın.

**"Azərbaycanın qoruq və yasaqlıqları" mövzusunda referat hazırlayın. Bunun üçün:**

- **Ehtiyac yaranarsa, əlavə məlumat toplayın. Lazımi şəkillər, xəritələr əldə edin. Topladığınız materialları əlaqələndirin.**
- **Hazırladığınız materialı 92–95-ci səhifələrdəki qaydaya uyğun qiymətləndirin.**
- **Referatı təqdim edin. Əgər qeydlər və təkliflər varsa, nəzərə alın.**

3

# AZƏRBAYCAN XALÇA SƏNƏTİ



Mənim rəssam kimi yetişməyimdə bizim qədim xalça və miniatür sənətimizlə yanaşı, Füzulinin odlu, alovlu poeziyası da böyük rol oynayıb.

*Səttar Bəhlulzadə*

✓ *Nə zamansa xalçaya, onun naxışlarına, rənglərinə diqqət yetirmisinizmi?*

“Xan Qarabağ”. Qarabağ xalçası



Qafqazın cənub-şərqində, Xəzər dənizinin qərb sahilində yerləşən Azərbaycan Respublikasına bir nəzər salaq. Gözlərimiz önündə nəhayətsiz düzənliklər və çəmənlər, zirvəsi qarlı dağlar və qumlu dəniz sahilləri canlanır. Bərəkətli torpaq, yumşaq iqlim, ılıq günəş şüaları kənd təsərrüfatının bütün sahələrinin inkişafı üçün gözəl şərait yaradır.

Qafqazda bitən altı min növ bitkinin 4100-ü Azərbaycan Respublikasının ərazisindədir. Həmin bitkilər böyük müalicəvi əhəmiyyətə malikdir. Respublikamız mineral su mənbələri?ilə də zəngindir.

**ORFOQRAFİYA**

*h*, yoxsa *x*?

- Mətndə göy hərflə verilmiş sözlərdə hansı hərf olmalıdır?

**ORFOEPİYA**

Səhv hesab etdiklərinizi düzəldin.

- [canlı]
- [rəngarənk]
- [qarrı]

Azərbaycan hələ qədim zamanlardan Şərqin yüksək dərəcədə inkişaf etmiş kənd təsərrüfatı?ilə, o cümlədən pambıqçılıqla, heyvandarlıqla seçilən, neft və başqa faydalı qazıntılar?la zəngin ölkəsi olmuşdur.

Azərbaycan həmişə yüksək mədəniyyət ocağı olmuşdur. Bu torpaqda istehsal olunmuş xalça və xalça məmulatı bir çox tarixi əsərlərdə, klassik ədəbiyyatda və şifahi xalq ədəbiyyatında dəfələrlə heyranlıqla xatırlanmışdır.

Azərbaycan xalçasını necə təsvir edək?

✓ *Siz Azərbaycan xalçasını necə təsvir edərdiniz?*



Ona diqqət yetirmək lazımdır, çünki həmin xalçalar Azərbaycanın rəngarəng təbiətinin bütün gözəlliyini – səmanın maviliyini və meşələrin yaşıllığını, dağ yamaclarının əlvanlığını, qarlı zirvələrin bəyazlığını əks etdirir. Bu xalçalarda qırmızı nar dənələrinin və qızılı heyvanın, sarı zəfəranın və kəhrəba üzümün rəngləri ecazkar bir şəkildə qovuşmuşdur.

Azərbaycan xalçası boyalarının tükənməz zənginliyi, naxışlarının qovuşuğu, yaradıcılıq **tə...əyyülünün** gücü və yüksək sənətkarlığı ilə fərqlənir.

Xalçaçılıq Azərbaycanın ən qədim dekorativ-tətbiqi sənət növlərindən biridir. Arxeoloji tədqiqatlar, ədəbi abidələr Azərbaycanda xalçaçılıq sənətinin çox qədim dövrlərdə yaranmasını sübut edir.

Məşhur tarixçi Əbu Cəfər Məhəmməd Təbəri (839–923) Azərbaycanın ərəblər tərəfindən işğalından danışarkən yazır ki, 22-ci hicri ilində (eramızın 642-ci ilində) Azərbaycanın şimal-şərqində yüksək keyfiyyətli xalçalar **iste...sal** olunmuşdur.

Tarixçi və **səyya...** Əl-Müqəddəsi (X əsr) Azərbaycanın Bərdə şəhərini, onun bazarını təsvir edərək yazır: "...Bu bazarda ipək və geyim əşyaları satılır, burada toxunan xalçaların misli yoxdur".

Xalçaların təsvirinə **...əmçinin** Azərbaycan klassik ədəbiyyatında, xüsusilə Qətran Təbrizinin (XI əsr), Nizami Gəncəvinin, Xaqani Şirvaninin (XII əsr) və başqalarının əsərlərində rast gəlinir.

XIII əsrdə Şərqi gəzib dolaşmış məşhur venesiyalı səyyah Marko Polo yazır: "Azərbaycanda bütün dünyada **şö...rət** qazanmış parçalar, xalçalar və qılınc tiyələri hazırlayan xeyli gözəl sənətkar var".

*XIII–XIV əsrlərdə Azərbaycanda yaradılan bədii məmulat (xalçalar, zərgərlik məmulatları) Avropanın, o cümlədən Venesiya tacirlərinin diqqətini cəlb etməyə başlamışdır. Azərbaycanda olmuş tacirlər, səyyahlar, müxtəlif ölkələrin elçiləri satış və hədiyyə üçün buradan özləri ilə gözəl xalılar və xalça məmulatı aparırdılar. Təsadüfi deyil ki, artıq XV əsrdən başlayaraq məşhur Avropa rəssamlarının əsərlə-*



***Karlo Krivellinin “Müjdə” əsərindən fraqment***

*rində Azərbaycan xalçaları təsvir olunur. Həmin xalçalara Hans Holbeynin “Səfirlər” rəsmində rast gəlirik. Görkəmli Niderland rəssamı Yan Van Eyk özünün “Keşiş Van der Pale madonnası”nı Azərbaycanın “Quba” tipli xalçası fonunda çəkmişdir.*

Neçə yüz illər bundan əvvəl Şirvanda, Qarabağda, Abşeronda, Qubada, Qazaxda, Gəncədə, Muğanda, Talışda toxunmuş, gözəl keyfiyyətinə və icra texnikasına görə seçilən bədii xalçalar indi Qərbi Avropa ölkələrinin, Amerikanın ən böyük muzeylərini bəzəyir. Bütün dünyada “Qafqaz xalçası” adı?ilə tanınan xovlu və xüsusi?ilə xovsuz xalçaların doxsan faizini Azərbaycan xalçaları təşkil edir.

1967-ci ildə Bakıda dünyada birinci olaraq Dövlət Xalça Muzeyi açılmışdır. Burada müxtəlif növlü ən gözəl Azərbaycan xalçaları və xalça məmulatları nümayiş etdirilir. Bu nadir muzeyin ekspozisiyasını XVII–XIX əsrlərdə toxunmuş qədim xalçalar və müxtəlif dövrlərdə yaradılmış bədii ornamental xalçalar bəzəyir.

**“Azərbaycan” kitabından**

1. Bu parça mətnin hansı hissəsinə aydınlıq gətirə bilər?

VII əsr Çin səyyahı Syuan Tszyan Azərbaycanı xalça istehsalının iri mərkəzi adlandırmışdır. Bunu arxeoloji məlumatlar da sübut edir. VII əsr mağaralarında toxuculuq dəzgahının, yun iplərin qalıqları, xalçaçılıqda istifadə olunan əmək alətləri, keçə, çürümüş xalı və palaz parçaları tapılmışdır.

*Nizaminin “Xosrov və Şirin”, “İsgəndərnamə” poemalarında “həsir”, “kilim”, “gəbə” kimi xalça məmulatlarının adları, “əriş”, “arğac”, “cəhrə” terminləri verilir.*

*“İsgəndərnamə” poemasında “kəndir”, “çuval”, “çul”, “xalı” terminlərinə rast gəlinir. Nizami bir yerdə hətta “xətayçullar” haqqında bəhs edir ki, bu da hələ o zamanlar “xətai” xalça kompozisiyasının mövcud olduğuna sübutdur. “Yeddi gözəl” poemasında “palaz”, “fərş” adlarına rast gəlinir. Bu cür terminlərə, misal üçün, “ilmə”, “iplik”, “fərş”, “çuval” və s. Xaqani Şirvaninin əsərlərində də tez-tez təsadüf edilir.*

*Kərim Tahirov, “Azərbaycan xalçası” kitabından*

✓ *Fərqləndirilmiş hissəni 1-2 cümlə ilə necə təqdim edərsiniz?*

2. S.Bəhlulzadənin tablosundakı rənglərlə istənilən Azərbaycan xalçasının rənglərini müqayisə edin. Sizcə, bu rəng çalarlarının oxşarlığı nə ilə bağlıdır? Mətndəki təsvirlər bu suala cavab verirmi?


Səttar Bəhlulzadə "Üvəz"


"Sumax". Quba məktəbi

✓ *Əgər bir rəssam olsa idiniz, hansı rəng çalarlarından daha çox istifadə edərdiniz və nəyin şəklini çəkərdiniz? Niyə?*

✓ *Əgər xalçaçı olsa idiniz toxudğunuz xalça üzərində nəyin şəkli olardı? Niyə?*

✓ *Sizcə, bu suallar əsasında quracağınız şifahi nitq hansı üslubda olacaqdır?*

3. Mətndən hansı cümlələri, yaxud abzasları çıxarsaq, məzmuna xələl gəlməz?

4. Sizcə, xalça sənətindən danışılan mətndə çərçivəyə alınmış hissədəki məlumat nə üçün verilmişdir?

5. Mətnə əsasən üç vacib xüsusiyyəti seçib cümləni tamamlayın.

Azərbaycan xalçası

______________________________

______________________________

______________________________

6. Mətndə hansı suala cavab yoxdur?

A) Azərbaycan xalçasının rəngləri tarixən haradan alınmışdır?
B) Xalçada istifadə olunan rənglər təbiətdən necə alınır?
C) Hansı mənbələrdə Azərbaycan xalçaları haqqında məlumat vardır?
D) Azərbaycan xalçasını fərqləndirən xüsusiyyətlər hansıdır?
E) Xalçaların təsvirinə hansı Azərbaycan sənətkarlarının əsərlərində rast gəlinir?

7. Mətndən istifadə etməklə aşağıdakı suallara cavab verin:

1. Azərbaycan niyə mədəniyyət ocağı hesab edilir?
2. Azərbaycan xalçalarının tarixinin qədimlərə aid olmasını hansı mənbələr təsdiqləyir?
3. Hansı faktlar dünya rəssamlarının öz tablolarını Azərbaycana məxsus xalçaların fonunda çəkdiyini təsdiqləyir?

8. Bu abzası mətnin hansı hissəsinə əlavə etsəniz, məzmun dolğunlaşar?

Hər xalqın mədəniyyət tarixində elə sənət sahəsi vardır ki, orada onun zəngin mənəvi aləmi əks olunmuş, xarakteri, intellekti, dünyagörüşü, estetikası və həyat fəlsəfəsinə xas olan köklü xüsusiyyətlər öz təcəssümünü tapmışdır. Azərbaycan xalqı üçün belə sənət növü xalçaçılıqdır. Mübaliğəsiz demək olar ki, min illər boyu Azərbaycan əkinçiləri və maldarları, şəhər və kənd sakinləri xalı-xalça üstündə doğulmuş, yaşamış və dünyadan köçmüşlər. Xalça məmulatları isə onların məişətinin dəyişməz atributu olmuşdur.

9. Bu gün xalçaçılıq sənəti necə inkişaf edir?

10. *Nəhayətsiz* sözünün sinonimlərini müəyyənləşdirin.

**nəhayətsiz** → ? → ?

11. Altından xətt çəkilmiş cümlədə *heyranlıqla* sözünü hansı sözlə əvəz etsəniz, fikrin ifadəsi daha dəqiq olar?

12. Aşağıdakı sözlərin leksik mənasını müəyyənləşdirin:

| | |
|---|---|
| Nəyin isə xüsusiyyətlərini öyrənmək məqsədilə aparılan elmi araşdırma | **Tədqiqat** |
| Həqiqəti üzə çıxarmaq, bir şeyin düzgün olub-olmadığını müəyyən etmək məqsədilə araşdırma | **Təhqiqat** |

✓ *Leksik mənasını müəyyənləşdirdiyiniz sözləri cümlədə işlədin.*

13. Aşağıdakı izahlar içərisindən *səyyah* və *səyyar* sözlərinin leksik mənalarını seçin.

- Hərəkət edən, gəzən, yerini dəyişdirən
- Səyahətə çıxan

14. Mətndə (səh. 167–168) fərqləndirilmiş abzasda hansı cümlədə kəmiyyətə görə uzlaşma pozulmuşdur?

15. Mətndə (səh. 167–168) çərçivəyə alınmış ifadələrin düzgün yazıldığını əsaslandırın.

16. Mətndə (səh. 166–168) qırmızı rəngdə verilmiş sözlərdə *ilə (-la,-lə)* hissəciyi bitişik, yoxsa ayrı yazılmalıdır? Səbəbini izah edin.

17. Mətni təkmilləşdirmək üçün əlavə məlumat toplayın. Həmin məlumatları "Azərbaycan xalça sənəti" mətninin üslubuna uyğun işləyin və mətnə əlavə edin.

4

## AZƏRBAYCANIN MİLLİ GEYİMLƏRİ

Qadınların etnik mənsubiyyətini, ictimai və yaş fərqlərini əks etdirərək baş örtüklərində və baş bəzəklərində öz ifadəsini tapan Azərbaycan qadınlarının ənənəvi baş geyimləri orijinallığı və son dərəcə müxtəlifliyi ilə seçilirdi.

Mənbələrin sübut etdiyi kimi, Şirvan zonasında araxçını "təsək" adlandırırdılar. Lakin təsək, əsasən, yaşlı qadınların müxtəlif rəngli və ölçülü pambıq, ipək və yun parçadan olan yaylıqlarla uyğunlaşdıraraq örtdükləri baş geyimi ləvazimatı olmuşdur. Qadın təsəyi qırmızı və ya yaşıl rəng məxmərdən tikilmiş kapor (çənə altından lentlə bağlanan qadın və ya uşaq papağı) və ya ləçək növüdür.

1. Azərbaycanın milli geyimləri mövzusunda festivalın keçirilməsi sizə tapşırılsa idi, nədən başlayardınız?
2. Həmin tədbirdə özünüz hansı geyimi nümayiş etdirərdiniz?

✓ *Q.Qaqarinin çəkdiyi şəkillərə münasibət bildirin.*



***Q.Qaqarin.***
***"Şamaxılı qız"***

Azərbaycanda geniş yayılmış, ənənəvi geyim növü olan vəznəli çuxa üst geyiminin, xüsusən də rəsmi geyimin əsas elementlərindən biri hesab olunurdu. Onu, adətən, çölə çıxanda, ictimai yerlərə gedəndə, qonaq qarşılayanda arxalığın üstündən, soyuq vaxtlarda isə ev şəraitində geyinirdilər. Hətta isti havada da ictimai yerlərə çuxasız və ya yaxası açıq çuxa ilə gəlmək münasib hesab olunmurdu. Bu etiketə bəylər və zadəganlar, hərbi-xalq idarələrinin qulluqçuları və b. ciddi riayət edirdilər.

Çuxanı, başlıca olaraq, göy, qara, boz və ya bej rəngli sarınmış mahuddan tikirdilər.

**Sevil Sadıxova, "XIX əsr Azərbaycan geyimi" kitabından**



***Q.Qaqarin. "Qarabağ bəyi"***

❍ Milli geyimlər haqqında publisistik və ya elmi mətn tərtib edin.

Bunun üçün:

3. Milli geyimlər haqqında əlavə məlumat və şəkillər toplayın.
4. Dərslikdə verilmiş şəkillər və kiçik, yığcam məlumatlardan istifadə edin.
5. Azərbaycan milli geyimlərində ən çox hansı atribut sizin xoşunuza gəlir?
6. Milli geyimlərimizi özündə təcəssüm etdirən hansı Azərbaycan filmlərinin adını çəkə bilərsiniz?

5

# AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİ

**Maddə 9. Silahlı Qüvvələr**

I. Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaradır.

II. Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir.

III. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanıdır.

*Azərbaycan Respublikasının Konstitusiyası*

**1** Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanıdır.

**2** Azərbaycan Respublikasının Silahlı Qüvvələri quru qoşunlarından, hərbi-hava qüvvələrindən və hərbi-dəniz qüvvələrindən, təşkilati cəhətdən isə Silahlı Qüvvələrin mərkəzi hərbi idarəetmə orqanlarından, birliklərdən, birləşmələrdən, hərbi hissələrdən, hərbi təşkilatlardan və hərbi təhsil müəssisələrindən ibarətdir. Silahlı Qüvvələrin ümumi strukturu və sayı Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunur. Silahlı Qüvvələrin təminatı dövlət büdcəsindən ayırmalar hesabına həyata keçirilir.

**3** Silahlı Qüvvələrin yaranma tarixi Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət dövrünə təsadüf edir. Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi elə ilk günlərdən respublikanın daxilində və xaricində olan şəraiti nəzərə alaraq Azərbaycanın müdafiəsini təmin etmək üçün milli ordu quruculuğunun bünövrəsini qoydu. 1917-ci il dekabrın 11-də yaradılmış Müsəlman Korpusu 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə "Xüsusi Azərbaycan Korpusu" adlandırıldı. 1918-ci ilin noyabrından Qafqaz İslam Ordusunun Azərbaycanı tərk etməsindən sonra respublikanın istiqlaliyyətinin qorunması bütünlükdə dövlət orqanlarının öz üzərinə düşürdü. Belə vaxtda

**ORFOQRAFİYA**

Bitişik, yoxsa ayrı?

➤ Mətndə altından xətt çəkilmiş sözlərin düzgün yazıldığını əsaslandırın.

**ORFOEPİYA**

Düzgün tələffüzü yazın

➤ müəssisə – [ .......... ]
➤ müavin – [ .......... ]
➤ müdafiə – [ .......... ]




ölkənin zəruri hərbi keyfiyyətlərə malik olan güclü ordusunun formalaşması tarixi əhəmiyyət kəsb edirdi. Ordunun yenidən qurulmasını canlandırmaq, onun formalaşmasını tarixi dövrün təcrübələri səviyyəsinə qaldırmaq üçün 1918-ci il oktyabrın 23-də respublika hökumətinin iclasında Hərbi Nazirliyin bərpa edilməsi qərara alındı. Nazirlər Şurasının qərarına uyğun olaraq noyabrın 7-də Hərbi Nazirlik təsis edildi. Nazir vəzifəsini Nazirlər Şurasının sədri Fətəli xan Xoyski öz üzərinə götürdü. Nazir müavini vəzifəsinə isə 1918-ci ilin oktyabrından Azərbaycanın dövlət orqanlarında işləyən tam artilleriya generalı Səməd bəy Mehmandarov təyin olundu və ona Hərbi Nazirliyi formalaşdırmaq həvalə edildi. Qısa müddət ərzində yaradılan gənc ordu hissələri 1919-cu ildə bir sıra mühüm döyüş əməliyyatları həyata keçirdi.

Heydər Əliyevin 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıtması ilə
4 ərbaycanın dövlət və ordu quruculuğunda yeni mərhələnin əsası qoyuldu; Silahlı Qüvvələr quruculuğu prosesi xalqın milli xüsusiyyətlərinə, tarixi, mədəni və hərbi ənənələrinə, respublikanın iqtisadi potensialına, eləcə də qabaqcıl dünya ölkələrinin təcrübəsinə uyğun aparılmağa başlandı.

5 "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" Qanunla Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın qaydaları və şərtləri əsgəri vəzifənin əsasları, gənclərin hərbi xidmətə hazırlıq qaydaları, səfərbərlik üzrə çağırışın və ordudan tərxisetmə üzrə buraxılmanın əsasları, həmçinin Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün kadrlar hazırlamaq və Silahlı Qüvvələrin döyüşə və səfərbərliyə daimi hazırlığını saxlamaq məsələləri təsbit edilir. 18 yaşına çatan və səhhətinə görə hərbi xidmətə yarayan kişi cinsindən olan hər bir Azərbaycan vətəndaşı ordu sıralarında həqiqi hərbi xidmət keçməlidir.

**"Azərbaycan Milli Ensiklopediyası"nın xüsusi "Azərbaycan" cildindən**



Mənə ordu gərəkdir, xəstəyə dərman kimi,
Mənə ordu gərəkdir, nəfəs kimi, can kimi.
Mənə ordu gərəkdir, sarsılmaz cahan kimi.
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!
Düşmənin yuvasını əlimlə pozmalıyam.
Səngəri dırnağımla, dişimlə qazmalıyam.
Tarixi qələmlə yox, qanımla yazmalıyam,
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!
Gözlər od, əllər silah, canlar sipər olmalı,
Kirpiyimiz sıxılmış yurda çəpər olmalı,
Damarda qan coşmalı, canda təpər olmalı,
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!
Bizə od vuranları yandırıb-yaxan gərək.
Torpağı gözümüz?tək qoruyub baxan gərək
Qəzəb dolu tüfəngəm, çaxmağı çaxan gərək
Ordum varsa, yurdum var,

Ordum yoxsa, yurdum yox!
Torpağa sahib olub yer üstə yerləşməsək,
Bir canda, bir ürəkdə, bir ruhda birləşməsək,
Millətin taleyini dürüst fikirləşməsək,
Özgələrdən bizlərə dırnaq qədər yardım yox.
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!
*İnamsız bir qartalın qanadları gərilməz,*
*Döyüşsüz azadlığın meyvələri dərilməz,*
*Şəhidsiz bir millətin vətən ruhu dirilməz,*
*Oğullar ola-ola, necə deyim mərdim yox.*
Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox!

***Zəlimxan Yaqub***

*Fərqləndirilmiş misralarda ifadə olunan fikrə münasibət bildirin.*

1. Cümləni tamamlayın.

   1. ____________________________
   2. ____________________________ kimi xüsusiyyətlər
   3. ________________________ mətnin ______________________________

   üslubda olduğunu deməyə əsas verir.

2. Mətndəki hansı abzaslar arasında əlaqə qırılır? Əlaqə yaratmaq üçün həmin abzasların arasında hansı məlumatı və ya faktı yerləşdirməyi təklif edirsiniz?

3. Mətndəki səbəb-nəticə əlaqələrini qruplaşdırın.

| **Səbəb** | **Nəticə** |
|---|---|
| Dövlət büdcəsindən ayırmalar | Silahlı Qüvvələrin təminatı |
| 1918-ci ildə AXC dövründə | Ordu quruculuğunun bünövrəsi |
| Azərbaycanın müdafiəsi | ............ |
| ............ | ............ |

✓ *Çərçivədə nöqtələrin yerinə nə yazılmalıdır?*

4. Mətnə əsasən ardıcıllığı tamamlayın.

   Müsəlman korpusu, .............., .............., ..............

5. Mətnə əsasən aşağıdakılardan hansı ordu quruculuğunu zəruri edən səbəblərdir?

   1. 1918-ci ildə respublikanın daxili və xarici şəraiti
   2. Xidmətə çağırışın qaydaları və şərtlərini hazırlamaq üçün
   3. Azərbaycanın müdafiəsini təmin etmək
   4. Silahlı Qüvvələrə kadrlar hazırlamaq üçün
   5. Gənc respublikanın istiqlaliyyətini qorumaq üçün

6. Aşağıdakı fikirlərdən biri mətndə yoxdur:

   A) Hərbi təhsil müəssisələrində təhsil almaq üçün Silahlı Qüvvələrdə xidmət etmək lazımdır.
   B) Silahlı Qüvvələrin təminatı dövlət büdcəsi hesabınadır.
   C) Xalq Cümhuriyyəti yarananda ordu quruculuğu məsələsi aktuallaşdı.
   D) 1918-ci ilin noyabrında artıq mükəmməl ordu formalaşmışdı.
   E) Silahlı Qüvvələrdə həqiqi hərbi xidmət və ordudan tərxisolunma "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" Qanunla tənzimlənir.

7. Suallardan birinə mətndə cavab tapmaq olar:

   A) S.Mehmandarov nə üçün Hərbi nazir təyin oldu?
   B) Nə üçün ordu quruculuğu 1918-ci ildə özünün yeni mərhələsinə qədəm qoydu?
   C) 1917-ci ilin dekabrında nə üçün Xüsusi Azərbaycan Korpusu yaradıldı?
   D) Hərbi Nazirliyin yaradılması təklifini kim irəli sürdü?
   E) Ali Baş Komandan kim tərəfindən təyin edilir?

8. Z.Yaqub ordunun vacibliyini hansı amillərlə təsdiqləyir?
9. Şeirdə *Ordum varsa, yurdum var, Ordum yoxsa, yurdum yox* misraları nə üçün təkrarlanır? Bu təkrar hansı zəruriyyətdən irəli gəlir?
10. "Azərbaycan Silahlı Qüvvələri" mətnindəki hansı fikirlər Z.Yaqubun şeirindəki fikirlərlə üst-üstə düşür? Niyə belə hesab edirsiniz?
11. Siz həqiqi hərbi xidmətə hazırsınızmı?
12. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, dövlətin tərkibi, dövləti yaradan şəxslər haqqında məlumat toplayıb təqdimat hazırlayın.

13. Verilmiş cümlələri tamamlayın.



- Raquf Orucov 12 iyul 1972 ____________________
- O, 2 aprel 2016-cı ildə ____________________
- Qarabağ döyüşlərində iştirak edən ____________________
- Azərbaycan Silahlı Qüvvələrinin ____________________
- 2016-cı ildə ____________________
- 1993-cü ildə anası Raya xanım ____________________
- 1994-cü ildə ____________________
- Murovdağda kəşfiyyat bölüyünün komandiri kimi ____________________
- Ölümündən sonra ____________________

1. "İgidliyə görə" medalı ilə təltif edilib.
2. Gəncədə vəfat etmişdir.
3. ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.
4. Ağdam rayonunda anadan olmuşdur.
5. aprel döyüşlərində qəhrəmanlıq nümayiş etdirmişdir.
6. namərd düşmən gülləsindən şəhid oldu.
7. Bakı Ali Hərbi Ümumqoşun Komandirləri Məktəbinə daxil olmuşdur.
8. polkovnik-leytenantı,
9. 1996-cı ildən fəaliyyət göstərmişdir.

14. Şeirdə məcazi mənalı sözləri tapın. Həmin sözləri cümlədə həqiqi mənada işlədin. “Azərbaycan Silahlı Qüvvələri” mətnində məcazlar varmı? Fikirlərinizi əsaslandırın.

15. Hər iki mətndə *ordu* sözünün kontekstə uyğun mənasını izah edin. Sizcə, bu söz terminoloji xarakter daşıya bilərmi?

16. Şeirin 3-cü bəndində sinonim sözləri müəyyənləşdirin.

17. Aşağıdakı sözlərin leksik mənalarının düzgün verilib-verilmədiyini aydınlaşdırın.

**Təsis** → əsasını, binasını, təməlini qoyma; qurma, yaratma.

**Təsir** → əsər etmə və bunun nəticəsində əmələ gələn hal, əlamət.

**Təsvir** → əşyanın surətini, şəklini çəkmə; şəkil, rəsm.

18. Şeirin hansı misrasını *həmrəylik* sözü ilə əvəz etmək olar?

19. *Komandan* və *komanda* sözlərinin məna fərqini müəyyənləşdirin.

20. Aşağıdakılardan biri *təsbit etmək* sözünün leksik mənasıdır.

**Təsbit etmək**

- əvvəl deyilmiş bir sözün, fikrin düzgünlüyünü təsdiq etmək
- deyilən sözün başqasının fikrinin, yaxud sənədin həqiqi olduğunu təsdiqləmə

21. Mətndə altından xətt çəkilmiş cümlədə *gənc* sözünü onun sinonimləri ilə əvəz etmək olarmı?

22. *Komandan* sözünün vurğusunu dəyişməklə cümlədə işlədin.

23. Mətndə (səh. 174–175) altından xətt çəkilmiş sözlərin böyük hərflə yazılmasının səbəbini izah edin.

24. Mətnin (səh. 174–175) 1-ci abzasında *-ır*[4] indiki zaman şəkilçisindən, sonrakı abzaslarda *-dı*[4] keçmiş zaman şəkilçisindən istifadə olunmuşdur. Sizcə, bu, üslubi səhv hesab edilirmi?

25. Şeirdə hansı misralarda bədii təzaddan istifadə edilib? Mətndə obrazlılığın daha hansı göstəriciləri vardır?

26. Şeirdə göy rəngdə verilmiş söz bitişik, yoxsa ayrı yazılmalıdır?

27. Şeirdə altından xətt çəkilmiş cümlələrdə hansı şəkilçi ixtisar olunmuşdur? Şəkilçini əlavə etsək, məzmun baxımından dəyişiklik yaranacaqmı?

28. Cümlələri tamamlamaqla "Azərbaycan Milli Ordusunun yaranması və inkişafı" mövzusunda mətn tərtib edin.

- 26 İyun Azərbaycan ________________________________

  2018-ci il Milli Ordunun ________________________________

✓ *2016-cı ilin aprel döyüşləri barədə;*

✓ *azad edilmiş Cocuq-Mərcanlı haqqında məlumat toplayıb mətnə əlavə edin.*

6

# VƏTƏN

İnsan Vətənini sevir, çünki hürriyyəti, firavanlığı, haqqı onun sayəsində mövcuddur.

*Namiq Kamal*



Mən səndən bir yaşıl budaq istədim,
Sən mənə bəxş etdin zümrüd meşələr.
Mən səndən kiçik bir otaq istədim,
Sən mənə bəxş etdin dilbər guşələr.

Mən səndən adicə həyat istədim,
Sən məni çıxardın min-min səhərə.
Mən səndən kiçik bir qanad istədim,
Sən məni uçurdun ənginliklərə.

Mən səndən bir dəstə çiçək istədim,
Mənimçün dörd fəsli yaz elədin sən.
Mən səndən ilhamlı ürək istədim,
Sən mənə təb verdin milyon ürəkdən.

Mən səndən kiçik bir sevinc istədim,
Sən mənə bəxş etdin bütöv səadət,
Mən səndən bir parça bürünc istədim,
Sən mənə bəxş etdin xəzinə, dövlət.

Mən səndən istədim açıq bir alın,
Sən mənə bəxş etdin əzəmət, vüqar,
Mən də başıaçıq, ayağıyalın
Yolunda can qoysam, yenə az olar.

Bəlkə, buna görə əzəmətlisən –
Nəyin var vermisən əsirgəmədən!
Sən bir ana kimi səxavətlisən,
Anam Azərbaycan, Vətən, can Vətən!

**Əliağa Kürçaylı**

- Şeirdə ifadə olunan fikirlərə münasibət bildirin.
- İl ərzində öyrəndiklərinizi tətbiq etməklə mətn üzərində iş aparmaq üçün sualları özünüz tərtib edin.
- İlk növbədə, *Mən bu Vətən üçün nə edirəm?* sualı daim düşüncələrinizə hakim kəsilsin.

*Bizim hamımızın bir Vətəni var – bu, Azərbaycan dövlətidir.*

*Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır.*

*Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır.*

***Heydər Əliyev,***
*Ümummilli lider*

# LÜĞƏT

| | | |
|---|---|---|
| A | **Admiral** | bütün dövlətlərdə qəbul edilmiş hərbi dəniz donanmasında yüksək rütbə |
| | **Alabaxta** | meşə göyərçini |
| | **Araba** | iki və ya dördtəkərli nəqliyyat vasitəsi |
| | **Artilleriya** | 1. Müxtəlif quruluşlu və ölçülü toplar. 2. Topçu qoşunu. 3. Topların quruluşu, xassəsi və hərbi əməliyyatda tətbiqi haqqında elm; topçuluq elmi |
| | **Ayin** | 1. Qayda, qanun. 2. Dini mahiyyətdə olan mərasim; ibadət |
| | | |
| B | **Bariz** | aşkar, aydın, gözəçarpan |
| | **Başaq** | biçin zamanı yerə tökülən sünbül qırıntıları; sünbül |
| | **Bəxş etmək** | bağışlamaq, vermək |
| | **Bənd** | 1. Skelet sümüklərinin oynaq yerləri; buğum, məfsəl. 2. Müxtəlif hissələrdən ibarət olan şeyin hissələrini bir-birinə rəbt edən, bağlayan, bərkidən bağ və s. 3. Ümumiyyətlə, bağ, ip, düyün. 4. Ayrı-ayrı hissələrdən ibarət olan bir şeyin bir parçası. 5. Qanun məcəlləsinin, yaxud hər hansı bir mətnin, sənədin və s.-nin rəqəm və ya hərflə ayrılan kiçik hissəsi, maddəsi. 6. Bir yeri seldən, daşqından qorumaq, yaxud suyun (arxın, kanalın) kənara axmasının qabağını almaq üçün çəkilən sədd |
| | **Boğaz** | *coğr.* Dənizin iki quru arasındakı dar hissəsi |
| | **Böyürtkən** | tutabənzər meyvəsi olan yabanı kol bitkisi |
| | **Buxaq** | insanın çənəsi ilə boğazı arasındakı hissə; çənəaltı |
| | | |
| C | **Cəngəllik** | sıx ağaclıq, kolluq, kol-kosluq; keçilməz qalın meşə, ya kolluq |
| | | |
| Ç | **Çələng** | gül və bitkilərdən dairə şəklində hörülmüş zinət, bəzək |
| | **Çuğul** | xəbərçi, xəbəraparan |
| | | |
| D | **Demenoloji** | müxtəlif miflərə verilmiş ümumi ad |
| | **Dərviş** | 1. Qapı-qapı gəzərək, yaxud meydançalarda adamları başına yığaraq peyğəmbərə, imamlara və Kərbəla hadisələrinə həsr olunmuş qəsidələri avazla oxuyub pul yığan adam. 2. Yoxsul, kasıb, fağır, yazıq mənasında |

| | | |
|---|---|---|
| | **Dərz** | biçilmiş taxıl bağlaması |
| | **Dırmıq** | torpağın içində olan quru ot, kök qalıqları və s.-ni darayıb təmizləməyə, kəsəkləri xırdalamağa məxsus kənd təsərrüfatı aləti; çəng |
| | **Donanma** | Ölkənin, yaxud ayrıca bir dənizin, çay hövzəsinin hərb və ya ticarət gəmilərinin hamısı |
| | | |
| E | **Ehtiva** | içinə almaq, daxilində olmaq, tərkibində yerləşmək, əhatə etmək, qavramaq |
| | **Ekipaj** | 1. Gəminin, təyyarənin, tankın və s.-nin şəxsi heyəti; komandası. 2. Dəniz piyadasının sahil qoşunu |
| | **Ekspressiv** | mənalı, təsirli, ifadəli |
| | **Eskadrilya** | bir neçə təyyarə dəstəsindən ibarət olan hərbi aviasiya |
| | | |
| Ə | **Ədavət** | ürəkdə saxlanılan düşmənçilik hissi, kin, kidurət, qərəz, birinə qarşı qəzəb hissi |
| | **Əxz etmək** | almaq, götürmək, alıb mənimsəmək |
| | **Əzgil** | gülçiçəkkimilər fəsiləsinə aid bitki cinsi |
| | **Əzm** | qəti niyyət, qəti qərar, qəsd |
| | | |
| F | **Flaqman** | böyük hərbi gəmi birləşməsinin (eskadra, diviziya, dəstə) komandanı, habelə həmin gəmi birləşməsi komandanının olduğu gəmi |
| | **Fond** | 1. Hər hansı məqsəd üçün ayrılan pul və ya maddi vəsait. 2. Faizli, qiymətli kağızlar. 3. Yaradıcı xadimlərə (memarlara, yazıçılara və b.-na) maddi yardım göstərən təşkilat, idarə |
| | **Freqat** | Əvvəllər: üçdorlu yelkənli hərb gəmisi, sonralar isə gözətçi xidməti üçün çox sürətli hərb gəmisi |
| | | |
| G | **Güvənmək** | arxalanmaq, bel bağlamaq |
| | | |
| H | **Hafizə** | bir şeyi zehnində, yadında saxlama və yenidən təsəvvüründə canlandırma qabiliyyəti; yaddaş |
| | **Həvalə etmək** | üzərinə, öhdəsinə buraxmaq, qoymaq tapşırmaq |

| | | |
|---|---|---|
| X | **Xalça** | divara vurmaq və ya döşəməyə salmaq üçün müxtəlif rəngli yun və ya iplik saplardan toxunmuş naxışlı döşənəcək |
| | **Xalı** | böyük xalça |
| | **Xatir** | 1. İnsanın keçmişdə olmuş bir şeyi yadda saxlama qabiliyyəti; yaddaş, zehin. 2. Könül, ürək, qəlb mənasında |
| | **Xəznə (xəzinə)** | pul, cavahirat və s. qiymətli şeylər saxlanılan yer |
| | **Xov** | bəzi parçaların, xalça və s. üzərində incə tükcüklər |
| | **Xovlu** | xovu olan, üstü xovla örtülü |
| | **Xovsuz** | xovu olmayan |
| | | |
| İ | **İlgək** | 1. Paltarın yaxasında, qolunda, cibinin ağzında və b. yerində düyməni və ya qarmağı keçirmək üçün sapdan, qaytandan düzəldilən balaca yarıq və ya halqa; düymə yeri. 2. Rəsmi paltarın yaxasında rəngli sırma |
| | **İsrafçılıq** | israfa yol vermə, artıq və lazımsız yerə xərcləmə, dağıtma |
| | **İssız** | heç bir insan yaşamayan, əhalisiz, boş, xali, şenliksiz |
| | | |
| K | **Kilim** | yun və ya pambıqdan toxunan zolaqlı, xovsuz palaz növü |
| | **Konfrans** | müəyyən məsələləri müzakirə və həll etmək üçün partiya, ictimai və s. təşkilat nümayəndələrinin, habelə hökumət nümayəndələrinin müşavirəsi, yığıncağı |
| | **Kontr-admiral** | *Donanmada*: ilk (kiçik) admiral rütbəsi və belə rütbəsi olan şəxs |
| | **Körfəz** | *coğr*. okeanın, dənizin və ya gölün qurunun içinə soxulmuş hissəsi |
| | **Kövrək** | 1. Tez ovulan, tez dağılan, tez sınan. 2. Zəif, titrək, nazik, yumşaq, həzin, ağlamsınan. 3. Tez təsirlənən, tez mütəəssir olan; ürəyi yuxa, yumşaq |
| | **Kreyser** | qüvvətli silahları olan çox sürətli hərb gəmisi |
| | **Küsənmək** | ummaq, gileylənmək, giley-güzar etmək, küsən kimi olmaq |
| | | |
| | **Qeyzlə** | qəzəblə, hirslə |
| | **Qənaət** | bir şeyi ehtiyatla, sərfəli və səmərəli işlətmə, artıq işlətmə, israf etməmə |

| | | |
|---|---|---|
| Q | **Qızmar** | çox qızğın, yandırıcı, qaynar |
| | **Qurultay** | hər hansı bir təşkilat və ya ixtisas nümayəndələrinin ictimai-siyasi, yaxud elmi xarakter daşıyan geniş yığıncağı |
| | | |
| L | **Lad** | musiqidə: səs sırasını qurma, sözləri yerləşdirmə üsulu; musiqi əsərinin quruluşu |
| | **Landşaft** | 1. *coğr.* Hər hansı bir yerin tipik əlamətlərinin məcmusu / Yer səthinin quruluşu. 2. Mənzərə |
| | | |
| M | **Maarif** | əhali arasında savad, bilik, mədəniyyət yaymaq üçün mütəşəkkil surətdə həyata keçirilən tədbirlər sistemi |
| | **Massiv** | 1. *coğr.* Geoloji quruluş cəhətdən bir cür olan yastı dağ təpələrindən ibarət sahə. 2. Hər hansı əlamətlərinə görə bir cür olan geniş sahə |
| | **Medal** | xüsusi xidmətlərinə, yaxud əməkdə göstərdiyi rəşadətə görə verilən, üzərində hər hansı bir qabarıq təsvir və ya yazı olan fərqlənmə nişanı |
| | **Məhək** | qızıl və gümüşün əyarını təyin edən bir cins daş |
| | **Məxəz** | 1. Bir şeyin alındığı yer, əsl yeri; mənbə. 2. Elmi tədqiqatın əsaslandığı yazılı abidə, sənəd, əsər və s.; mənbə |
| | **Mərasim** | qəbul və ya müəyyən olunmuş qayda və üsullarla icra edilən təntənə, ya başqa adət, ənənə |
| | **Məziyyət** | bir şeyin, adamın üstünlüyünü təşkil edən xüsusiyyəti |
| | **Mina** | 1. Metal və s. şeylərin üzərinə çəkilən rəngli şüşəvarı təbəqə, çox incə və parlaq naxış; üzərinə mina ilə naxışlar çəkilmiş, minalı. 2. Mina kimi parlaq, gözəl. 3. Dişi parlaq, möhkəm maddə, qabıq |
| | **Miniatür** | 1. Qədim əlyazmalarında, kitablarda incə, rəngli şəkil və ya bəzəkli iri hərf (yazı); 2. Zərif işlənmiş kiçik rəsm, şəkil; 3. Kiçik ədəbi və ya musiqi əsəri; 4. Kiçik və incə (zərif) |
| | **Mötəbər** | 1. Etibarlı, inanılan, inanıla biləcək, etibar edilən. 2. Hörmətli, xatiri sayılan, sözükeçən, tanınmış, sözünə və təmizliyinə etibar olunan, nüfuzlu |
| | **Musiqi ladları** | səs sırasını qurma, səsləri yerləşdirmə üsulu; musiqi əsərinin quruluşu |
| | **Mülahizə** | yaxşı düşünülmüş fikir, rəy, nöqteyi-nəzər |

| | | |
|---|---|---|
| N | **Nəvaziş** | oxşama, əzizləmə, mehribanlıq etmə, riqqət göstərmə; mehribanlıq, riqqət |
| | | |
| O | **Oraq** | taxıl, ot, və s. biçmək üçün qısadəstəli, yarımdairəvi kəsici kənd təsərrüfatı aləti |
| | **Orden** | hərbi və ya mülki xidmətlərə görə dövlət tərəfindən verilən müxtəlif dərəcəli və adlı fərqlənmə nişanı |
| | **Ornitologiya** | zoologiyanın quşlar bəhsi |
| | **Ornitoloji** | ornitologiyaya aid olan, ornitologiya ilə əlaqədar olan |
| | | |
| Ö | **Ölçü-biçi** | 1. Hər hansı bir şeyi ölçmək üçün qəbul edilmiş vahid; 2. Hər hansı bir şeyin müəyyən vahidlər əsasında təyin edilən böyüklüyü, kiçikliyi, biçimi, dərəcəsi |
| | **Örnək** | nümunə, misal |
| | | |
| P | **Palaz** | yundan və ya pambıqdan toxunma enli, uzun, xovsuz xalça növü |
| | **Pər** | 1. Quş tükü. 2. Qanad. 3. Müxtəlif maşın və qurğuların fırlanan hissəsi, qanadı |
| | **Professional** | müəyyən bir işi özünə peşə etmiş; peşəkar |
| | **Psixoloji** | 1. Psixologiyaya aid olan, psixologiya ilə bağlı olan. 2. İnsanın psixoloji fəaliyyəti ilə bağlı olan. 3. Təsvir olunan surətlərin psixologiyasının dərin təsviri əsasında qurulmuş, yaradılmış |
| | | |
| R | **Rapsodiya** | 1. Qədim yunan səyyar xanəndələrinin (rapsodlarının) simli musiqi alətinin müşayiəti ilə ifa etdikləri epik nəğmələr. 2. Xalq mahnı və rəqsləri mövzusunda yazılmış instrumental və ya vokal instrumental əsər |
| | **Repertuar** | teatrda, estradada, konsertdə və s.-də ifa olunan dramaturji, musiqi və s. əsərlərin məcmusu |
| | **Replika** | 1. Natiqin çıxışı və ya tamaşa zamanı yerdən atılan söz, edilən etiraz. 2. Tərəflərdən birinin məhkəmə prosesində etirazı. 3. Səhnədə bir rolda oynayan şəxsin tərəf-müqabilin sözlərinə cavabı, habelə bir personajın axırıncı sözləri (ki, bunun ardınca o biri personajın sözləri gəlir). 4. Musiqi frazasının başqa səs və ya başqa tonda təkrarı |

| | | |
|---|---|---|
| | **Rica** | birinə müraciət edərək bir işin yerinə yetirilməsini arzu etmə, istəmə; xahiş |
| | **Rica etmək** | xahiş etmək, yalvarmaq |
| | | |
| S | **Sağanaq** | 1. Qaval, ələk, xəlbir və bu kimi dəyirmi şeylərə keçirilən çənbər, qasnaq. 2. Ümumiyyətlə, çənbər şəklində olan hər cür şey |
| | **Salxım** | üzüm gilələrinin bir budaqcıqdakı topası |
| | **Sayrı** | xəstə |
| | **Səth** | 1. Bir şeyin xarici tərəfi, üst tərəfi, üz tərəfi. 2. Səviyyə |
| | **Sincab** | ağaclarda yaşayan və açıq-kül rəngində qiymətli xəzi olan gəmirici kiçik heyvan |
| | **Sintez** | Bir şeyi və ya hadisəni küll halında, onu təşkil edən hissələri arasındakı qarşılıqlı əlaqə və vəhdəti daxilində tədqiqetmə üsulu |
| | **Sirayət** | yoluxma, keçmə |
| | **Subalp** | coğrafi qurşaq |
| | **Surğuclan-maq** | surğuc vurmaq |
| | **Sünbül** | 1. Taxıl bitkilərinin gövdəsinin başında dənlərin yerləşdiyi hissə. 2. Salxım şəklində ətirli çiçəkləri olan bir bitki |
| | | |
| Ş | **Şəfqət** | rəhm, mərhəmət, acıma, yazığı gəlmə, ürəyi yanma, riqqət |
| | **Şəninə (şanına)** | ad-sanına, şöhrətinə, şərəfinə |
| | **Şərqşünas** | şərqşünaslıq mütəxəssisi |
| | **Şoranlıq** | şoran, şoran yer, torpaq |
| | | |
| T | **Təcavüzkar** | təcavüz edən, təcavüz (hücum) edən tərəf; qəsbkar, təcavüzçü |
| | **Təşəbbüs** | 1. Bir işə başlama, iqdam etmə. 2. Təşəbbüskarlıq; müstəqil, fəal hərəkət etmək qabiliyyəti |
| | **Təşviş** | 1. Bir-birinə əks hislərin mübarizəsindən doğan narahatlıq; təlaş, həyəcan |

| | | |
|---|---|---|
| | **Təvazö (təvazökar)** | Öz üstünlüklərini, məziyyətlərini gözə çarpdırmağı, öz xidmətləri ilə qürrələnməyi sevməmə, şöhrətpərəstlikdən, lovğalıqdan uzaq olma; sadəlik |
| | **Təvazökarlıq** | Təvazökar adamın xasiyyəti; sadəlik, təvazö |
| | **Toxtaq** | sakit, rahat, aram, arxayın |
| | | |
| **Ü** | **Üvəz (quşar-mudu)** | soyuğadavamlı bitki |
| | | |
| **V** | **Vitse-admiral** | mürəkkəb sözlərin əvvəlində: müavin, köməkçi mənasında olan hissəcik |
| | **Vokal** | səsə aid olan, oxumaqla ifa edilən, oxumağa aid olan, oxumaq üçün yazılmış |
| | | |
| **Y** | **Yamac** | dağın, təpənin ən yüksək nöqtəsindən aşağıya maili səthi |
| | | |
| **Z** | **Zadəgan** | hakim sinfin yüksək kübarlar təbəqəsi, əsilzadələr, aristokratiya |
| | **Zəmi** | əkin yeri, tarla |
| | **Zəvvar** | ziyarət edən, ziyarətə gələn və yaxud ziyarətdən qayıdan şəxs; ziyarətçi |
| | **Zireh** | 1. Ox və s. yaralayıcı silahlardan qorunmaq üçün döyüşçülərin üstdən geyindikləri dəmir tordan, yaxud qalın dəridən geyim. 2. Hərbi gəmilərdə, tanklarda və s.-də xüsusi polad laylardan ibarət möhkəm qoruyucu örtü. 3. Bəzi heyvanların (tısbağa, timsah və b.) bədənini örtən bərk qabıq |
| | **Zirehli** | 1. Zireh geyinmiş. 2. Zirehlə örtülmüş, üzərinə zireh çəkilmiş |

## DƏRSLİKDƏ İXTİSARLA VERİLMİŞ ŞƏXS ADLARI

A.Bayramov – Akif Bayramov
A.Səhhət – Abbas Səhhət
B.Vahabzadə – Bəxtiyar Vahabzadə
C.Cabbarlı – Cəfər Cabbarlı
C.Novruz – Cabir Novruz
Ə.Cəfərzadə – Əzizə Cəfərzadə
Ə.Turxan – Əbu Turxan
F.Şiller – Fridrix Şiller
H.Arif – Hüseyn Arif
H.Cavid – Hüseyn Cavid
X.R.Ulutürk – Xəlil Rza Ulutürk
İ.Kant – İmmanuil Kant
İ.Şıxlı – İsmayıl Şıxlı
J.J.Russo – Jan Jak Russo
L.Tolstoy – Lev Tolstoy
M.Araz – Məmməd Araz
M.Maqomayev – Müslüm Maqomayev
M.Müşfiq – Mikayıl Müşfiq
M.Rəsulzadə – Məhəmməd Əmin Rəsulzadə
M.Şəhriyar – Məhəmmədhüseyn Şəhriyar
N.Gəncəvi – Nizami Gəncəvi
R.Behbudov – Rəşid Behbudov
R.Hüseynov – Rafael Hüseynov
R.Rza – Rəsul Rza
S.Cordan – Star Cordan
S.Rəhimov – Süleyman Rəhimov
S.Rüstəm – Süleyman Rüstəm
S.Vurğun – Səməd Vurğun
T.Bayram – Tofiq Bayram
Ü.Hacıbəyli – Üzeyir Hacıbəyli
Z.Yaqub – Zəlimxan Yaqub

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. A.Bəylərova. Bədii dildə üslubi fiqurlar. “Nurlan”, Bakı, 2008.
2. Aforizmlər: seçilmişlərdən seçilmişlər. Prof. Dr. Səlahəddin Xəlilovun təqdimatında. Bakı, “Çaşıoğlu”, 2012.
3. “Ailəm” jurnalı, Bakı, 2008–2009.
4. Atalar sözü. Bakı, “Yazıçı”, 2010.
5. Ayna uşaq ensiklopediyası. Bakı, 2004.
6. Azərbaycan nağılları. Bakı, “Şərq-Qərb”, 2005.
7. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə. Bakı, “Şərq-Qərb”, 2006.
8. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, “Şərq-Qərb”, 2013.
9. Azərbaycan dilinin omonimlər lüğəti. Bakı, “Şərq-Qərb”, 2007.
10. Azərbaycan dilinin sinonimlər lüğəti. Bakı, “Yazıçı”, 1990.
11. Azərbaycan dilinin antonimlər lüğəti. Bakı, “Şərq-Qərb”, 2007.
12. Azərbaycan Respublikasının Milli Atlası. Bakı, 2014.
13. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, “Çıraq” nəşriyyatı, 2007.
14. Azərbaycan Milli Ensiklopediyası. Bakı, “Şərq-Qərb”, 2008.
15. “Azərbaycan” kitabı. Bakı, “Şərq-Qərb”, 2002.
16. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. Bakı, “Şərq-Qərb”, 2002.
17. B.Abdulla, T.Babayev. Novruz ensiklopediyası. Bakı, “Şərq-Qərb”, 2008.
18. B.Vahabzadə. Seçilmiş əsərləri. Bakı, “Öndər” nəşriyyatı, 2004.
19. C.Məmmədquluzadə. Əsərləri. Bakı, “Şərq-Qərb”, 2004–2005.
20. Dünyanın 100 ən yaxşı universiteti. Bakı, “Şərq-Qərb”, 2012.
21. Ə.Haqverdiyev. Əsərləri. 2 cilddə. Bakı, “Lider” nəşriyyatı, 2005.
22. “Ədəbi proses–2015”. AMEA, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəşri. Bakı, 2016.
23. “Füyuzat” jurnalı. Bakı, 2009–2010, 2012.
24. “Xalq” qəzeti, 2008-ci il
25. X.R.Ulutürk. Taparam səni. Bakı, “Yazıçı”, 1980.
26. “İrfan” jurnalı, Bakı, “Cəfərov qardaşları”, 2015.
27. “İşıq” qadın jurnalı, Bakı, 2014, №3.
28. İ.Şıxlı. Seçilmiş əsərləri. Bakı, “Şərq-Qərb”, 2005.
29. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. 2 cilddə. Bakı, “Şərq-Qərb”, 2005.
30. Q.Kazımov. Müasir Azərbaycan dili. Bakı, “Elm və təhsil”, 2010.
31. “Naşir” jurnalı, Bakı, 2014.
32. R.Hüseynov. Vaxtdan uca. Bakı, “İşıq” nəşriyyatı, 1987.
33. S.Sadıxova. XIX əsr Azərbaycan geyimi. Bakı, “Şərq-Qərb”, 2013.
34. Ş.Nəzirli. General Şıxlinski və onun silahdaşları. Bakı, “Şərq-Qərb”.
35. https://az.wikipedia.org/wiki/%C5%9Eablon:%C4%B0qlim_c%C9%99dv%C9%99li

## Buraxılış məlumatı

**AZƏRBAYCAN DİLİ 11**

*Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün*
*Azərbaycan dili (dövlət dili) fənni üzrə*

**DƏRSLİK**

**Tərtibçi heyət:**

Müəllif **Samirə Bektaşi**

Buraxılışa məsul **Sevil İsmayılova**
Baş redaktor **Ülkər Məmmədova**
Üz qabığının dizaynı **Nurlan Nəhmətov**
Dizayner və səhifələyici **Yeganə Rüstəmova**
Redaktor **Nərgiz Cabbarlı**
Korrektor **Nübar Qarayeva**
Texniki redaktor **Fəridə Səmədova**
Texniki direktor **Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru **Eldar Əliyev**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi:*
*2018-167*



**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2018**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi. Fiziki çap vərəqi 12. Formatı 70x100 $^1/_{16}$.
Səhifə sayı 192. Ofset kağızı. Jurnal qarnituru. Ofset çapı.
Tiraj 7280. Pulsuz. Bakı – 2018.

**“Şərq-Qərb” ASC**
**AZ1123, Bakı, Aşıq Ələsgər küç., 17.**

Pulsuz

## Əziz məktəbli!

Bu dərslik sənə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir.

O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sənə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, sən də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsan ki, növbəti dərs ilində digər məktəbli yoldaşın ondan sənin kimi rahat istifadə edə bilsin.

Sənə təhsildə uğurlar arzulayırıq!